www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 may 2015-ci il Cümə № 93 (6121) Qiymәti 40 qəpik

**Xəbər**

## Milli Şuranın 3 may mitinqinə icazə verilmədi

yazısı səh.3-də

**Gündəm**

### Tofiq Yaqublu bu gün həbsxanaya qayıdır



Vicdan məhbusunun azadlıq müddəti günorta saatlarında bitir; başqan müavininin azad olunacağına inam hələ də var

yazısı səh.5-də

### Hüquqşünas Səfər Əbiyevin istintaqa cəlb edilməsinin yollarını göstərdi

yazısı səh.6-da

### Ermənilərin "soyqırım" planlarına daha bir zərbə

yazısı səh.8-də

### "Azərbaycan Kürdləri" İB-nin sədri Ərbildəki görüşlərindən danışdı

yazısı səh.10-da

### Prezidentlərin Moskva görüşü ərəfəsində düşmənə xəbərdarlıq

yazısı səh.11-də

### ABŞ Dövlət Departamenti ittihamlara münasibət bildirdi

yazısı səh.7-də

### Unudulan ADNA qurbanları...

yazısı səh.13-də

### Məmurlara sanksiya məsələsi yenidən gündəmdə

yazısı səh.8-də

### Azərbaycan hərbi imkanlarını müharibə üçün səfərbər edir

yazısı səh.4-də

### Müxalifət "Kerrinin "kirli planları"na inanmır

yazısı səh.9-da

### Seçki ilinin dörd ayı: müxalifət üçün ibrət dərsi...

yazısı səh.13-də

### "Freedom House"nin hesabatına reaksiya gəldi

yazısı səh.4-də

## Con Kerri köməkçisini Bakıya göndərir

# ABŞ "ÇEVRİLİŞ VƏ İNQİLAB" İTTİHAMLARINA CAVAB VERMƏYƏ GƏLİR

Amerika dövlət katibinin demokratiya və insan hüquqları məsələləri üzrə köməkçisi Tom Malinovski Azərbaycan iqtidarına sərt mövqeyi ilə seçilir; Bəhreyinin "persona non-qrata" elan etdiyi rəsmi şəxsi Bakıda çətin danışıqlar gözləyir




yazısı səh.7-də

## "Nurgün Motors"un Nurunu niyə söndürürlər - şok səbəb

"Nuru Əliyevin cəzalandırılmasının məqsədi haqda sensasion iddialar var; deyilənə görə, "iş adamı müxalifətin bir qanadına pul ötürürmüş..."

yazısı səh.3-də



### Sabiq səfir Steynar Gilin müsahibəsi aranı qatdı

yazısı səh.3-də



*Mehdi Xəlilbəyli:*

### "500 milyonluq Avropanı kəndimizin fermasına dəyişmərəm"

yazısı səh.12-də



### Pənah Hüseyn 1 mayın qeyd edilməsini istəyir

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015

# İlham Rəhimovun kitabı ingiliscə nəşr olundu




**Professor İlham Rəhimovun "Cinayət və cəzanın fəlsəfəsi" adlı kitabı ingilis dilində çapdan çıxıb. Hüquq elmləri doktoru, professor İlham Rəhimovun Moskvada rus dilində çap olunmuş "Flosofiya prestupleniya i nakazaniya" ("Cinayət və cəzanın fəlsəfəsi") adlı növbəti kitabı İngiltərədə də çap olunub. İngilis dilinə tərcümə olunmuş bu kitab təkcə Azərbaycanda deyil, dünyanın bir sıra ölkələrində də oxucular tərəfindən maraqla qarşılanıb.**

Nəfis üslubda nəşr olunmuş kitabda cinayət hüququnun təməl problemlərindən bəhs olunur. Müəllif cinayətin mənbəyinə və səbəblərinə, eləcə də cəzanın məzmununa fəlsəfi mövqedən yanaşıb. Kitab hüquq fakültələrinin müəllimləri, aspirantlar və tələbələr, eləcə cinayət hüququ sahəsində ixtisaslaşmış hüquq-mühafizə orqanları işçiləri, nəzəriyyəçilər üçün nəzərdə tutulub. Nəşrdən həmçinin sosioloqlar, psixoloqlar və cinayətkarlıqla mübarizənin aparılmasına maraq göstərən hər kəs yararlana bilər.

Yaxın günlərdə Londonda təqdimatı nəzərdə tutulan kitabın İtaliya və İsraildə də nəşr olunması gözlənilir.

❑ Musavat.com

# "Bank of Baku"ya yeni sədr təyin olundu

**"Bank of Baku" ASC-nin Müşahidə Şurasının iclasında bankın yeni İdarə Heyətinin sədri vəzifəsinə Abbas İbrahimov təyin edilib. Bankdan verilən məlumata görə, Abbas İbrahimov may ayının 1-dən etibarən yeni səlahiyyətlərinin icrasına başlayacaq. Qeyd edək ki, "Bank of Baku"nun əvvəlki rəhbəri Fərid Hüseynov tutduğu vəzifədən öz xahişi əsasında azad edilib və peşəkar fəaliyyətinə digər maliyyə qurumda davam edəcək.**

Abbas İbrahimova gəlincə isə o, 1999-2003-cü illərdə Türkiyənin Ankara Universitetində iş iqtisadiyyatı üzrə bakalavr dərəcəsini, 2003-2005-ci illərdə isə İstanbul Texniki Universitetində biznes inzibatçılığı üzrə maqistr dərəcəsini alıb. Bankdakı iş fəaliyyətinə 2005-ci ildə başlayan Abbas İbrahimov bir müddət sonra şöbə müdiri, daha sonra isə departament direktoru vəzifəsinə qədər yüksəlib. 2010-cu ildə isə "Bank of Baku"nun İdarə Heyəti sədrinin müavini, pərakəndə sahə üzrə idarə heyətinin üzvü vəzifəsinə təyin edilib.

# ABU-da təhsili yarımçıq qalanların attestatı qaytarılır

**"Fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetində təhsili yarımçıq qalan tələbələrin attestatlarının qaytarılmasına gələn həftə başlanacaq". Bunu Təhsil Nazirliyinin sektor müdiri Cəsarət Valehov deyib.**

C.Valehov bildirib ki, ilkin mərhələdə 5000 nəfərin attestatı qaytarılacaq: "Bu və ya digər səbəbdən attestatlarını ala bilməyən şəxslər nazirliyin 146 "Qaynar xətti"nə müraciət edib qeydiyyatdan keçməlidirlər. Sonra şəxsiyyət vəsiqələrini həftənin 2-ci və 3-cü günü nazirliyin Vətəndaşların Qəbul Mərkəzinə təqdim edərək öz attestatlarını ala bilərlər. Burada söhbət diplomdan yox, attestatdan gedir. Bu proses mərhələli şəkildə davam etdiriləcək".

# Nazir vergidən güzəşt istəyir

**"Azərbaycanda müdafiə sənayesinin fəaliyyətinin stimullaşdırılması məqsədi ilə bəzi təkliflər hazırlanıb". "Qafqazinfo" xəbər verir ki, bunu «Azeri defence»ə müsahibəsində müdafiə sənayesi naziri Yavər Camalov bildirib. Nazirin sözlərinə görə, təkliflər sırasında müdafiə sənayesi müəssisələrinin bəzi vergilərdən azad edilməsi də yer alır. "Bu istiqamətdə biz hökumətə təkliflər vermişik. Təkliflərimizdə əmlak vergisi, torpaq vergisi və əlavə dəyər vergisi ilə bağlı güzəştlərin tətbiq edilməsi var. Yəqin ki, yaxın zamanlarda buna nail olacağıq", - deyə nazir vurğulayıb.**

Nazir Azərbaycanda snayper tüfəngləri üçün döyüş sursatlarının istehsalı istiqamətində layihənin həyata keçiriləcəyini də bildirib: "Bu sursatların istehsal xəttinin alınması, qurulması və istehsalı ilə bağlı təkliflər tərəfimizdən hökumətə təqdim olunub. Düşünürəm ki, növbəti ildən bu layihəni həyata keçirməyə başlayacağıq. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bütün bunlarla yanaşı Azərbaycanda döyüş sursatlarının istehsalında istifadə olunan barıt, trotil və heksogen zavodlarının tikintisi işləri aparılır. 2016-cı ilin sonuna hər üç zavod işə düşəcək və bundan sonra sursat istehsalında xammal baxımdan da heç bir ölkədən asılı olmayacağıq".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# ABŞ səfiri YAP-a getdi

**Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini - icra katibi, Azərbaycan Respublikası baş nazirinin müavini Əli Əhmədov aprelin 30-da ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanı partiyanın mənzil qərargahında qəbul edib.**

Virtualaz.org YAP-ın saytına istinadən bildirir ki, görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin mövcud durumu və inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, üst-üstə düşən maraqlar ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişafına töhfə verəcək.



Tanışlıq xarakteri daşıyan görüşdə Əli Əhmədov YAP-ın ölkənin ictimai- siyasi həyatında yeri və gələcək fəaliyyəti barədə qonağa ətraflı məlumat verib.

Görüşdə YAP icra katibinin müavini, MM-in deputatı Siyavuş Novruzov və ABŞ səfirliyinin siyasi müşaviri Syusan Çesli iştirak ediblər.

# "Rövşən Lənkəranski" haqda qeyri-kriminal xəbər

**Lənkəranda sökülən "Nizami" kinoteatrının yerində şadlıq evi tikiləcək. Xəbərə görə, şadlıq sarayını inşa etdirən məşhur avtoritet, "qanuni oğru" Rövşən Canıyevin (Lənkəranski) qardaşıdır. Namiq Canıyevin ərazini özəlləşdirdiyi və möhtəşəm restoran açacağı planlaşdırılır. Müstəqillikdən bəri təyinatı üzrə fəaliyyət göstərməyən, son illərdə isə ümumiyyətlə istifadəsiz qalan mədəniyyət ocağının yeri boş sahəyə çevrilib, ərazi isə hasarlanıb. Bu kinoteatr bir neçə il əvvələ qədər çayxana, bilyard salonu kimi xidmət göstərib.**

Şəhərin ən böyük kinoteatrı olan "Nizami" 1955-ci ildən ötən əsrin son onilliyinə qədər kinosevərlərin sevimli məkanı olub.

1975-ci il təvəllüdlü R.Canıyev Lənkəranda doğulub. Azərbaycan vətəndaşı, orta təhsilli, ailəlidir. İlk dəfə 1996-cı ildə 2 il müddətinə həbs edilib. R.Canıyev atasının qatilini hakimin qabağında elə məhkəmə zalında güllələyib. Səbayel Rayon Məhkəməsinin 4 mart 1997-ci il tarixli qərarı ilə cəzadan şərti azad olunub.

❑ E.HÜSEYNOV

# "Lənkəranski" "qanuni oğru"nu döyüb?

**Azərbaycanlı "qanuni oğru" Rövşən Lənkəranski İstanbulda Ded Hasanın ardıcıllarından olan meqrel qanuni oğru Roland Qeqeçkorini sərt cəzalandırıb.**

Anspress xəbər verir ki, onunla birlikdə Rolandın olduğu hotelə hücum etmiş dəstəyə gürcü qanuni oğru Georgi Uqlava ("Taxi") da rəhbərlik edib. Lənkəranski hotelə Ded Hasan tərəfdarı olan və yenicə taclandırılmış meqrel "qanuni oğru"ları cəzalandırmaq üçün gedib. Amma hoteldə onun əlinə yalnız iki nəfər keçib. Ələ keçənlərdən Paat Malenkiy tam "Ded Xasan" tərəfdarı sayılmadığına görə ona toxunmayıblar. Amma hadisə zamanı Roland bərk döyülüb. Daha sonra onlar hoteli tərk ediblər.

Bu, Ded Hasan tərəfdarlarını bərk məyus edib. Oğru dünyasından 34 nəfər Rolandı müdafiə etmək üçün etiraz notası imzalayıblar. Onlar "Ded Xasan" ardıcıllarının rəhbəri "Şakro Molodoy"un verəcəyi qərarı gözləyirlər.



# Abdulla Gül İçərişəhərdə

**Azərbaycana səfəri çərçivəsində Türkiyənin eks-prezidenti Abdulla Gül İçərişəhərlə tanış olub. "Qafqazinfo" xəbər verir ki, qonağı "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Samir Nuriyev qarşılayıb.**

İçərişəhərlə tanışlıq Qız qalası abidəsi ilə başlayıb, Kiçik Qala küçəsində davam edib, Abdulla Gül təndir çörəyinin dadına baxıb.

Həmçinin şəhər turuna çıxan eks prezident Nizami küçəsində şəhər sakinləri ilə ünsiyyətdə olub.

# Ali məktəblərə sənəd qəbulunun vaxtı uzadıldı

**Azərbaycanda ali təhsil müəssisələrinə (I, II, III və IV ixtisas qrupları üzrə) ərizə qəbulunun vaxtı mayın 1-dək uzadılıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) verilən məlumata görə, elektron ərizələrini sənəd qəbulu komissiyalarında (SQK) təsdiq etdirməli olan abituriyentlər ərizələrinin təsdiqini mayın 1-i saat 17:00-dək, elektron ərizələrini özləri təsdiq etməli olan abituriyentlər isə mayın 1-i saat 23:59-dək başa çatdırmalıdırlar.**

30 aprel saat 14:30 -a olan məlumata görə, 85 min 256 abituriyent öz elektron ərizəsini dolduraraq, təsdiqini təmin edib. 4 min 873 abituriyent elektron ərizəsinə özü haqqında məlumatları daxil etsə də, həmin ərizələr təsdiqlənməyib.

Elektron ərizə təqdim etmiş abituriyentlərdən öz elektron ərizələrinə daxil olub baxmaq və təsdiq olunub-olunmadığını müəyyənləşdirmək tövsiyə olunur.

Məlumat üçün bildiririk ki, elektron ərizəsi təsdiq olunmayan abituriyentlərin ərizəsində "Elektron ərizə sənəd qəbulunun sonunadək təsdiq olunmalıdır" məlumatı göstərilir.

Ərizələri təsdiq olunmayan, həmçinin ərizə təqdim etməyən abituriyentlər qəbul imtahanına buraxılmayacaq.

# Poroşenko MDB liderləri ilə görüşdən imtina etdi

**Ukrayna prezidenti Pyotr Poroşenko mayın 8-də Moskvada keçiriləcək MDB-nin qeyri-rəsmi sammitində iştirak etməyəcək. "Poroşenko olmayacaq", - bunu jurnalistlərəRusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.**

Oxu.az-ın məlumatına görə, "İnterfax"ın sualına cavab verən Peskov dəqiqləşdirib ki, bu görüşdə iştirak - "prezidentlərin öz arzusudur".

O vurğulayıb ki, bu görüşə MDB ölkələrinin bütün başçıları dəvət olunur.

# Azərbaycanda "iPhone" satışı dayandırıldı

**"Apple" ticarət nişanının Azərbaycanda rəsmi təmsilçisi "Almastore" mağazalar şəbəkəsində "iPhone" telefonlarının satışı dayandırılıb. "Apple" məhsullarını ölkəyə idxal edən "Almastore"dan "Report"a verilən məlumata görə, ölkəyə "iPhone"ların idxalı dayandırılıb və prosesin may ayından sonra bərpa olunacağı gözlənilir: "O vaxta qədər isə "Almastore" mağazalarında "iPhone" satılmayacaq".**

Bununla yanaşı, bildirilib ki, may ayından sonra Azərbaycana gətiriləcək telefonlar yeni qiymətlə satışa çıxarılacaq və bu, indikindən bir qədər yüksək olacaq.

# Prezidentin mətbuat katibi Əliyev-Saakaşvili görüşü haqda

**Məlum olduğu kimi, bir sıra daxili və xarici media orqanlarında Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin Azərbaycan prezidenti İlham Əliyevlə "bağlı qapılar arxasında" görüşməsi ilə bağlı xəbərlər yayılıb.**

APA-nın "Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin Azərbaycan prezidenti İlham Əliyevlə "bağlı qapılar arxasında" görüşməsi ilə bağlı xəbərlər nə qədər həqiqətə uyğundur" sualına cavabında Azərbaycan prezidentinin mətbuat katibi Azər Qasımov bunları deyib: "Azərbaycan Respublikası Prezidentinin keçirdiyi görüşlər barədə məlumat bir qayda olaraq dövlət başçısının rəsmi internet səhifəsində və digər rəsmi saytlarda yerləşdirilir. Prezidentin görüşləri ilə bağlı hər hansı məlumatla əlaqədar həmin ünvanlara müraciət edə bilərsiniz ".

# Nemtsovun qətli ilə bağlı Kadırovu da dindirəcəklər

**Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırov bəyan edib ki, lazım gəlsə, Boris Nemtsovun qətli ilə bağlı ifadə verməyə hazırdır.**

Virtualaz.org bildirir ki. R.Kadırov "Danışır Moskva" radiosunun efirində bu barədə danışarkən deyib: "Mən ifadə verməyə hazıram. Heç bir problem yoxdur. Xüsusən də əgər bunu Nemtsovun övladları tələb edirsə..."

Bununla yanaşı, R.Kadırov deyib: "Mənim üçün maraqlıdır: görəsən, Nemtsovun vəkilləri məndən nəyi soruşa bilərlər?"

# Zakir Qaralov baş prokuror vəzifəsinə təsdiqləndi

**Zakir Qaralov Azərbaycanın baş prokuroru vəzifəsinə təsdiqlənib. Bu barədə Azərbaycan prezidenti İlham Əliyev sərəncam imzalayıb.**

Qeyd edək ki, Z. Qaralov aprelin 29-da Milli Məclis tərəfindən növbəti 5 il üçün Azərbaycanın baş prokuroru təyin olunub.

# Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki 4 müəssisə ləğv edilib

**Nazirlər Kabineti Kənd Təsərrüfatı Nazirliyinin (KTN) tabeliyində olan və fəaliyyəti məqsədəuyğun hesab edilməyən təsərrüfat hesablı dövlət müəssisə və təşkilatlarının ləğvi barədə qərar verib.**

APA-nın məlumatına görə, qərara əsasən, KTN-in tabeliyində olan və fəaliyyəti məqsədəuyğun hesab edilməyən 4 təsərrüfat hesablı dövlət müəssisə və təşkilatı ləğv edilib. Bunlar nazirliyin "Azərdamazlıq" Respublika İstehsalat-Elm Birliyi, Mərkəzi Sınaq Laboratoriyası, Layihə Kontoru və Təmir-Tikinti İdarəsidir.

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015

# Steynar Gilin müsahibəsi aranı qatdı

## Keçmiş səfirin iqtidar və müxalifət barədəki fikirlərinə reaksiyalar gəldi; müxalifət müsahibənin təhrif olunduğunu iddia edir

**Norveçin Azərbaycandakı keçmiş səfiri Steynar Gilin AzadlıqRadiosuna 29 aprel tarixində verdiyi müsahibədə səsləndirdiyi bəzi fikirlər narazılıqla qarşılanıb. Ölkəmizdə səfir işlədiyi müddətdə insan haqlarının fəal müdafiəçisi kimi tanınan Steynar Gil Azərbaycan iqtidarı və müxalifətinin "bostanına daş atıb".**

Sabiq səfir iqtidar və müxalifət rəhbərliyinin siyasi arenadan getməsini və gənclərin gəlməsinin vacib olduğunu qeyd edib: "Mən gedəndən nə xarici işlər naziri dəyişməyib, nə də Hacıbala Abutalıbov. Eyni adamlar hakimiyyətdədir. Gənclər gəlməlidir hakimiyyətə. Əli Kərimli, İsa Qəmbər, eyni adamlardır illərcə. Dəyişmək lazımdır. Müxalifətə də gənclər gəlməlidir".

**Müsavat başqanının müavini Elman Fəttah müsahibənin təhrif olunduğunu bildirdi:** "Müsahibə düzgün yazılmayıb. Təhrif olunmalar var. Steynar Gilin özü ilə danışdıq. Onun əsas fikri hakimiyyətlə bağlı olub. Sözlərinin əsas vurğusu hakimiyyətin gəncləşməməsi ilə bağlıdır. Steynar Gil səfir işlədiyi vaxtda Azərbaycanda insan haqlarının qorunması sahəsində ciddi əmək sərf edib. 2003-cü ildə Müsavat Partiyasının həbs edilmiş başqan müavinlərinin məhkəmələrində mütəmadi iştirak edib. Onların məhkəmələrinin necə keçirilməsi ilə bağlı monitorinqdə iştirak edib. 2005-ci ildə baş verən proseslərdə də aktiv iştirak edib. Kifayət qədər insan hüquqlarını bilən, keşiyində duran şəxsdir. Bu baxımdan onun



Steynar Gil

hakimiyyətin gənclərdən imtina etməsi, köhnə məmurları vəzifədə saxlaması fikri tamamilə doğrudur. Onun təəssüflə qeyd etdiyi məsələ var ki, Azərbaycan xalqı proseslərdə aktiv iştirak etməyə meylli deyil. Gənclərin siyasətə gəlməmələri ilə bağlı dəfələrlə bildirmişik ki, səbəb rejimin repressiv siyasətidir. Onlar hakimiyyətin nökərinə çevrilməkdən imtina etsələr də, müxalifətdə də aktiv şəkildə fəaliyyət göstərməkdən çəkinirlər. Ortada çox ciddi repressiya addımları var".

**İqtidaryönlü deputat Fəzail Ağamalı Steynar Gilin fikirlərinin anti-Azərbaycan siyasətinin davamı olduğunu qeyd etdi:** "Onun səfir kimi ölkəmizdəki "fəaliyyəti" yaddaşlarımızdan silinməyib. Azərbaycan xalqı onu yaxşı xatırlayır. O, radikal müxalifətin üsyan zorakılığı ilə körpələri təpik altına salaraq, hakimiyyətə gəlmək məqsədlərini müdafiə, himayə edən şəxs idi. Hətta bu işlərə təşkilatçılıq da edirdi. Baxmayaraq ki, onun səfirlik fəaliyyətində Azərbaycanın daxili işlərinə qarışmaq qadağan idi. Bunu beynəlxalq sənədlər də qadağan edirdi. Azərbaycanın milli qanunvericiliyi də bu hallara imkan vermir. O, səfir olduğu zaman kəsiyində ölkəmizə qarşı insan haqları pərdəsi arxasında düşmənçilik nümayiş etdirdi. Hətta 2003-cü ildə prezident seçkilərindən sonra radikal qüvvələrin küçələrə axaraq, törətmiş olduğu dağıntılar gözümüzün önündədir. Uşağı ayaqlar altına atan, maşınları təpikləyən, özəl obyektləri dağıdaraq hakimiyyətə gəlmək istəyənlərin arxasında o zaman Steynar Gil dayanırdı. İndi artıq vəziyyət dəyişib. Başqa yerdə olsa da, yenə də düşmənçilik mövqeyini davam etdirir".

**Deputat bu cür fikirlərin arxasında dövlət maraqlarının dayandığını da söylədi:** "Azərbaycan neft ölkəsi kimi Norveçə ciddi rəqib görünə bilər. Onun özünün şəxsi maraqları var. Azərbaycan iqtidarına qarşı sərgilədiyi mövqe təkcə özü ilə bağlı deyil. O, cənab Con Kerrinin yanındadır. Deməli, o, eyni zamanda erməninin yanındadır. Bunların hamısı bir xətdə birləşir".

**Fəzail Ağamalı keçmiş səfirin müxalifət barədə fikirlərinə də münasibət bildirdi:** "Onun layihəsi əsasında çalışan, külli miqdarda pul qoyduğu müxalifət etimadı doğrultmadı. Gilin əsas niyyəti müxalifəti hakimiyyətə gətirmək idi. Lakin bu olmadı. Çünki müxalifət hədsiz dərəcədə zəif, iqtidar güclü idi. Xalq iqtidarın yanında idi. Ona görə müxalifətin də getməyini arzulayır. Xoş niyyəti olsaydı, Azərbaycan xalqının maraqları çərçivəsində fikirlər söyləyərdi. İqtidarın çatışmayan cəhətlərini deyə bilərdi. Heç bir hakimiyyət ideal deyil. Normal bir haldır. Amma olanların üstündən xətt çəkmək, Azərbaycana qarşı düşmənçilik etmək məqsədi açıq şəkildə ortadadır".

❑ Cavanşir ABBASLI



# Abdulla Gülün şərəfinə ziyafət verildi

**Xəbər verildiyi kimi, 3-cü Qlobal Bakı Forumunda iştirak edən mötəbər qonaqlar arasında Türkiyənin sabiq prezidenti Abdulla Gül də olub. Aprelin 30-da Türkiyənin Azərbaycandakı səfirliyində sabiq prezidentin şərəfinə ziyafət verib.**

Səfirlikdə keçirilən ziyafətdə baş nazirin müavini Abid Şərifov, prezidentin köməkçisi, Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov, eləcə də digər dövlət və hökumət üzvləri, deputatlar iştirak ediblər. Ziyafətdə media təmsilçiləri, o cümlədən "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da iştirak edib.

❑ musavat.com

# "Nurgün Motors"un Nurunu niyə söndürürlər - şok səbəb

## Nuru Əliyevin cəzalandırılmasının məqsədi haqda sensasion iddialar var; deyilənə görə, biznesmenin ofisinin basılması, işçilərinin həbs edilməsi, biznesinin xeyli hissəsinin əlindən alınması siyasi faktora bağlıdır; "iş adamı müxalifətin bir qanadına pul ötürürmüş..."

**Bugünlərdə aznews.az saytı Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının Bakıda bir neçə avtomobil satış mərkəzi və salonlarında əməliyyat keçirdiyi haqda məlumat yaymışdı. Məlumatda bildirilirdi ki, əməliyyat nəticəsində 10-dan artıq şəxs tutulub. Saytın əldə etdiyi xəbərə görə, əməliyyata səbəb salonlarda keyfiyyətsiz avtomobillərin satılması, müştərilərin aldadılması ilə bağlı çoxsaylı şikayətlərin edilməsi olub.**

NURGUN MOTORS

Şikayətlər əsasən suya düşmüş, istifadəsi təhlükəli olan avtomobillərin və işlənmiş avtomobillərin "probeq"inin aşağı salınaraq baha qiymətə satılması ilə bağlı olub. MCMİ-nin əməkdaşlarının əməliyyatı zamanı Babək prospektində olan bəzi avtomobil satış mərkəzlərində bu fakt təsdiqini tapıb. Məlum olub ki, avtosalonlar dələduzluq yolu ilə insanlardan xeyli pul mənimsəyirlər, onlara maddi ziyan vururlar. Elə buna görə də "Nurgün Motors"un bəzi salonlarının, eləcə də "Avto Line", "Avto Qalareya", "Avto Murad" və digər salonların rəhbərləri, eləcə də bəzi əməkdaşları saxlanılaraq MCMİ-yə aparılıb.

Musavat.com-a "Nurgün Motors"dakı mənbədən daxil olan məlumatda isə bildirilir ki, əslində axtarışlardan xeyli əvvəl bir sıra dövlət qurumları Nuru Əliyevin biznes fəaliyyətində ciddi qüsurlar aşkarlayıb. Lakin buna uzun illər göz yumulub. O vaxta qədər ki, şirkət rəhbəri açıq şəkildə siyasi proseslərə qoşulub. N.Əliyevin bəzi siyasi qüvvələrlə gizli-aşkar əlaqələri haqda çoxdan məlumatlar var. Onun müxalifətin bir qanadı ilə yaxınlıq etməsi, hətta həmin qanada müəyyən dövrlərdə maliyyə dəstəyi verməsi də təzə söhbət deyil. Son vaxtlar hakimiyyətin siyasi müxalifətlə gizli-aşkar əlaqə quran bütün iş adamlarını sıradan çıxarmaq təşəbbüsü, görünür, Nuru Əliyevdən də yan keçməyib. Ona məxsus bir çox məşhur brendlərin distributorluğu əlindən alınıb: **"Hətta vaxtilə Nuru Əliyevə basqılar o səviyyəyə çatmışdı ki, məcburiyyət qarşısında ölkəni tərk etməli olmuşdu. Sonradan ölkəyə qayıdıb bəzi məşhur brendlərin distributorluğunu təhvil verib işini davam etdirməyə başladı".**

Qaynağımız deyib ki, N.Əliyev əsasən Yapon şirkətləri ilə işbirliyindədir: **"Yaponlarla işləmək dəqiqlik, dürüstlük tələb edir. İşlə bağlı hər xırda məqam yaponlar üçün əhəmiyyətlidir deyə yerli şirkətlər onlarla işləməyə çox da həvəs göstərmir. Nuru Əliyevin isə illərdir ki, onlarla ticari əlaqələri var. Bakıda ilk hiper-marketlərdən biri "Contenental" vaxtilə onun olub. 100-dən çox brendin yayılması hüququ da onda olub. Lakin sonradan "Fillip Moris"in istehsalı olan siqaretlərin ölkədə yayılmasından, məşhur "Vaqon" sosiskalarından və bir çox ərzaq brendlərinin yayım hüququndan imtina etməli olub".**

N.Əliyevin böyük biznesə gömrük orqanlarından gəlib. Vaxtilə Bakı hava limanında gömrük rəisi olan N.Əliyevin indiki hakimiyyət qarşısında xidmətləri olub. 1990-cı illərin sonlarında "Nurgün" Şirkətlər Qrupunu yaratmaqla N.Əliyev ölkəyə o dövr üçün əlçatmaz olan maşın markalarını gətizdirməyə başlayıb: **"Bir neçə il əvvəl problemləri üzündən ölkədən getsə də, sonradan geri qayıtdı. Salyan və Sabirabad olimpiya idman kompleksləri bu gün də "Nurgün Motors"un himayəsindədir. Şirkətin sponsorluğu ilə fəaliyyət göstərirlər".**

Aznews.az xəbər verir ki, şirkətə məxsus "Infiniti", "Renault", "Nissan" və "Ford" markalı avtomobillərin satıldığı salonlar möhürlənib. Səbəb kimi "Nurgün Motors"un vergini vaxtında ödəməməsi göstərilir. "Nurgün Motors"un marketinq şöbəsindən bildiriblər ki, satış mərkəzlərində təmir işləri aparıldığı üçün fəaliyyətini müvəqqəti dayandırıb: **"Şirkətə məxsus avtosalonlarda profilaktik işlər görülür və bəzi təmir işləri aparılır. İşlər bitmək üzrədir. Salonların fəaliyyəti bu gün axşam saatlarından etibarən bərpa olunacaq".**

Lakin "Nurgün Motors"a aid olan böyük avtomobil salonlarının niyə hamısında eyni vaxtda təmir işlərinin aparılması sualına cavab verilməyib.

❑ E.HÜSEYNOV



# Milli Şuranın 3 may mitinqinə icazə verilmədi

## BŞİH-in mitinqin 2 mayda keçirilməsi təklifi qəbul edilmədi

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şuranın mayın 3-nə təyin etdiyi mitinqlə bağlı müraciətə mənfi cavab verib. Bu barədə azadliq.info-ya Milli Şuranın Mitinq Komitəsinin rəhbəri Fuad Qəhrəmanlı məlumat verib. BŞİH-in cavabında bildirilir ki, mayın 3-də başqa kütləvi tədbir nəzərdə tutulur. Bu səbəbdən Milli Şuraya mitinqini mayın 2-də keçirmək təklif olunur.**

F.Qəhrəmanlı deyib ki, yaranmış vəziyyət Milli Şura və AXCP rəhbərliyində müzakirə olunacaq və müvafiq qərar veriləcək.

Fuad Qəhrəmanlı BŞİH-in bu qərarını facebook səhifəsində hakimiyyətin qorxması kimi şərh edib. O yazıb ki, Milli Şuranın 3 may mitinqinə razılıq verilməməsi o deməkdir ki, ölkədə iqtisadi böhran davam edəcək və insanların həyat şərtləri daha da ağırlaşacaq. Məhz buna görə də iqtidar xalqın Milli Şuranın mitinqlərinə getdikcə daha çox qoşulacağından narahat olur: "Əslində bu günə qədər mitinqlərə ona görə razılıq verilirdi ki, iqtidar xalqımızın narazılıq potensialını və Milli Şuranın çağırışlarına cəmiyyətin necə bir reaksiya verəcəyini bilmirdi. Görəndə ki, cəmiyyətimiz getdikcə mitinqlərdə daha kütləvi şəkildə iştirak etməklə iqtidarın siyasətinə etiraz edir və Milli Şura xalqın əsas təmsilçisi və inandığı güc mərkəzi kimi sosial narazılıqları öz ətrafında təşkilatlandırır, o zaman iqtidar da qorxuya düşdü.

Əslində 3 may mitinqinə "yox" cavabı Milli Şuranın gücünün etirafı və xalqın etirazlarından qorxunun nəticəsidir.

Ancaq bu hakimiyyət üçün çıxış yolu deyil, çünki demokratik mübarizə üsullarının qarşısının kəsilməsi ilk növbədə hakimiyyətin özü üçün ciddi risklər yaradır. İnsanların narazılıqları getdikcə artır və bu narazılıqlar həll olunmadıqca, onların qarşısının qeyri-qanuni üsullarla kəsilməsi sonda xoş olmayan nəticələrə gətirib çıxara bilər. Hakimiyyət bunu anlamalıdır". F. Qəhrəmanlı günün sonunda yazıb ki, BŞİH-in mitinqin 2 mayda keçirilməsi təklifi qəbul edilməyib.

Qeyd edək ki, BŞİH Müsavat Partiyasının 19 aprelə təyin etdiyi yürüşə də razılıq verməmişdi.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015



# “Azərbaycan hərbi imkanlarını səfərbər edir”

## Zahid Oruc: “Siyasi danışıqlarda müəyyən zəmanətlər əldə edilsə, günü sabah müharibə başlaya bilər”

**Müdafiə naziri Zakir Həsənov növbəti dəfə müharibə bəyanatı verib. Aprelin 29-da Z.Həsənov Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrində olub. Yeni yaradılan hərbi hissələrə verilmiş döyüş bayraqlarını komandirlərə təqdim edən nazir Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 16-cı ildönümü münasibətilə çıxış edib.**

Müdafiə naziri əsgərlər qarşısında çıxışı zamanı bildirib ki, düşmənin kəşfiyyat-təxribat cəhdlərinin qarşısının qətiyyətlə alınması, onun xeyli sayda itkilərə məruz qalması, mənəvi-psixoloji vəziyyətinin sarsıdılması və müqavimətinin sındırılması ilə Ermənistanın hərbi-kriminal rejimi Silahlı Qüvvələrimizin gücünü və qüdrətini hiss etdi: **“...İndi isə qarşımızda daha vacib - ikinci mərhələ dayanır: düşmənə qəti və sarsıdıcı zərbələr endirməklə onu işğal olunmuş Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməyə məcbur etmək. Biz bu vəzifənin öhdəsindən gəlməyə qadirik və qısa müddətdə buna nail olacağıq. Buna heç kim şübhə etməsin”.**

Son zamanlar Azərbaycan ordusunun döyüş hazırlığının yüksəldilməsi, həmçinin cəbhədə fəallaşması və ən mühümü, müdafiə nazirinin tez-tez cəbhə bölgələrini ziyarət edərək müharibə mesajları verməsi diqqəti çəkir. Bir sıra müşahidəçilər müdafiə nazirinin cəbhə xəttini ziyarət edərək əsgərlərin döyüş hazırlığını yoxlaması və verdiyi mesajları müharibə hazırlığı kimi dəyərləndirir. Son çıxışında Z.Həsənovun düşmənə qarşı əməliyyatın birinci mərhələsinin uğurla başa çatdırıldığı və ikinci hissəsinin başladığını bildirməsi müəyyən suallara səbəb olur. Doğrudanmı Azərbaycan savaşa hazırlaşır?

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc deyir ki, Z.Həsənov müharibə vəziyyətində olan ölkənin hərbi nazirinin etməli olduğunu edir:** “Ərazisi işğal olunmuş ölkənin müdafiə naziri sülh deyil, müharibə bəyanatları verməlidir. Bununla bərabər Zakir Həsənovu həm də şəxsiyyət olaraq tanıyanlar bilir ki, o, hökumətin informasiya və diplomatiya savaşında sadəcə bir hökumət üzvü kimi bu prosesdə iştirak edənlərdən deyil. Daha artıq gerçək dayaqlara söykənərək sərt, ultimativ mövqeləri ortaya qoyur. Bu, Azərbaycan cəmiyyətində toparlanmanı, mənəvi səfərbərliyi, nikbinliyi, mənəvi və psixoloji üstünlüyü yaratmaqla bərabər, eyni zamanda ön cəbhədə, təmas xəttində yerləşmiş Azərbaycan ordusunun real vəziyyətinə söykənən bəyanatlardır. Həqiqət ondan ibarətdir ki, son illər ərzində Azərbaycan lazımi texnika və texnologiyanı, onu hərəkətə gətirən canlı qüvvəni ön cəbhəyə toplamağı bacarıb. Bu, düşmən tərəfin verdiyi itkilərdə özünü göstərməklə yanaşı, eyni zamanda belə məlumatlar mövcuddur ki, həm Qarabağda, həm də Ermənistanda buna qarşı kontur əməliyyatlar keçirməyə çalışırlar. Ötən illərdə müxtəlif dezinformasiyalarla gücləndirilən müxtəlif itkilərdən, idarəçiliyin vəziyyətindən, kadrların yerləşməsindən və sairdən irəli gələn toqquşmaları, çaxnaşmaları yarada bilmədiklərindən kütləvi olaraq əsgər itkiləri baş vermədiyindən bu gün düşmən tərəfi Azərbaycana bilavasitə zərbə endirməklə, təxribat törətməklə cavab reaksiyası vermək istəyirlər”.



Zahid Oruc

**Hazırda ölkə rəhbərliyinin ordu qarşısına ciddi tapşırıqlar qoyduğunu qeyd edən Z.Orucun fikrincə, Azərbaycan açıq şəkildə torpaqların azad edilməsi istiqamətində hərbi imkanlarını səfərbər edir:** “Bunu açıq gözlə də sezmək mümkündür ki, bir tərəfdən döyüş vəziyyətinə yaxın təlimlər keçirilir, ikincisi, bunlar sadəcə cavab reaksiyası xarakteri daşımır, üçüncüsü, mən hər zaman subyektiv olaraq düşünmüşəm ki, atəşkəsi Azərbaycan pozmalıdır. Çünki erməni tərəfinə dinc yaşamaq imkanı verməmək, orada yaşayanların yad torpaqda olduğunun siqnalını vermək, təsərrüfat həyatına alışmasının qarşısını kəsmək, bölgəyə köçürülmüş Suriya ermənilərinin yerli ermənilərlə dünyagörüşü, yaşam və sair fərqlərini bərqərar etməklə ön cəbhədə fərqli bir siyasət yürütməliyik. Zənn edirəm ki, bunlar mövcuddur. Zakir Həsənovun ötkəm, kifayət qədər sərt mövqeyi onu sübut edir ki, Azərbaycan indiyə qədərki siyasi, diplomatik, iqtisadi üstünlüyünü indi artıq hərbi cəhətdən də nümayiş etdirməyi bacarır. İstənilən insan soruşa bilər ki, nə üçün torpaqlarımız silah vasitəsilə azad olunmur? Cavab bəllidir. Azərbaycan siyasi danışıqlarda müəyyən zəmanətlər əldə etsə, günü sabah müharibə başlaya bilər. Əlbəttə, biz bunu klassik döyüşlər kimi qəbul etmirik. İndi o regionun coğrafiyasına, xarakterinə uyğun müharibə getməlidir. Bu mənada tam əminliklə söyləmək olar ki, Azərbaycanın ön cəbhədəki gücü dövlətin mövqeyinə, daxili həyata, danışıqlar prosesinə güclü bir şəkildə təsir edir”.

❑ **KƏNAN**

# “Freedom House”un hesabatına reaksiya gəldi

## İqtidar mediası təşkilatı qərəzli sayır, müstəqil ekspert isə əksini düşünür...

**“Freedom House” təşkilatı aprelin 29-da yaydığı “Mətbuat Azadlığı 2015" adlı hesabatında Azərbaycanı mətbuat azadlığına görə ”qeyri-azad ölkə" adlandırıb. 199 ölkəni və ərazini əhatə edən illik hesabatda qeyd olunur ki, 2014-cü ildə dünyada mətbuat azadlığı son 10 ildə ən aşağı həddə düşüb.**

199 ölkə və ərazidən 63-ü (32%) “ azad”, 71-i (36%) “qismən azad”, 65-i (32%) isə “qeyri-azad” hesab olunub. Azərbaycan 199 ölkə içində 188-ci yerdədir. Ermənistan da “qeyri-azad”dır və 136-cı yerdə qərarlaşıb. Gürcüstan isə mətbuat azadlığına görə “qismən azad” ölkə sayılıb.

**“Yeni Müsavat”a açıqlamasında “Freedom House”un hesabatına münasibət bildirən “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu qeyd etdi ki, bu təşkilatın verdiyi bütün bəyanatlar Azərbaycan ictimaiyyətində gülüş doğurur:** “Çünki ”Freedom House"un qiymətləndirmələri heç bir obyektivliyə sığmır. Azərbaycan ictimaiyyəti bilir ki, “Freedom House” siyasiləşmiş bir qeyri-hökumət təşkilatdır və sifariş həyata keçirir. Sadəcə, bu fəaliyyətini demokratiya, insan hüquqları, söz və mətbuat azadlığı kimi qlobal dəyərlərlə manipulyasiya edir. “Freedom House” Azərbaycana münasibətdə həmişə qərəzli olub. Bu da həmin təşkilatın növbəti qərəzli qiymətləndirmələrindən biridir".

**Babaoğlu bildirdi ki, jurnalistlərin həbs olunmasını mətbuat azadlığının boğulması kimi qiymətləndirmək düzgün deyil:** “Əgər dövlət varsa, onun hüquq sistemi də var, bu dövlətin vətəndaşları da həmin sistemin qanunlarına uyğun olaraq fəaliyyət göstərməlidirlər. Peşəsi nə olursa olsun, kimsə qanunu pozursa, məsuliyyət daşımalıdır. Qanun hamı üçün eynidir. AzadlıqRadiosunun bağlanılması da qanunvericiliyin tələbi idi. Ancaq bu media qurumu hələ də fəaliyyətini davam etdirir. Bütün bunlar göstərir ki, ”Freedom House" Azərbaycana qərəzli yanaşır".

**“Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov “Freedom House”un qiymətləndirməsini obyektiv saymır:** “Bu təşkilat əgər müstəqillik dövründə mətbuat sahəsində bizim atdığımız addımları müsbət qiymətləndirsəydi, həyata keçirilən bu qədər işlərə obyektiv qiymət versəydi, mən o zaman təəccüblənərdim. Biz heç vaxt bu təşkilatın obyektiv bəyanatına rast gəlməmişik. Məsələn, sizin ”Yeni Müsavat" qəzeti müxalif mövqedə olan qəzetdir. “Yeni Müsavat” qəzetinin mövcudluğu Azərbaycanda mətbuat azadlığının mövcudluğuna ən böyük sübutdur. Müstəqillik illərində senzura ləğv olunub, ölkədə qəzet təsis etmək, sayt açmaq üçün heç bir hüquqi əngəl yoxdur. Jurnalistika sahəsində qadağan olunmuş mövzu yoxdur, kim nədən istəyir, ondan yazır. Ölkə başçısının dəstəyi ilə 2009-cu ildə KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı və bu fond müstəqil mətbuata kömək edir. Bu fond iqtidara bağlı olan mətbuata kömək etmir. Biz “Azərbaycan” qəzeti olaraq bu qrant layihələrində iştirak edə bilmirik. Ancaq müstəqil qəzet olan “Yeni Müsavat” qəzeti iştirak edir və layihəsi bəyəniləndə qrant alır. Ancaq dövlət yardım edəndə belə mətbuatın işinə qarışmır. Azərbaycanda son 10 ildə heç bir jurnalist yazdığı yazıya görə həbs olunmayıb. Adını jurnalist qoyub digər fəaliyyətlə məşğul olanlar, vergidən yayınanlar həbs olunub. Niyə Amerikada vergidən yayınanın cəzalandırılması normal haldır, Azərbaycanda isə söz azadlığına qəsddir?"

**Bəxtiyar Sadıqov bildirdi ki, əgər “Freedom House” mətbuat azadlığını dəyərləndirmək istəyirsə, Dağlıq Qarabağdan qaçqın düşən jurnalistlərdən, bağlanan qəzetlərdən yazsın:** “Hamısı yurd-yuvasından didərgin düşdü. Onlar jurnalistika ilə məşğul olmaqdan məhrum olublar. Niyə bir dəfə heç bir xarici təşkilat bunu tənqid etmir? Mən ”Freedom House"un açıqlamalarına əhəmiyyət vermirəm".

**“Turan” İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev isə Azərbaycanda medianın azad fəaliyyət göstərmədiyini düşünür:** “TV-lər, radiolar azad deyil, çap mətbuatında azadlıq yox dərəcəsindədir, internet saytları da o cümlədən. Tək-tük onlayn sayt var ki, azadlığını qoruya bilib. Bir də sosial şəbəkələrdə nisbətən azad fikri eşitmək olur. Hərçənd burda da hakimiyyət nəzarəti var”.

Mehman Əliyevə görə, İran və Türkmənistanla müqayisədə Azərbaycanda sosial şəbəkə platformaları azad fikrə açıqdır. Ancaq mətbuatın imkanlarının müqayisəsində İran mediası daha öndədir. Onun fikrincə, İranda mediada rəqabət, reklama çıxışda bərabərlik var, Azərbaycan mediası isə belə azad mühitdən məhrumdur.

“Azərbaycan artıq qeyri-neft ölkəsinə çevrilir. Bu, bizim üçün müsbət amildir. Çünki Azərbaycan məcbur olub qeyri-neft sektorunu inkişaf etdirəcək. Qeyri-neft sektorunun inkişafı isə ancaq azad iqtisadiyyatdan keçir. Hakimiyyət ya bunu eləməlidir, ya da ölkəni uçuruma aparmalıdır”, -Mehman Əliyev deyib. O əlavə edib ki, qeyri-neft sektorunun inkişafı məhkəmələrin azadlığını tələb edəcək ki, bu da müstəqil medianın inkişafına təkan verəcək.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015

**Prezident Administrasiyası rəhbərinin müavini, PA-nın beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov 3-cü Qlobal Bakı Forumunda Azərbaycanın Avropa Oyunları ərəfəsində total hücuma məruz qaldığını deyib. "Bəlkə olimpiada bitərdi, sonra başlayardılar. Biz bildiklərimizin hamısını sizə desək, heyrətə gələrsiniz" deyən N.Məmmədov Avropaya olan səmimi münasibətin tükəndiyini deməklə yanaşı, "Azərbaycanı Liviya, Suriya dövlətinə çevirmək istəyirlər" deyib.**

# Azərbaycanı Liviya, Suriyaya çevirmək istəyən kimdir?

**"Turan" agentliyinin direktoru Mehman Əliyev** əmindir ki, ən böyük təzyiq Qərbdən yox, Rusiyadan gəlir: "Azərbaycanda anti-Amerika kampaniyası Putin haqqında "Rossiya-1" kanalında gedən filmdən sonra başladı. O bildirdi ki, 2000-ci ilin əvvəllərində Azərbaycandakı ABŞ kəşfiyyatı Şimali Qafqazdakı terrorçulara yardım edib. Bununla elə Azərbaycanın da dəstək verdiyinə işarə etdi. Onun sözündən belə çıxdı ki, bu proses davam edib və bəlkə də davam edir. Məhz bundan sonra, yəni 27 apreldən anti-Qərb kampaniyası başlandı". **Ola bilərmi ki, Azərbaycan rəsmiləri sərt ritorika ilə Rusiyanı sakitləşdirmək istəyir? M.Əliyev:** "Azərbaycan tərəfi həmişə vurğulamaq istəyir ki, ABŞ-la münasibətlər kifayət qədər pisdir, bizə hədə-qorxu gəlirlər, bizi məhv etmək istəyirlər və s. Yəni bu ritorika var. Məsələnin digər tərəfi isə bundan ibarətdir ki, Azərbaycan Qərblə əməkdaşlıqda xeyli öhdəliklər götürüb, amma xeyli məsələ də həll olunmamış qalıb. Son iki ilin hadisələrinə baxsaq, görərik ki, vəziyyət xeyli pisləşib".

Qeyd edək ki, Latviya prezidenti Vayra Vike-Frayberqa Bakıda keçirilən 3-cü Qlobal Bakı Forumundakı çıxışında may ayında ölkəsində keçiriləcək "Şərq tərəfdaşlığı"nın Riqa sammitindən sonra Azərbaycan və Avropa Birliyi arasında strateji tərəfdaşlıq sazişinin imzalanmasına çağırış edib. Belə gərgin situasiyada bu, gözlənilləndirmi?

**M.Əliyev bunu elə də real saymır:** "İş ondadır ki, Moskva həmin sammiti Rusiyaya qarşı toplantı kimi qiymətləndirir. Ona görə də müəyyən qədər problem yaradır. Ümumiyyətlə, Azərbaycan bu istiqamətdə heç vaxt Gürcüstan və Moldova kimi irəli getmir. Hətta Ermənistan qabağa düşmək istədi, Rusiyanın təzyiqlərindən sonra o, geri çəkildi. Bakı bu mənada özünü ehtiyatlı apardı".

**Azərbaycanı Liviya, yaxud Suriyaya çevirmək istəyən Rusiyadır, yoxsa Qərb? Ekspert fərqli düşünür:** "Məncə, hakimiyyətdir. İqtisadi uğurlardan danışan hakimiyyət hazırda manatın devalvasiyası qarşısında aciz qalıb. Göründü ki, iqtisadiyyat zəifdir, neftdən asılıdır və ümumiyyətlə, iqtisadiyyat yox dərəcəsindədir. Biz 20 il vaxt itirmişik və iqtisadiyyatımızı qura bilməmişik. Bu, çox böyük vaxtdır. Estoniya, Çexiya, Macarıstan və başqa ölkələrin nümunəsi var. 9-10 milyon əhalisi var, amma onların büdcələrinə, yaşayış səviyyəsinə baxın. Azərbaycanın potensialı onlardan qat-qat yuxarı idi. Bu gün böhran var və beynəlxalq tədqiqatlar göstərir ki, hələ böhran çəkəcək. Ona görə də əsas qeyri-stabilliyi yaradan Azərbaycan hakimiyyətidir. Bu böhranı Amerika, ya Rusiya yaratmayıb, Azərbaycan bazarına hansısa formada müdaxiləni görməmişik. Bütün islahatlar gecikdirilib, lazımi addımlar atılmayıb, hər şeydə neftin qiymətinə güvəniblər və belə vəziyyət yaranıb. Əlbəttə ki, belə bir şəraitdə, daxili narazılıq, qeyri-sabitlik yarana, hansısa qüvvələr nədənsə istifadə edib nəsə törədə bilər. Mən hesab etmirəm ki, Amerika bunu istəyər. Çünki Amerika da uzun illərdir ki, Azərbaycanda stabilliyin qorunmasına çalışıb. Hətta mən 2008-ci ilin Gürcüstan müharibəsini yada salmaq istəyirəm. O zaman Dik Çeyni Bakıya gəldi və bəyanatlar verdi ki, onlar Azərbaycanı tək qoymayacaqlar, buraya xüsusi münasibətləri var. O vaxt Rusiya tərəfindən Azərbaycana ciddi təhlükə var idi. Planlar var idi ki, Azərbaycana qoşun girsin. Hətta o vaxt mən Gürcüstanda olanda dedilər ki, Rusiya əsgərlərinə keçirilən siyasi dərslərdə ikinci düşmən kimi Azərbaycan göstərilir və əsgərləri Azərbaycana qarşı hazırlayırlar. Ona görə də həmişə ABŞ Azərbaycanın yanında olub. Hətta 1994-cü ildə sülhün bağlanması, Azərbaycanda Rusiya hərbi bazalarının yaradılması, Rusiya qoşunlarının Qarabağda sülhməramlılar kimi iştirakı və başqa məsələlərin qabağını Amerika almışdı. O vaxt Heydər Əliyev bununla bağlı müraciət etmişdi. Ondan sonra ABŞ Azərbaycanın müstəqilliyinin qarantı olub. Rusiya burdakı böyük layihələrdə yoxdur. Kəmərlərlə bağlı müqavilələrin hamısında Amerika iştirak edir. Beynəlxalq institutların Azərbaycana kreditləri də hər il artır. Əlbəttə, tikilən neft-kimya kompleksini də mart ayında Azərbaycan hakimiyyəti tam şəkildə ABŞ-a verdi. Bütün bunlar çox ciddi məsələlərdir".

"Bizim hədəfdə olmağımızın əsas səbəbi Azərbaycandakı siyasi sabitlik, iqtisadi inkişaf, ölkənin regionda nüfuzunun gündən-günə artmasıdır. Azərbaycanın bəzən Qərbin iradəsinə zidd layihələrə qoşulması da onları qıcıqlandırır. Ona görə də həmin təşkilatlar çıxış yolunu qarayaxmada görür, Azərbaycanda keçiriləcək ən mötəbər tədbirə kölgə salmaq istəyirlər". Bunu isə **YAP-ın icra katibinin müavini, Milli Məclisin komissiya sədri Siyavuş Novruzov** anti-Azərbaycan kampaniyasının ABŞ dövlət katibi Con Kerrinin ofisindən idarə olunması ilə bağlı əldə olunan xəbərlərə münasibət bildirərkən deyib. (moderator.az) S.Novruzov bildirb ki, ABŞ-da fəaliyyət göstərən "National Endowment for Democracy" təşkilatı heç bir dövləti rəsmən təmsil etməyib, ayrı-ayrı qurumların maraqlarına xidmət edən QHT-lərdən ibarətdir. Onların rəy və qərarlarının heç bir əhəmiyyəti yoxdur. Deputat hesab edir ki, Avropa Oyunları öncəsi belə təzyiqlərin, qarayaxmaların olacağı gözləniləndir: "Vaxtilə Avropa Parlamenti Azərbaycana qarşı ədalətsiz qərar çıxarmışdı. İndi bu hal Türkiyəyə münasibətdə təkrarlandı. Əgər AP tarixi saxtakarlığa uyub yanlış qərar qəbul edirsə, onun ədalətli fəaliyyətinə necə inanasan?"



**Mehman Əliyev:** "Gürcüstanda dedilər ki, Rusiya əsgərlərinə keçirilən siyasi dərslərdə ikinci düşmən kimi Azərbaycan göstərilir"



**Siyavuş Novruzov:** "Avropa Oyunları öncəsi belə təzyiqlərin, qarayaxmaların olacağı gözləniləndir"

❑ **Cavid TURAN**

# Tofiq Yaqublu bu gün həbsxanaya qayıdır

## Vicdan məhbusunun müvəqqəti azadlığı günorta saatlarında bitir; başqan müavininin azad olunacağına inam qalır...

**Qızının vaxtsız ölümü ilə bağlı 7 günlüyə azadlığa buraxılan Müsavat başqanının müavini Tofiq Yaqublu bu gün yenidən həbsxanaya qayıdır. Günorta saatlarından sonra vicdan məhbusunun azadlıq müddəti bitir.**



Tofiq Yaqublu azadlığa buraxıldığı müddətdə ölkəmizin bir sıra siyasi qurumları, tanınmış ictimai-siyasi xadimlər onun əfv edilməsi üçün ölkə prezidentinə müraciət ediblər. Parlamentin son iclasında bəzi deputatlar da başqan müavininin azad edilməsinin vacibliyini vurğulayıblar.

**Tofiq Yaqublunun vəkili Nemət Kərimli** onun əfv ediləcəyinə ümid etdiyini söylədi: "Sabah (bu gün-red.) günortaya qədər vaxt var. Göründüyü kimi, hələ də o, əfv olunmayıb. Çox ümid edirəm. Humanist addım atılacağına çox inanıram".

Milli Məclisin son iclasında çıxışında başqan müavininin azadlığa buraxılması məsələsinə toxunan iqtidaryönlü deputat **Zahid Oruc** Azərbaycan hakimiyyətinin belə anlarda daim humanist mövqe sərgilədiyini bildirdi: "Parlamentdə bu məsələyə toxundum. Qeyd etdim ki, Azərbaycan dövləti indiyə qədər siyasi mənsubiyyətindən asılı olmayaraq, bir çox insanlara, xüsusilə həyatlarında müxtəlif faciələr yaşayan insanlara qarşı humanizm mövqeyini nümayiş etdirib. Bu siyasətin xarakterinə güvənərək, eyni zamanda həbsinin milli cinayət olmadığını, gənc övladının itkisinin ağır faciə olduğunu, azadlıqda olmasının yüngülləşdirici amil olacağını qeyd edərək, bildirdim ki, Tofiq Yaqublu əfv ediləcək. Paralel şəkildə onu da qeyd etmək lazımdır ki, hər bir bu cür əfv amnistiyadan fərqli olaraq, müstəsna qaydada dövlət başçısının səlahiyyətindədir. Həm də hüquqi prosedurlara tabedir. Bildiyimiz qədər bir neçə təşkilat Tofiq Yaqublunun azad olunması üçün prezidentə müraciət edib. Bunlar çox önəmlidir. Bu məsələnin dəyərləndirilməsi üçün yəqin ki, müraciətlər Əfv Komissiyasında da var. Ölkə başçısı hər zaman konstitusiyanın verdiyi hüquqlardan istifadə edərək, siyasi baxışlarından asılı olmayaraq, müalicəyə ehtiyacı olan, başqa ciddi problemləri olan şəxslərə humanizm mövqeyi sərgiləyib. Düşünürəm ki, Tofiq Yaqublunun əfvi həqiqətən də onun yaşadığı ailə dramını dövlətə qarşı çevirənlərə əfvin necə olacağını göstərəcək. Bəlkə onun özünə, dünyagörüşünə də təsir göstərərdi. Onun ailəsinin gələcəyi üçün təsknilik nümunəsinə də çevrilərdi. Bu baxımdan parlament üzvü olaraq, Tofiq Yaqublunun əfv edilməsinə tərəfdar olduğumu bildirmişdim".

❑ **Cavanşir ABBASLI**

# "AMAY Abdulla"nın məhkəməsi mayın 4-nə qaldı

## İş üzrə zərərçəkənlər məhkəməyə gəlmirlər

**Aprelin 30-da Bakı Ağır Cinayətlər Məhkəməsində "A.M.A.Y." ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının əldə etdiyi məlumata görə, məhkəmədə zərərçəkən şəxs qismində Xudu Xudiyev ifadə verib.

Zərərçəkmiş Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə çağırıldığını desə də cinayət işi materiallarından ifadəsini tapmaq mümkün olmayıb. O, idarəyə cəmi bir dəfə çağırıldığını, mənzil alması üçün nə qədər vəsait ödəməsi, mənzilinin başqa adama satılıb-satılmaması barədə sorğu-sual edildiyini bildirib.

X.Xudiyev istəyinin "Xudafərin" firmasının Atatürk prospekti, 80/78-37-də tikdiyi binada tamamlama işlərinin başa çatmaq və mənzilinə köçmək olduğunu bildirib.

İş üzrə digər zərərçəkənlər məhkəməyə gəlmədikləri üçün növbəti proses mayın 4-nə təyin olunub.

Qeyd edək ki, A.Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir.

Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədir.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub.

İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y" MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.



Abdulla Abdullayev

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015



# Bir ailənin faciəsi

Azər RƏŞİDOĞLU

**Tofiq Yaqublu azadlığına qovuşa bilsəydi, bəlkə də hər şey fərqli olardı. Bu ailənin demokratiya naminə çəkdikləri çilə artıq yetər. Söhbət eyni zamanda bir Qarabağ qazisindən, onun şərəfli və faciəli həyatından gedir. Onun tək günahı Vətənini sevməyidir. Qalanları detallardı.**

Yaqublular ailəsinin demokratiya uğrunda mübarizəsini unutmaq olar. Amma bir Qarabağ qazisinin, övladını və azadlığını itirmiş bir müharibə qəhrəmanının gələcək taleyini əsla unutmaq olmaz. Bu, millətə baş ucalığı gətirmir. Biz isə unuduruq. Sanki elə belə də olmalıdır. Hüquqşünas İntiqam Əliyev həbs olunmalıdır. İlahiyyatçı Elşən Mustafaoğlu vətən xaini elan edilməlidir, jurnalist Rauf Mirqədirov dövlətə xəyanətdə ittiham edilməlidir. İntellektual siyasi lider İlqar Məmmədov həbsdə qalmalıdır. Biz bir xalq olaraq, baş verənləri soyuqqanlılıqla izləyirik. Soyuqqanlı olduğumuz nadir hallardan biridir.

Biz bir millət kimi bütün bu baş verənləri çox sıradan bir həyat gerçəyi kimi qarşıladıq. Axı belə olmamalıdır. Əlində silah erməni ilə savaşmış Tofiq Yaqublu və əlində qələm erməni yalanını iflas edən Rauf Mirqədirov həbsdə çürüməməlidirlər.

Tofiq sevimli qızını itirdi. Raufun körpə qızları xaricdə taleyin ümidinə buraxılıb. Hər iki insan ziyalıdır. Vətənini sevən insanlardır. Bir ata kimi, bir ziyalı kimi onların çəkdikləri yetərlidir. Onların günahı var, yoxsa yox, bu suala heç cavab da axtarmaq lazım deyil. Qoy kimlərsə onları günahkar hesab etsin, kimlərsə etməsin. Yetər ki, bu insanlar öz ailələrinə qovuşsunlar. Ailələrinin bu ağır günlərdə onlara ehtiyac var. Sübut edək ki, biz millətik. İnsanlara sevgi ilə yanaşırıq.

Nərgizin ölümü hamını sarsıtdı. Bəlkə elə bundan başlayaq. Siyasi manipulyasiya etmədən, siyasi maraqları deyil, insan amilini düşünərək, siyasi motivlərə görə həbs olunmuş ataları övladlarına qovuşduraq? İqtidarda da bunu etməyə səsləyənlər az deyil. Lakin cəmiyyəti diz çökdürməyə dəvət edənlər də var. Onlara fikir belə verməyək. Çoxluq fərqli düşünür. Odur ki, çoxluğu biz təşkil etdiyimiz üçün ailələrinə qovuşa bilməyən Tofiq Yaqublunun, Rauf Mirqədirovun, İntiqam Əliyevin və başqalarının həbsdə qalmasının günahı eyni zamanda bizdədir. Ona görə ki, biz, yəni çoxluq bu əxlaq, daha doğrusu, mənəviyyat dışı meyarların cəmiyyətin davranış tərzinə hakim kəsilməsinə imkan vermişik. Cəmiyyəti cəzalandırmaq istəyənlər bizdən fərqli deyillər. Başqa sözlə desək, biz onlardan heç nə ilə yaxşı deyilik. Çünki onların siyasi mövcudluğuna imkan yaradan bizlərik. Dəyişə bilərik. Bu insanları azadlıqlarına qovuşdurmaqla ədaləti də bərpa edə bilərik.

Müstəqil Azərbaycanı quran insanların sayı get-gedə azalır. Onlara diqqət və qayğı lazımdır. Bircə addım kifayət edər ki, gərginliyə su səpilsin. Qərb və ya Şərq nə tələb edir önəmli deyil. Önəmlisi bu insanları azad etməkdir. Qələm tutan əllərə qandal yaraşmır. Vallah, yaraşmır. Həbsxana qatillərin, oğruların evidir. Ziyalıya orada yer olmamalıdır.

Bu məmləkətin insanı bir-birinə bu dərəcədə nifrət etməməlidir. Nifrətin kökünü kəsmək lazım gəlir. Qarşılıqlı nifrət uğurlu model deyil. Bu mərhələdə qarşılıqlı inamı da yaratmaq çətin görünür. Lakin başqa yol yoxdur. Başlamaq lazımdır. İlk olaraq Tofiq Yaqublunu, daha sonra digər siyasi məhbusları azad etməklə dəyişikliyə nail olmaq mümkündür...

---

**1994-cü ilin mart ayında Gədəbəydə öldürülmüş polkovnik, batalyon komandiri Cahangir Rüstəmova sui-qəsd haqda yeni məlumatlar yayılıb. Məlum olur ki, E.Həsənlinin iddia etdiyi məqamlar vaxtilə Milli Təhlükəsizlik Nazirliyində araşdırılıb.**
**1996-cı ildə baş tutan araşdırmaların nəticəsi haqda məlumat yoxdur. Bilinən odur ki, həmin dövrdə müdafiə naziri olan Səfər Əbiyevin adı istintaqda çəkilib. Cahangir Rüstəmovun silahlanma üzrə müavini olmuş mayor Dilqəm Əliyevdən Səfər Əbiyevin bu işdə rolu haqda ifadə istənilib.**



# Hüquqşünas Səfər Əbiyevin istintaqa cəlb edilməsinin yollarını göstərdi

## Müzəffər Baxış: "İcraata xitam verilibsə, Baş Prokurorluq həmin qərarı ləğv etməli və yeni göstərişlə cinayət işinin icraatı davam etdirilməlidir"

C.Rüstəmovun oğlu Faiq Rüstəmov "Yeni Müsavat"a müsahibəsində işdə Səfər Əbiyevdən şübhələndiyini dilə gətirib.

Belə bir halda, 21 il əvvəl baş tutan qanlı olayla bağlı istintaq yenilənə bilərmi?

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış deyir ki, istintaq yenilənməli, məsələ araşdırılmalıdır:** "Azərbaycanda belə hallar adiləşib. Bariz nümunə Hacı Məmmədovun törətdikləri idi. İnsanları qətlə yetirirdilər, maşına qoyub "Qurd qapısı"nda dağdan aşağı buraxırdılar. Sonra da bunu yol-nəqliyyat hadisəsi kimi qeydə alıb işi bağlayırdılar. Ekspertlər də ölümün qəza nəticəsində əmələ gələn travmalardan baş verməsi haqda rəy verirdilər. Cahangir Rüstəmovun işi ilə yanaşı, ölkədə çoxsaylı belə işlər var. Vəzifəli şəxslərin ölümləri ilə bağlı çoxsaylı iddialar irəli sürülür. Polkovnik Rüstəmovun yaxın qohumları onun ölümü ilə bağlı çox ciddi iddialar irəli sürüblər. Onlardan başqa şəxslər də polkovnik Rüstəmovun öldürülməsinə dəlalət edən iddiaları dilə gətirilər. Hər bir halda bu işin icraatı təzələnməli, iddialar, irəli sürülən faktlar hərtərəfli, tam araşdırılmalıdır".

**M.Baxış deyir ki, iddialarda adları çəkilən şəxslər istintaqa cəlb olunmalıdırlar:** "Polkovni-



Cahangir Rüstəmov

kin ölümü ilə bağlı konkret adlar çəkilir. İstintaq təzələnməli, həmin şəxslərin bu cinayətə aidiyyətləri müəyyən olunmalı, günahları varsa, onları cinayət məsuliyyətinə cəlb etməlidirlər. Onların cəzalandırılması təmin edilməlidir. Qəsdən adam öldürmə işlərində, xüsusilə ağırlaşdırıcı hallarda ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Bu qəbildən olan cinayətlər araşdırıla və cinayət məsuliyyətinə cəlb etmə müddəti keçsə də, həmin şəxslər barəsində iş məhkəməyə verilə bilər. Azərbaycan qanunvericiliyinə görə həmin şəxslər cəzalarını gec də olsa ala bilərlər".

**M.Baxış deyir ki, Baş Prokurorluq Cahangir Rüstəmovun ölümü ilə bağlı faktları, iddiaları araşdırmalı və müvafiq qanuni tədbirlər görməlidir:** "Mediada xüsusilə ağır cinayət haqda məlumat yayılırsa, Azərbaycan Cinayət Prosessual Məcəlləsinin 206-cı maddəsinin tələblərinə görə fakt üzrə araşdırmalar başlanmalıdır. Əgər polkovnik Rüstəmovun ölümü ilə bağlı cinayət işinin icraatı dayandırılıbsa, icraata xitam verilibsə, Baş Prokurorluq həmin qərarları ləğv etməli və yeni göstərişlə cinayət işinin icraatı davam etdirilməlidir".



Müzəffər Baxış

**M.Baxış C.Rüstəmovun yaxınlarının zərərçəkən qismində tanınmamasını işin bədbəxt hadisə kimi rəsmiləşdirildiyinə dəlalət etdiyini deyib. Vəkil iş üzrə adları keçən və artıq vəzifələri qarşısına "eks" sözü əlavə edilən Səfər Əbiyevlə Aslan Aslanovun istintaqa cəlb edilməsi məsələsinin hüquqi həlli yollarına da aydınlıq gətirdi:** "Əgər istək olsa, qanunlar ən yüksək vəzifədə olan şəxs və ya şəxslərin də cinayət məsuliyyətinə cəlb olunmalarına imkan verir. Məsələn, deputatın həbsi üçün Milli Məclisin razılığı olmalıdır. Nazirlərin həbsi üçün prezidentin razılığı alınır. Yəni kifayət qədər hüquqi baza, prosedurlar var. Sadəcə, istək, qanunların dəqiq və dürüst tətbiqi lazımdır. Əfsus ki, qanunların dəqiq və dürüst tətbiqində çox ciddi problemlər var. Bu problemlər əksər vaxtlarda cinayət törədənlərin vəzifəsindən, hansı siyasi klanda təmsil olunmasından, külli miqdarda pul müqabilində qanunların düzgün tətbiq olunmamasından qaynaqlanır. Əgər Rüstəmovun ölümündə adları çəkilən şəxslərin əlləri varsa, onlar gec-tez cəzalarını alacaqlar. Bizim dinimiz, qanunlarımız, milli adət-ənənələrimiz qəsdən adam öldürmə cinayətinə mənfi münasibət bəsləyir. Bu baxımdan həmin adamların etdikləri əməllərə görə gec də olsa, cavab verəcəklərini düşünürəm".

**Yada salaq ki, C.Rüstəmovun oğlu Faiq Rüstəmov, Tovuz özünümüdafiə batalyonunun sabiq komandiri Etibar Əmiraslanov da bu iddialarla bağlı "Yeni Müsavat"a müsahibə verərək, alay komandirinə sui-qəsd edildiyini bildiriblər. Polkovnikin oğlu Əbiyevdən şübhələndiyini dilə gətirib. Sitat:** "Atama sui-qəsdin üstündən 21 il ötüb, bizi zərərçəkən kimi tanıyıb cinayət işi ilə tanış etməyiblər. Atama sui-qəsddə ən çox şübhələndiyim şəxs Səfər Əbiyevdir. Atamı zəhərlədilər, istədiklərinə nail olmadılar. 4 ay sonra atamı öldürdülər. Onu sui-qəsd nəticəsində öldürüblər. Mən buna əminəm".

**Tovuz özünümüdafiə batalyonunun sabiq komandiri Etibar Əmiraslanov isə polkovnikin bildiklərini açıqlamaması üçün öldürüldüyünü demişdi:** "Cahangir Rüstəmov yanına gəlib "qoşunları geri çək, əvəzində nə istəsən verək" deyən adamları tanıdığını demişdi, həmin sözdən sonra onu məhv etdilər".

**C.Rüstəmovun komandanı olduğu alayın bölüklərindən birinin komandiri olmuş Faiq Mahmudov da oxşar fikirlər səsləndirib. Sitat:** "Cahangir Rüstəmovun korpus komandiri təyin olunması söhbəti çıxandan sonra o dövrdə briqada komandiri olan Səfər Əbiyevlə münasibətləri korlanmışdı. İcra başçısı Aslan Aslanov həmin dövrlər qərargaha gedib-gəlirdi. Cahangir Rüstəmova sui-qəsddən sonra hamı bu işin arxasında Səfər Əbiyevin olduğunu deyirdi".

**Partlayışdan 3 gün əvvəl - 1994-cü il martın 25-də C.Rüstəmova müvəqqəti sürücü təyin olunmuş Saleh Əliyev də polkovnikin Aslan Aslanovla münasibətlərinin yaxşı olmadığını bəyan edib:** "Cahangir Rüstəmov Səfər Əbiyevə əvvəl korpus komandiri, sonradan isə müdafiə naziri, Aslan Aslanova icra başçısı kimi münasibət göstərirdi. Hər ikisi ilə vəzifə müstəvisində münasibət saxlayırdı. Aslan Aslanov onun işinə müdaxilə etmək istəyəndə, Cahangir müəllim dərhal etirazını bildirirdi. Deyirdi ki, hər kəs öz bildiyi işlə məşğul olmalıdır! Cahangir Rüstəmov öz işini bilən insan idi".

❑ E.HÜSEYNOV

# Con Kerri köməkçisini Bakıya göndərir

**Azərbaycan iqtidarı ilə ABŞ arasında son günlər yenidən artan gərginlik Ağ Ev administrasiyasını hərəkətə keçirib. Bir-birinin ardınca Amerikaya, o cümlədən bu ölkənin prezidenti Barak Obamaya, dövlət katibi Con Kerriyə və Bakıdakı diplomatik korpusa yönəlik sərt ittihamlar Vaşinqtonu ciddi narahat edib.**


Tom Malinovski

# ABŞ "çevriliş və inqilab" ittihamlarına cavab verməyə gəlir

## Amerika dövlət katibinin demokratiya və insan hüquqları məsələləri üzrə köməkçisi Tom Malinovski Azərbaycan iqtidarına sərt mövqeyi ilə seçilir; Bəhreyinin "persona non-qrata" elan etdiyi rəsmi şəxsi Bakıda çətin danışıqlar gözləyir

"Turan"ın diplomatik qaynaqlardan əldə etdiyi xəbərə görə, ABŞ dövlət katibinin demokratiya və insan hüquqları məsələləri üzrə köməkçisi Tom Malinovski iki həftədən sonra Bakıya gələcək. Səfərdə məqsəd Azərbaycanda insan hüquqları, demokratiya və vətəndaş cəmiyyətinin problemləri ilə bağlı rəsmilərlə müzakirələr aparmaqdır. Səfər zamanı həmçinin Azərbaycanda vətəndaş cəmiyyətinə və Qərb institutlarına qarşı repressiya dalğası fonunda iki ölkə arasındakı münasibətlərdə yaranmış hazırkı problemlərə də toxunulacaq.

Vaşinqtondakı mənbələr Malinovskinin səfərinin digər detallarını açıqlamırlar. Lakin ABŞ rəsmisinin səfərinin anti-Amerika ritorikasının artdığı bir vaxtda, hökumət və hökumətyönlü mətbuatın dövlət katibi Con Kerrini Avropa Oyunları ərəfəsi Azərbaycan əleyhinə kampaniya təşkilində günahlandırdığı bir vaxta təsadüf edir. Üstəlik, Rusiya da Amerikanın Bakıdakı səfirliyini son vaxtlar gah "narıncı inqilablar" hazırlamaqda, gah da xəfiyyələri vasitəsilə Şimali Qafqazda terrorçu qruplara dəstəkdə ittiham edir. ABŞ səfirliyi bu kimi ittihamları cavabsız qoymur, amma görünür ki, Ağ Ev də artıq Bakı ilə münasibətlərdə nə baş verdiyini özü üçün aydınlaşdırmaq istəyir. Çünki ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Viktoriya Nulandın fevralın 17-də Bakıya etdiyi səfərindən və rəsmi Bakı ilə mübahisəli məsələləri həll edəcək ortaq bir qurumun yaradılması barədə razılaşmalardan, 4 aylıq fasilədən sonra yeni səfirin fəaliyyətə başlaması ilə gərginliyin azalması gözlənilsə də, əks proseslər baş verməkdədir.

Dövlət katibinin bu dəfə məhz demokratiya və insan hüquqları məsələləri üzrə köməkçisini Bakıya göndərməsi də diqqət çəkir. Azərbaycan iqtidarı özlərinin də etiraf etdiyi kimi, Qərbin ciddi təzyiqləri ilə üzləşiblər. Səbəb barədə fərqli iddialar olsa da, rəsmi Bakı insan haqlarının vəziyyəti və qanunsuz həbslərlə bağlı iradları birmənalı rədd edir. Avropa Oyunları ərəfəsi isə ABŞ Bakıya məhz bu məsələlərdən sorumlu rəsmisini göndərməklə əslində bu problemlərin olduğuna işarə edir.

Malinovskini Bakıda yaxşı xatırlayırlar. Onun bir neçə ay əvvəl AzadlıqRadiosuna açıqlamasında Azərbaycandakı vəziyyətdən danışması rəsmi Bakıda ciddi etirazla qarşılanmışdı. O, QHT rəhbərlərinin həbslərindən danışarkən demişdi ki, Azərbaycan hakimiyyəti vətəndaş cəmiyyətini boğmaqla heç nəyə nail ola bilməz. **"Son aylarda Azərbaycanda baş verənləri başa düşmək ABŞ-a çox çətindir. Bu addımlar bizim münasibətləri sual altına qoyur"** deyə, ABŞ rəsmisi bildirmişdi.

O, bu posta 2014-cü ilin 13 mayında təsdiqlənib. Bu postadək o "Humana Rights Watch"ın Vaşinqton bürosuna rəhbərlik edib. Təşkilata rəhbərlik dövründə Azərbaycan iqtidarına sərt mövqeyi ilə seçilib. Tom Malinovski hətta Azərbaycan hökuməti rəhbərlərinin bank hesablarının dondurulmasına açıq çağırışlar da edib.

Malinovskinin namizədliyi Senatda 1 ilə yaxın müzakirə edilib. Respublikaçılarla Demokratlar uzun sürən dartışmalardan sonra onun namizədliyini təsdiqləyiblər. Onun bu posta təyinatını Con Makkeyin və Benjamin Kardina kimi nüfuzlu senatorlar ciddi müdafiə edib.

Bu ilin iyununda Bəhreyin Malinovskini "persona-non qrata" elan edib. Bunun səbəbi dövlət katibi köməkçisinin ölkənin əsas müxalifət partiyası olan "Əl-Vifaqla" görüşü olub. Rəsmi Bəhreyin bunu ölkənin daxili işlərinə qarışmaq kimi qiymətləndirmişdi.

Malinovskini Bakıda çox ciddi və gərgin müzakirələr gözləyir...

❑ **Xəbər xidməti**





# ABŞ Dövlət Departamenti ittihamlara münasibət bildirdi

## APA isə araşdırmanın hazırlanması zamanı istinad olunmuş sənədləri nümayiş etdirdi

**"APA Holdinq" MMC-nin rəhbəri Vüsalə Mahirqızı APA İnformasiya Agentliyində yayımlanmış "Con Kerrinin Konqresdəki ofisindən idarə olunan anti-Azərbaycan kampaniyası" sərlövhəli araşdırmanın hazırlanması zamanı istinad olunmuş sənədləri nümayiş etdirib.**


Coordination of the Sport for Rights Campaig
Ahead of Baku Olympics
Project proposal
International Media Support
February 2015

APA-nın məlumatına görə, V. Mahirqızı bildirib ki, araşdırma yazı müvafiq sənədlər əsasında hazırlanıb: "Ancaq təəssüf edirəm ki, həmin yazıda adıçəkilən bəzi qeyri-hökumət təşkilatı rəhbərləri və ekspertlər yazıya şübhə ilə yanaşdılar. ABŞ-ın Azərbaycandakı səfirliyinin açıqlamasında da yazı ilə bağlı qeyri-korrekt ifadələr yer alıb. Ona görə biz redaksiya olaraq qərara gəldik ki, sənədləri nümayiş etdirək. Yazı 4 sənəd əsasında hazırlanıb. Bunlar "Avropa təşkilatlarının insan haqları naminə idman layihəsi", "2015-ci il yanvarın 15-16-da insan hüquqları təşkilatının Varşava görüşündə qəbul olunmuş sənəd", "Azərbaycanda əlamətdar günlər, beynəlxalq tədbirlər və yüksək vəzifəli şəxslərin səfər təqvimi" və "NED-in həyata keçirdiyi kampaniyanın layihəsi"dir".


SPORTS FOR RIGHTS
Sport for Rights campaign meeting
Warsaw 15-16 January 2015
Aim of the campaign:
1. Destroying PR efforts by ruling regime, positive image of Azerbaijan
2. Raising awareness on corruption and sports events (directed to Azerbaijani aud
Campaign call:
Release political prisoners – human rights defenders, journalists and activities put behi for exercising their right to freedom of expression – a fundamental value as put in the Olympic Charter. The faces if the campaign: Rasul and Khadija
Communication:
The communication would be built on:
1. Stories of political prisoners (Rasul, Khadija, Anar, Intigam, Leyla)
2. Showing the opposite image to the one build by the presidential administration
- 21 years of power of president family
- Baku does not equal real Azerbaijan
- Trials observations/ HRD in cages
- authoritarian regime
- most of constructions used to legitimize the regime
- HR abuses/ no respect of european values
- monopolics economy
- underdevelopment of regions
- absurdity: no gas in regions
- cost of sport events
Activities:
1. In Azerbaijan

**V.Mahirqızı deyib ki, APA fəaliyyəti dövründə heç vaxt fakta əsaslanmayan yazı hazırlamayıb:** "Bu dəfə də istisna deyil. Biz bir daha sübut etdik ki, fakt, sənəd olmadan yazı yazmırıq".


FOR INTERNAL IPGA PURPOSES ONLY – NOT FOR WIDER CIRCULATION OR PUBLICATION
AZERBAIJAN: TIMELINE OF KEY DATES (FEBRUARY – JUNE 2015)
FEBRUARY
MARCH
APRIL
MAY
JUNE
TBC

ABŞ Dövlət Departamenti araşdırmaya münasibət bildirib.

APA-nın məlumatına görə, Dövlət Departamentinin sözçüsü Mari Harfın ənənəvi mətbuat toplantısında jurnalist ondan ABŞ-ın Azərbaycanda keçiriləcək Avropa Oyunları qabağı ölkənin imicini qaralamaq üçün plan hazırladığına dair yazıya münasibət bildirməsini istəyib. Jurnalist deyib: "Məqalədə dövlət katibi Con Kerri ermənipərəst kimi göstərilir. Əvvəlcə, bilmək istəyirəm ki, Dövlət Departamentinin buna reaksiyası necə olacaq? İkincisi, hökumətə rəsmi etiraz göndərməklə bağlı hər hansı plan varmı?"

**M.Harfın suala cavabı isə belə olub:** "ABŞ-ın Azərbaycanın suverenliyi və müstəqilliyinə olan uzunmüddətli dəstəyinə sözdən daha çox etibar edilir. Bu məqalədəki iddialar isə tamamilə əsassızdır və həqiqətə uyğun deyil".

# Amerika Cənubi Qafqaz ölkələri ilə daha yaxından işləməyə hazırdır

**"Biz Şərqlə Qərb arasındakı əlaqələrin gücləndirilməsi üçün Cənubi Qafqaz ölkələri ilə daha yaxından əməkdaşlıq etməyə hazırıq".**


Riçard Hoqland

APA-nın məlumatına görə, bunu ABŞ dövlət katibinin köməkçisinin birinci müavini Riçard Hoqland "Latviyanın Avropa İttifaqına sədrliyi və Aİ-nin Mərkəzi Asiyaya yönəlmiş siyasəti" adlı forumda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, qlobal ticarət axınının yaranması üçün ABŞ bu sahədə Avropa İttifaqı, Çin, Hindistan və Mərkəzi Asiya ilə işləməyə hazırdır. Hoqland bildirib ki, ABŞ-ın Yeni İpək Yolu təşəbbüsü daha çox Mərkəzi Asiya ilə Cənubi Asiya arasında şimal-cənub əlaqələrinin möhkəmləndirilməsinə yönəlib: "Lakin biz Şərqlə Qərb arasında əlaqələrin inkişafına yardım edəcək yollar barədə də düşünürük. Bununla bağlı son 6 ildə Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa ilə "Şimal Paylama Şəbəkəsi" proqramı çərçivəsində məhsulların Əfqanıstana və Əfqanıstandan Avropaya daşınması istiqamətində əməkdaşlıq etmişik. Hazırda eyni proqram çərçivəsində Çin və Hindistandan keçməklə, Mərkəzi Asiyanı Xəzər dənizi və Şimali Qafqazdan keçməklə, Türkiyə və Avropa ilə birləşdirən şərq-qərb ticarət şəbəkəsini inkişaf etdirməyə çalışırıq".

**Diplomat bildirib ki, ticarət dəhlizlərinin inkişafı üçün digər layihələr də həyata keçirilir:** "Biz həmçinin Avropa İttifaqının dəstəklədiyi "Şərq Tərəfdaşlığı" proqramını və TRACECA layihəsini yaxından izləyirik. Biz ölkələri bu istiqamətdə işləri davam etdirməyə çağırırıq. Bacardığımız qədər bu layihələrə dəstək verməyə hazırıq".



# İdmana siyasət qatmaq olarmı

Zamin HACI
zaminhaci@gmail.com

**Amerika səfiri iki gün qabaq əlində yekə bir torba, girmişdi Şıx çimərliyinə, guya zibil toplayırdı. Bunun səhərisi gün isə YAP icraçı katibi Əli müəllimlə görüşdü. Açıq-aşkar müstəqilliyimizə həqarət, dövlətçiliyimizə badalaq, sabitliyə şaqqanaq, balanslaşdırılmış xarici siyasətimizə isə taqqanaq gəlinməsi cəhdləridir. Guya biz bilmirik bunlar hansı məqsədi güdürlər? İstəyirlər Azərbaycanda Avropa Oyunları pis olsun, heç kim medal ala bilməsin. Tapşırıqlar isə ermənipərəst dövlət katibi Con Kerrinin ofisindən verilibdir. Orda hətta xüsusi qrup yaradılıbdır, oyunlarımıza qara yaxmağa cəhd edirlər, Vüsalə xanımın sayəsində ifşa olunmuşdurlar. Con Kerri, heç olmazsa Cim Kerriyə bax, öyrən. Yoxsa heç gülməli də deyilsən.**

Ümumiyyətlə, idmana siyasət qatmaq olmaz. Nə olsun ölkəmizdə kimisə tutub qanunsuz zindana salıblar, bəyəm bu, yarışlara maneçilik törətməlidir? Tərsinə olsa idi başqa məsələ - siyasətə idman qatmaq istəyirsinizsə, buyurun. Sağlam bədəndə sağlam ruh olur. Lazım gəlsə idmançılardan qoçu dəstələri də düzəltmək mümkündür.

Bunlar hamısı kimyəvi problemlərdir. Yəni, nəyi nəyə qatmaq olar, hansı temperaturda qatsan yaxşı sintez gedər. Məsələn, dünənəcən kənddə divara təzək yapan adamlar indi Amerikanın üzünə lomba ilə tüpürürlər. Mövzuya uyğun oxucu məktubumuz var, çoxdan qalıb poçt qutusunda, güvə yeməmiş dərc edim getsin. Vasif Həsənov yazır ki, hakimiyyət icra orqanlarında aqrar məsələ üzrə müavin vəzifəsini ləğv edib, bunun yerinə bütün dövlət qurumlarında aqrar təfəkkür üzrə vəzifələrin yaradılması məqsədə uyğun olardı. Doğrudan da aqrar təfəkkür qiymətli keyfiyyətdir, insanı istənilən şəraitdə xoşbəxt eləyir.

Amerika səfirinin plyajdan zibil toplaması isə artistlikdən başqa bir şey deyildir. Guya indi plyajda nə zibil olur? Yaxşı adamsansa yayda gəl, gör nə qədər qarpız qabığı, toyuq sümüyü, qarğıdalı cecəyi olur. Hətta suya baş vuranda adamın burnuna az qalır neft buruğu girsin. ABŞ səfiri indiki hərəkəti ilə sadəcə gizli mesaj verir, xariciləri Avropa Oyunlarına gəlməkdən çəkindirmək istəyir. "Baxın, çimərliklərindən neçə torba zibil yığdım, hara gəlirsiniz?" - mesajın məzmunu budur. Məndə sənədlər var, o zibilləri Amerikadan gətirib plyaja töküblər. Gecəyarısı. Bah-bah-bah... Nə sənədlər var hələ, neft pulu qurtaranda üzə çıxacaq.

Zibildən qabaq isə ABŞ səfirliyi ölkəmizi biabır eləmək üçün daha bir gizli tapşırıq həyata keçirdi. Açıqlama yaymışdılar ki, səfirliyin adından kimlərsə fırıldaq gəlir, adamları guya işə düzəltmək üçün pul yığırlar, buna aldanmayın, biz kimsəni işə çağırmamışıq və sairə. Əslində bu, kimlərisə fırıldaqdan qorumaq cəhdi yox, fırıldağın yekəsi idi. Amerika bununla bizə böhtan atır, demək istəyir sizdə işsizlik yayılıb. Halbuki, bizdə işsizlik mənfi 5 dərəcədən aşağı düşüb, bunu hamı gözəl bilir. Təkcə son 1 ayda 500 faiz yeni iş yeri açılıb. Suriya erməniləri gəlib nazirlərimizin villasında suvaq vurur, biz niyə Amerika səfirliyində iş axtaraq? Gedin özünüzə gülün. Bu haqda da sənədlərimiz var, hələ çıxarmırıq. Çıxarsaq qan düşər. Hər halda, XİN bu zibil və iş məsələsinə nota versə yaxşı olardı. Asim müəllim demişkən, bu, daha çox Amerikanın özünə xeyirdir. Zahid müəllim isə daha uzağa gedib, deyir Amerika səfiri həqiqətən amerikalı olmasını sübut eləsin. Nə bilək, bəlkə o bir meksikalı ermənidir? Bəlkə o piyanardır? Dua oxuyub kimlərisə qurbağaya çevirəcəkdir?

Sonda bir daha vurğulamaq istərdim ki, idmana siyasət qatmaq olmaz. Siyasətə idman qatmaq olar. Südə maya qatanda qatıq alınır. Amma hər qabda qatıq çalmaq da düzgün deyildir. Gərək adamın qatığa uyğun qabı olsun. Yadıma rəhmətlik "Çeşmə" qəzetindən bir lətifə düşdü. İndi deputat olan yoldaşlardan biri Tərtərə gedir, görür uşaq qum, palçıq, mal təzəyini qatıb heykəlcik qayırır. Deyir, a bala, nə qayırırsan? Uşaq deyir sənin heykəlini. Uşağın qulağını dartır, gedir. Qayıdanda görür uşaq yenə heykəl qayırır, amma bu dəfə mal təzəyi qatmır. Sevincək soruşur bu nədir, uşaq deyir bozqurd heykəli. Deyir bəs təzək niyə qatmırsan. Uşaq deyir: "Təzək qatsam olar sənin heykəlin".

Bəli, kimya belə ciddi elmdir.

# Ermənilərin "soyqırım" planlarına daha bir zərbə

## İsrailin ardınca İsveç də Avroparlamentin "24 aprel" qərarının kağız parçası olduğunu nümayiş etdirdi; Serj Sərkisyan isə "genosid" məyusluğunu gizlətmək üçün ABŞ-ı aşağıladı...

**24 aprel 2015-ci il tarixi arxada qalsa da, saxta erməni soyqırımı mövzusu hələ ki bəzi ölkələrin gündəmindən çıxmayıb. Daha doğrusu, cəmi bir neçə dövlət qalıb ki, erməniləri həqiqi mənada başlarından eləmək üçün hansısa qərarlar vermək zorundadırlar - Almaniya, İsveç kimi.**

Dünən İsveç hökuməti nəhayət, 1915 hadisələri ilə əlaqədar erməni iddiaları haqqında 2010-cu ildə parlamentin qəbul etdiyi qərarın həyata keçirilməsini məqbul saymamaq və bu mövzu ilə əlaqədar müstəqil ekspertlərin araşdırmasından asılı olaraq hərəkət etmək haqda qərar verib. Yəni mövzu bir neçə illiyə təxirə salınmaqla yanaşı, faktiki, Türkiyə ilə həmrəylik nümayiş etdirilib. Beləliklə də ermənilərin və bu yöndə xüsusi canfəşanlıq edən PKK yanlıların arzuları ürəklərində qalıb.

İsveç Xarici İşlər Nazirliyinin sözçüsü Erik Boman baş nazir Stefan Lövfenin bununla bağlı bir neçə gün əvvəlki sözlərini xatırladaraq, 1915-ci ildəki hadisələrin müstəqil qurum tərəfindən araşdırılmasından sonra çıxan nəticəyə görə hərəkət ediləcəyini dilə gətirib. Bununla ilgili XİN-in artıq işə başlatdığını söyləyən Boman xalqlar arasında sülh əldə olmasını istədiklərini və İsveç parlamentində 2010-cu ildə qəbul edilən qərarı dondurduqlarını söyləyib.

**"Bu mövzuda araşdırma bitmədən heç bir qərar qəbul etmək doğru deyil. 100 il əvvəl yaşanmış bir faciə üçün təhqiqat aparılmadan parlament qərarı ilə bir ölkəni soyqırım törətməkdə suçlamaq olmaz"**, - deyə o vurğulayıb və qəti qərara peşəkar tarixçilərin ətraflı araşdırmasından sonra gəlinəcəyini bildirib.

Elə rəsmi Ankaranın mövqeyi də bundan ibarətdir - məsələyə tarixçilərdən ibarət ortaq komissiya nöqtə qoysun!



Ermənistana isə belə formul sərf eləmir, çünki arxivlər açılsa, doğrudan da türklər ermənilərdən yox, ermənilər türklərdən, müsəlmanlardan üzr istəməli olarlar. Mümkün sonucu erməni lobbisi də, İrəvandakı rəsmilər də bilirlər. Odur ki, illərdir ölkə parlamentlərinin sırf siyasi qərarları ilə öz məqsədlərinə çatmağa çalışırlar...

***

Gözlənildiyi kimi, İsveçin mövqeyi ermənilərdə və onların havadarlarında xəyal qırıqlığına səbəb olub. Bu yerdə yada salaq ki, İsveç parlamentindəki qərar 2010-cu ildə müxalifətdə olan Sosial Demokrat Partiyası ilə Yaşıllar Partiyasının birgə layihəsi olaraq cəmi bir səs fərqlə qəbul edilmişdi. Daha əvvəlki sağ koalisiya hökumətinin baş naziri Fredrik Reynfeld və xarici işlər naziri Carl Bildt isə qərarın kağız üzərində qalmasını təmin eləmişdilər.

Sözsüz ki, ermənilərin bu yöndə cəhdləri davam edəcək. Ancaq fakt-faktlığında qalır ki, ABŞ, Böyük Britaniya kimi daha bir önəmli xristian ölkəsi, üstəlik, Avropa Birliyinin üzvü olan dövlət - İsveç erməni təbliğatına uymadı və bununla da Avropa Parlamentinin 24 aprellə bağlı son məlum qərarının əslində kağız parçası olduğunu əyani nümayiş etdirdi.

Bundan cəmi bir gün qabaq isə Qərb dünyasının parçası sayılan İsrailin xarici işlər naziri Avidqor Liberman "erməni soyqırımı" ifadəsini qəbul etmədiyini, belə bir "soyqırımı" tanımadığını bəyan eləməklə, üstəlik, bu mövqeyi bütün siyasətçilərə məsləhət görməklə erməni iddialarına başqa bir zərbə vurmuşdu.

Xatırladaq ki, İsrail saxta iddianı tanımamaqla yanaşı, aprelin 24-də İrəvana çox aşağı bir nümayəndə heyəti göndərib. Libermanın mövqeyi isə yəhudi dövlətinin müttəfiqlik əlaqələrində olduğu ABŞ-ın yanaşması ilə tam sinxronluq təşkil edir ki, bu da yenə istər Türkiyə olsun, istərsə də Azərbaycan - iki qardaş ölkənin maraqlarına tam cavab verir.

***

Ermənilər isə məyusluğunu artıq gizlətmirlər. Məsələn, Ermənistan prezidenti Serj Sərkisyan rusiyalı telejurnalist Vladimir Poznerin "Pözner" proqramına müsahibəsində ABŞ-ın "soyqırımı" niyə tanımaması sualına cavabında bunu Amerikanın "öz maraqlarını ümumbəşəri dəyərlərdən üstün tutması ilə" izah edib. Yəni faktiki surətdə dünyanın supergücünü aşağılayıb.

Sən demə, saxta bir ittihamı dəstəkləməmək, ortaq komissiya yaratmaq təklifləri ümumbəşəri dəyərlərə arxa çevirmək demək imiş. Guya uydurma soyqırımı tanımış və prezidentləri aprelin 24-də İrəvanda olmuş Rusiya, Fransa bu addıma ümumbəşəri dəyərləri üstün tutduqları üçün gediblər.

Əlbəttə ki, belə deyil. Əslində saxta "genosidi" tanıyanlar məhz öz milli maraqlarını, Türkiyə faktorunu əsas götürərək belə qərarlar veriblər. Axı bunu kim bilməsə də Sərkisyan gözəl bilməlidir...

❑ **Siyasət şöbəsi**

# Məmurlara sanksiya məsələsi yenidən gündəmdə

## ABŞ qanunvericiləri "Maqnitski qanunu"nun genişləndirilməsi üzərində işləyirlər; "Human Rights Watch" təşkilatı yeni bəyanat yayıb

**"ABŞ qanunvericiləri "Maqnitski qanunu"nun genişləndirilməsi üzərində işləyirlər. Məqsəd onun yalnız Rusiyaya deyil, başqa ölkələrə də şamil edilməsidir. Yeni qanun layihəsinin müəllifləri Azərbaycan da daxil olmaqla, insan hüquqlarının pozulmasına son qoymağa" çağırırlar. Maqnitski aktı heç zaman Rusiyaya qarşı olmayıb, o, "pis oğlanlara" qarşı qlobal xarakter daşıyır" deyə, qanun layihəsinin həmmüəllifi, konqresmen Cim Makqovern bildirib.**

Aprelin 29-da Vaşinqtonda "Turan"ın müxbiri ilə söhbətində Makqovern deyib ki, yeni qanun layihəsi üzrə cari debatlar onu göstərir ki, "ABŞ və digər ölkələr insan haqlarını öz xarici siyasətlərinin mərkəzi hissəsi hesab edirlər". "Azərbaycanlı məmurlar da qlobal "Maqnitski qanunu"nun təsirinə düşə bilərmi" sualının cavabında Makqovern deyib ki, qanun bütün dünyada insan hüquqlarını pozanlara, korrupsioner məmurlara yönələcək, onlar məsuliyyətə cəlb olunacaqlar.

Öz növbəsində "Freedom House" təşkilatının vitse-prezidenti Daniel Kalinqaert Konqresin Xarici Məsələlər Komitəsinə müraciət edərək "Maqnitski qanunu"nun genişləndirilməsinə çağırıb.

"Dünyada Sergey Maqnitski kimi ədalət və azadlıq haqqında danışmağa cəsarət etdiyinə görə təzyiqlərin qurbanı olan adamlar çoxdur". O belə şəxslərin sırasında Rəsul Cəfərovun və Xədicə İsmayılovanın adlarını çəkib.

"Maqnitski qanunu" ilə 2012-ci ildən insan hüquqlarını pozanların ABŞ-a girişi qadağan edilib və maliyyə vəsaitləri dondurulub. Hazırda siyahıda 38 nəfər var ki, onlara qarşı bu sanksiyalar tətbiq edilib. Onların arasında ilk növbədə moskvalı vəkil Sergey Maqnitskinin qanunsuz həbsində, ona işgəncə verilməsində və həbsxanada ölümündə günahkar olanlar durur. Qanunun genişləndirilməsi bu sanksiyaların bütün ölkələrə şamil edilməsini nəzərdə tutur.

Eyni zamanda korrupsiyanın cinayətlər siyahısına daxil edilməsi namizədlərin bu qara siyahıya daxil edilməsini genişləndirəcək.

Asiya İnkişaf Bankı (AİB) və onun səhmdar ölkələri bankın qarşıdakı Bakı görüşlərindən əvvəl Azərbaycan hökumətini fəallara və müstəqil qruplara təzyiqlərə son qoymağa çağırmalıdır. Bu barədə isə "Human Rights Watch" təşkilatının bəyanatında deyilir.

Bəyanatda deyilir ki, Asiya İnkişaf Bankı şəffaflığı, insanların iştirakını və hesabatlılığı davamlı inkişafın vacib elementləri kimi tanıyıb.

**"Lakin Bakı görüşü ilə eyni vaxtda Azərbaycan hökuməti onu tənqid edən müstəqil qruplara qarşı görünməmiş təzyiq kampaniyası aparır. Prinsiplərinə sadiq qalmaq naminə bank rəhbərliyi hökuməti qeyri-hökumət təşkilatları və medianın işinə bütün məhdudiyyətləri götürməyə çağırmalı, həmin qrupların azad fəaliyyətinin davamlı inkişaf üçün vacib olduğunu vurğulamalıdır"** deyə, təşkilatın beynəlxalq maliyyə institutları üzrə baş tədqiqatçısı Jessica Evans bildirib.

Bununla yanaşı, HRW xatırladır ki, hələ fevralda bankın prezidenti Takehiko Nakaoya məktub yazaraq Bakı görüşündən öncə atılmalı olan əsas addımlar barədə tövsiyələrini verib. Məktubda bildirilib ki, bank hökumətlə bu sahədə işləyə bilmirsə, müstəqil qrupların illik iclaslarda azad iştirakı təmin olunmursa, onda Bakıda illik iclas keçirilməsin. "Bank illik iclasları üçün ev sahibləri seçimi qaydalarını yaratmalıdır, iclaslar bankın prinsiplərinə əməl edən ölkələrdə keçirilməlidir" deyə, - sənəddə qeyd olunub.

Azərbaycan 1999-cu ildən bankın üzvüdür və 1.5 milyard ABŞ dolları dəyərində investisiya alıb. Mayın 2-5-də Bakıda Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısı keçiriləcək.

**Xəbər verdiyimiz kimi, APA İnformasiya Agentliyinin Analitik Mərkəzi ABŞ-da Azərbaycanda hakimiyyət dəyişikliyinə hesablanan kampaniya barədə yazı hazırlayıb. "Con Kerrinin Konqresdəki ofisindən idarə olunan anti-Azərbaycan kampaniyası" sərlövhəli yazıda qeyd olunur ki, "Bakı-2015"lə bağlı Azərbaycan əleyhinə kampaniya ABŞ-da "National Endowment for Democracy" təşkilatına həvalə edilib.**

# Müxalifət "Kerrinin "kirli planları"na inanmır

## Azərbaycanda hakimiyyət dəyişikliyinə hesablanan layihənin hazırlandığı barədə yayılan informasiyaya fərqli yanaşmalar var

Məqalədə kampaniyanın əsas fəaliyyət mərkəzi rolunu ABŞ-ın dövlət katibi Con Kerrinin Konqresdəki ofisinin oynadığı qeyd olunur.

Məqalədə bildirilir ki, "İnsan hüquqları naminə idman" kampaniyası adlandırılan ikinci sənədə əsasən, Avropada hərəkətverici qüvvə rolunda beynəlxalq hüquq-müdafiə təşkilatları çıxış etməklə, habelə rəsmi dairələr, Avropa İttifaqı, Avropa Şurası, ATƏT və digər böyük beynəlxalq təşkilatlar cəlb olunmaqla yeni "qara piar" layihəsinin icrasına başlanıb.

Qeyd edək ki, yazı kifayət qədər ittihamlarla zəngindir və məlumatlara inansaq, Azərbaycanda hakimiyyəti dəyişmək kimi ciddi planın ortaya çıxarılması hesab oluna bilər.

Azərbaycan iqtidarının təmsilçiləri, hakimiyyətə yaxın şəxslər belə bir planın müəllifinin Con Kerri olduğunu açıq şəkildə bəyan edirlər. Hətta artıq Con Kerrinin istefaya göndərilməsinin vacibliyini dilə gətirənlər var.

**YAP rəsmisi, deputat Aydın Mirzəzadə Azərbaycana qarşı planın həyata keçməyəcəyini bildirib:** "Azərbaycan müxtəlif zamanlarda etmədiyi işlərə görə ittiham olunur, az qala ölkəmizi izolyasiyaya salmaq cəhdləri göstərilir. Burada bir səbəb var. Azərbaycanın müstəqil daxili və xarici siyasət yeritməsi müəyyən dairələri ciddi narahat edir. Müəyyən güclər Azərbaycanı özünün forpostuna çevirməyə çalışır. Bəzi iri şirkətlərin sahibləri Azərbaycanda arzuladıqları çoxmilyardlıq gəlirləri əldən çıxdığına görə ölkəmizdən qisas almağa çalışırlar. Ölkədə neftdən gələn gəlirlərin iqtisadi və sosial problemlərin həll edilməsinə, güclü dövlət yaradılmasına yönəldilməsi onları razı salmır. Bu gün Azərbaycanın Liviya və Suriya ilə eyni vəziyyətdə olması onlara daha çox sərf edərdi. Bu, bir sıra dairələrə ona görə lazımdır ki, Azərbaycanı öz təsirləri altında saxlasınlar və davamlı şəkildə öz istəklərini həyata keçirsinlər, istənilən vaxt müdaxilə imkanına malik olsunlar. Lakin bu onlarda alınmır və alınmayacaq.



Mirmahmud Mirəloğlu



İqbal Ağazadə

Azərbaycan heç vaxt heç kimin forpostu olmayıb, heç bir xarici gücün siyasi sifarişlərini icra etməyib. Buna görə də gah rəngli inqilablar, gah "Azərbaycan baharı" reallaşdırmaq, gah da Azərbaycanı beynəlxalq aləmdə nüfuzdan salmaq üçün cəhdlər göstərilir. Con Kerri ilə bağlı açıqlanan plan isə yeni mərhələdir. Amma onlar yaxşı başa düşürlər ki, bu plan heç vaxt həyata keçməyəcək".

**Deputat Asim Mollazadə də Con Kerrini ermənipərəst adlandırıb:** "Hər kəsə məlumdur ki, Con Kerri hər zaman erməni diasporası ilə sıx əlaqədə olub. Bu baxımdan onunla bağlı yayılan məlumatları yeni hesab etmirəm. Bu bəlli idi. Onun anti-Azərbaycan fəaliyyəti ABŞ-Azərbaycan münasibətlərinin inkişafı baxımından deyil, daha çox varlı erməni diasporunun maraqları ilə izah olunur".

**Müxalifət düşərgəsində isə sözügedən yazıda qeyd olunanlara şübhə ilə yanaşılır.**

**KXCP sədri Mirmahmud Mirəloğlu bildirdi ki, o yazıda qeyd olunanların ciddiliyinə və reallığına qətiyyən inanmır:** "ABŞ-a qarşı "müharibə"ni çoxdan başlayıblar və son günlər yazılan iddialar da bunun tərkib hissəsidir. Amerikaya qarşı "müharibə" Azərbaycana uğur vəd eləmir. Bu kampaniyanın arxasında duranlar da daha çox rus başlılardır. Əgər ABŞ-ın doğrudan da o yazıdakı kimi niyyəti varsa, mən inanmıram ki, bu iddiaları irəli sürənlərin Amerikanın belə bir planından xəbəri ola bilərdi. ABŞ-da və Azərbaycanda ən yüksək səviyyədə strateji əməkdaşlıqdan danışılır, nəinki digər məsələlərdən. Yəqin ki, kimlərsə indi su bulandırmaqla məşğuldur. Mən bunun ciddiliyinə və reallığına qətiyyən inanmıram. Hesab edirəm ki, bu bir blefdir və yaxın zamanlarda sabun köpüyü kimi partlayıb yox olacaq".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə isə bildirdi ki, bu məsələyə münasibət bildirməli olan tək ünvan ABŞ-ın Bakıdakı səfirliyidir. Yazılanların dəqiq olub-olmadığını yalnız onlar deyə bilər:** "Mən hələlik informasiyanın özünün nə dərəcədə etibarlı olub-olmadığı barədə heç bir dəqiq fikir yürüdə bilmərəm. İnformasiyanın doğruluğu ilə bağlı məndə ciddi şübhələr var. Şübhə etdiyim informasiyaya şərh vermək isə naşılığın nümunəsi ola bilər".

**İ.Ağazadə onu da dedi ki, ümumən götürdükdə hakimiyyət dəyişikliyinə gedilməsi o zaman baş verir ki, artıq maraqların təmin olunmaması son həddə çatır:** "Bu gün Qərblə münasibətlər sistemində Azərbaycanın maraqları tapdalaması və ya qırmızı xətti aşırı şəkildə keçməsi kimi halların müşahidə olunduğu qənaətində deyiləm. Ümumiyyətlə, ölkələrdə dəyişikliklər olanda onu xarici dövlətlər etmir, onu daxildən edirlər. Bu gün ölkədə bu prosesin ola biləcəyi ehtimalı çox azdır. Bütün qüvvələr çalışmalıdır ki, bu proseslər olmasın. Bu gün Azərbaycana sabitlik, demokratikləşməyə yumşaq keçid vacibdir. Əks təqdirdə, çox şeyi itirəcəyik".

❑ **Etibar SEYİDAĞA**

# "ABŞ Azərbaycanda tərəfdarlarını və nüfuzunu itirir"

## "Qərbin ikili standartları: demokratiya və insan hüquqları" mövzusunda dəyirmi masa keçirilib

**Aprelin 30-da "Bakı 2015 Birinci Avropa Oyunlarına Dəstək" Vətəndaş Cəmiyyəti Koalisiyası "Qərbin ikili standartları: demokratiya və insan hüquqları" mövzusunda dəyirmi masa keçirib.**



APA-nın məlumatına görə, tədbirdə çıxış edən deputat Zahid Oruc bildirib ki, Azərbaycana qarşı Con Kerrinin rəhbərliyi ilə hazırlanmış layihə xarakter etibarilə digər kampaniya sənədlərindən fərqlənir: "Fikrimcə, bu, anti-Azərbaycan kampaniyası çərçivəsində çox böyük bir plandır. Planın bir hissəsi APA agentliyi tərəfindən açıqlanıb, ancaq ümid edirəm ki, digər sənədlər də yayımlanacaq. Artıq ABŞ Azərbaycanda tərəfdarlarını və nüfuzunu getdikcə itirməkdədir. Düşünürəm ki, bu, heç bir halda iqtidarın yürütdüyü siyasətlə bağlı deyil. Prioritetləri dəyişən ABŞ və onun hazırkı hakimiyyətidir. ABŞ-ın hazırkı siyasəti demokratik dəyərlərə və Azərbaycanla münasibətlərə zərər vurur. Heç şübhəsiz ki, ABŞ-ın demokratiya adı altında yürütdüyü siyasət dünya xalqlarını qorxutmaqdadır. Düşünürəm ki, Azərbaycanı cəzalandırmaq siyasəti Qərb və ABŞ-ın maraqlarına daha çox zərbə vuracaq. Bu siyasət ABŞ-ın Cənubi Qafqaza girişini bağlamaq deməkdir. Bu baxımdan təklif edirəm ki, burada səslənən dəyərli fikirləri ingilis dilinə çevirib, ABŞ hökumətinə,Con Kerriyə göndərmək lazımdır".

**"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev ABŞ və Avropa ölkələrində korrupsiya faktlarının artdığını vurğulayıb:** "Bizə qarşı yönələn əsas ittihamlardan biri də Azərbaycanda korrupsiyanın olmasıdır. Bizdə korrupsiya olsa da, buna qarşı effektli mübarizə aparılır. Təkcə, ASAN xidmətin fəaliyyətini vurğulamaq yetərlidir. Ancaq gəlin görək, bizi korrupsiyada ittiham edən ABŞ və Avropa İttifaqı ölkələrində vəziyyət necədir? Bu ölkələrdə yaşayan əhali arasında sorğu keçirilib və vətəndaşlar ölkələrində korrupsiyanın geniş yayıldığını bildiriblər. Avropa İttifaqı ölkələrində olduğu kimi, ABŞ-da da korrupsiya var. ABŞ və Avropa İttifaqı ölkələrində olduğu kimi, çirkli pulların yuyulmasında iştirak edən beynəlxalq təşkilatlar, indi Azərbaycanda insan haqları ilə bağlı bəyanat yayır. "Freedom House" təşkilatının xərclərinin 80 faizi ABŞ hökuməti tərəfindən maliyyələşdirilir. Bu baxımdan reytinqlərin müəyyən olunmasında ciddi siyasi amillər dayanır".

# Aradakı sədlər, sərhədlər...



**Xalid KAZIMLI**

**İran şahı Ağa Məhəmməd Qacarın haqqında yazılan kitabların birində (müəllifini unutmuşam) belə bir qeyd var, tarixçi yazır ki, şah ciddi hərbi yürüşlərindən əvvəl mütləq bir-iki ay öz doğulduğu torpaqda - Astarabadda yaşayar, güc və enerji toplayar, sonra yürüşə çıxarmış.**

Gerçəkdən də, doğma yer-yurd, doğulduğu torpaq insana güc və enerji verir - hərbi yürüşə çıxana da, həyat yürüşünə davam edənə də.

Srağagün güzarım yenə uşaqlağımın keçdiyi yerə düşmüşdü. Bilənlər bilir, bilməyənlər də bilsinlər, məsələ belədir: mənim dünyaya göz açdığım kənd bizdə deyil, ermənilərin əlindədir, amma çiling-ağac oynadığım yerlər, çimdiyim çay, suyunu içdiyim bulaq bizdədir. Hətta mənim ev tikmək üçün manşırladığım və özül xəndəyi qazdırdığım yerdə ermənilər xəndək kompleksi qazıblar, səngər, istehkam düzəldiblər.

Ona görə də hər dəfə yolum Quruçayın vadisinə düşəndə aldığım enerji bir təpə üstündə durub xaraba kəndimizə baxanda sorulub gedir. İstər-istəməz adamı kövrək duyğular çulğayır. Səni öz evindən (artıq bir daşı qalmamış, yandırılmış olsa da) bir-neçə dəqiqəlik məsafə ayırır, amma sən gedə bilmirsən. Arada sədlər, həddlər, sərhədlər, istehkamlar, minalar, əlisilahlı qəvi düşmənlər var.

Bunu yada salan kimi bütün emosional ovqat çəkilib gedir və adam "mən niyə kəndimə gedə bilmirəm", sualının cavabını, "burda nə var axı, ordu bir həmlə etsə, kəndimizi geri ala bilərik" iddiasının kontr-cavabını tapır.

Bilirsən ki, sən hissə qapılıb irəli gedə bilməzsən, ya yerindəcə güllələnərsən, ya da əsir düşərsən, başına gəlməyən əzab-iztirab qalmaz. Onu da bilirsən ki, ordu da hissə qapılıb irəli gedə bilməz, arada havadarlar, ATƏT, Fransa, Rusiya, ABŞ var və onlar hər cür manea törədərlər, əllərindən gələn hər şeyi edərlər. Hər şeyi.

Bu baxımdan məsələni "qeyrət-namus məsələsi"nə bağlamaq, "qeyrətimiz olsa, torpaqlarımızı geri alarıq" ritorikası ilə od püskürmək əbəsdir. Reallıq bundan ibarətdir: biz Himalayı aşıb Nepala gedə bilərik, amma iki addım o tərəfdəki kəndimizə getmək üçün aşacağımız manea ondan qat-qat böyük və keçilməzdir.

... Srağagün Füzulinin havası, suyu bir başqaydı. Sözün əsl mənasında. Son illərdə heç vaxt aprelin 29-30-da buralar bu qədər yaşıl olmamışdı. Bu il yağmur çox düşüb, ona görə də dəmyə yerlərdə belə yabanı otlar, qanqal adama boy vermir. Hər yan yamyaşıl ot dənizidir, meh vurduqca ləpələnir.

Adı Quruçay olsa da, heç vaxt qurumayan, ən azı öz içindən qaynayan bulaqları çağlayan və ətrafda yaşayan insanları, heyvanları olduqca lətif su ilə təmin edən çayın dumduru göz yaşı kimi suyu axıb gedir. Təpələr həminki, dərələr həminki, çay, bulaq həminki, atılmış çınqıl karxanası həminki. Bircə insanlar yoxdur. Onların bir qismi çox da uzaqda deyil. "Daşlı yer"in sarı təpəsindədirlər. Uyuyurlar. Hamısının məzarı təpənin kəndi görən yamacındadır. Ancaq nə işdirsə, baş daşlarına vurulmuş şəkillər kəndə baxmır.

Havada cənnət iyi var. Paytaxtın tüstülü, tozlu havasından çıxanlar bir saat bu cür havada qalanda oksigen bolluğundan sərxoş olurlar.

Yaşıl dərələrin arasındakı çay vadisində günəşin şüasından adamın gözünə gümüşü görünən suları göstərən bir şəkil çəkib sosial şəbəkədə paylaşmışdım, dostlardan biri yazdı ki, heç adam da bu gözəl mənzərəni qoyub geri qayıdarmı. O, düz deyir. Bu qədər gözəl mənzərəni, bu qədər bərəkətli torpağı, bu qədər təmiz havanı, suyu qoyub geri qayıtmaq çətindir.

Ancaq bu da bir reallıqdır: indilikdə Quruçay vadisində böyük insan toplumu üçün həyat yoxdur. Ətrafda yalnız 15-20 ailə yaşayır, öz kəsbkarlıqları ilə məşğuldurlar. Bir vaxtlar minlərlə insanın qaynaşdığı bu dərə-təpələrdə indi gün ərzində 3-4 adama rast gələ bilərsən. Onları da tanımırsan. Onlar da səni tanımır. Soruşan, tanıyarsan. Nə sən soruşursan, nə onlar.

Bəzən uşaqlıq dostunla rastlaşırsan, söhbət əsnasında ata-anasını xəbər alırsan, dönüb "Daşlı yer"in sarı təpəsinə baxır və sən doğma torpağından güc alıb hərbi yürüşə gedən Ağa Məhəmməd şah Qacar ola bilməməyin üzüntüsünü yaşayırsan.



# Ürəklərdə məşəl yanmırsa...

Hüseynbala SƏLİMOV

**Məşəllərin ölkədə səyahəti başladı. Bir ay, bir ay on gün keçəcək, bu təmtəraqlı hadisə də - Avropa Oyunları da sovuşub keçəcək. Yox, mən bunun hansısa formada əleyhdarı deyiləm...**

Bütün böyük tədbirlər ölkəyə nəsə gətirir. İnsanlar da özləri üçün nəsə götürürlər, nəsə yeni bir şey öyrənirlər. Mənim diqqətimi çəkən bilirsiniz nə oldu? Atəşgahdan başlanan tədbir...

Bütün xalqların elə xüsusiyyətləri olur ki, onlar həmin xalqları min xalq arasından seçməyə imkan verir. Buna individuallıq da deyirlər. Bu vaxta qədər nar da, od da mənim üçün adi bir şey idi. Hətta mərhum Toğrul Nərimanbəyovun çəkdiyi nar rəsmlərinə baxıb düşünürdüm ki, adam nə qədər nar çəkə bilər? Yetmədimi?..

Demirəm ki, Avropa Oyunları mənim gözümü açdı. Yox, sadəcə, gördüm ki, bu ölkəni idarə edənlərdə də ona qarşı azacıq da olsa, sevgi var. Bəli, onlar da o detalları axtarırlar ki, ölkəyə bir individuallıq versin...

Atəşpərəstliyin sonrakı evolyusiyası mənə o qədər də aydın deyil. Düşünürəm ki, bəlkə dünyada bizim xalq qədər onun elementlərini yaşadan ikinci bir xalq yoxdur...

Qərəz, bunlar qürur duyulası şeylərdir. Amma nə edəsən ki, ürəklərdə yenə də bir narahatlıq var. Ürəklərimiz sanki durmadan çırpınır. Çünki qarşıdan gələn Avropa oyunlarını bayram kimi də qarşılaya bilmirik...

Ona görə ki, bu ölkədə Avropa atributları bir yamaq kimi görünür. Məhbəslərdə hələ də siyasi dustaqlar var və onlar çox gözəl insanlardır. Həmin o bayramlar vaxtı onlar məhbəsdə olmamalı idilər. Bilmirəm, bəlkə də oyunlar ərəfəsində də əfv olacaq? Hər halda, bu, çox yaxşı olardı...

Bilirsiniz, adam nə düşünür? Atalar övladlarının yasına məhbəsdən gəlirlər. Bu ürəkağrıdan bir cəhətdir. Hakimiyyət burada hətta Babil qülləsi tiksə də bu əməlləri ona qarşı həmişə acıq yaradacaq...

Burada adını unutduğum bir rus şairinin gözəl bir şeiri yadıma düşür. Çox gözəl şeir idi. Deyir ki, bu nədir, İlahi, şagirdlər müəllimlərdən, övladlar da öz valideynlərindən əvvəl ölür...

Bəli, şair Allaha belə bir müraciət edir, amma axırda da özü qayıdır ki, Alllah neyləsin, onun öz oğlunu zalım insanlar öldürmədilərmi?..

Həqiqətən də təsirli sözlərdir. Həm də təsəlli verən, sakitləşdirən sözlərdir... O qədər təsirlidir ki, adam dərhal toxtayır...

Amma təəssüf ki, böyük əksəriyyət bunun da fərqində deyil. Bilirsiniz, qul olmağın qəribə xüsusiyyətləri, qəribə cəhətləri olur. Xüsusən də insan qul kimi doğulursa, azadlıq haqqında ümumiyyətlə təsəvvürü olmursa, özünün kimliyinin fərqində olmur, qul olduğunu başa düşmür, fikirləşir ki, hər bir şey qaydasındadır, elə belə də olmalıdır...

Biz də bir vaxtlar qul olduğumuzu bilmirdik. Axı "sovet adamları" idik! Bilmirdik ki, sovet adamı elə qulun başqa bir adıdır. Güman edirəm ki, o vaxt almanlar, polyaklar və onlara yaxın xalqların təmsilçiləri vəziyyəti daha yaxşı başa düşürdülər...

Biz isə qul idik, həm də "xoşbəxt" qullar idik... Təzad da elə bundadır... Qərəz, biz qul olduğumuzu bilmirdik. Ona görə də sovetlərin dərdi dərdimiz, bayramı isə bayramımız idi. Əsl həqiqətləri isə sonradan bildik...

Burada maraqlı bir detal yadıma düşür. Moskvada tələbə idik. O vaxt bütün qələbə bayramları bu şəhərdə böyük atəşfəşanlıqlarla qeyd edilirdi. Elə həmin bu atəşfəşanlıqlardan birini seyr etməkdən təzəcə qayıtmışdıq. Dostlardan birinin otağında oturub söhbət edirdik. Aramızda bir alman qızı da vardı. Səhv etmirəmsə, adı Ketrin idi, ya da buna bənzər bir ad idi. İndi, doğrusu, unutmuşam...

Birdən dostlardan biri üzünü alman qızına tərəf tutub "Atəşfəşanlığı seyr etməyə getmişdinmi?" deyə soruşdu. Bir anın içində alman qızının üzünə xəfif bir kədər çökdü. O, zorla eşidiləcək səslə "Biz ki, qalib gəlməmişdik" deyə cavab verdi...

Onun bu sözləri mənə çox təsir etdi. İlk dəfə düşündüm ki, bəs bizlər-özünü qalib xalqın bir hissəsi hesab edən azərbaycanlılar, gürcülər və daha nə bilim kimlər, özümüzü qalib hesab etməkdə nə qədər haqlı idik?.. Axı bizim də həmin işğal olunmuş almanlardan və Almaniyadan elə bir fərqimiz və elə bir üstünlüyümüz yox idi...

Təbii ki, indi sovetlər yoxdur. Siyasi sistemini bəyənməsək də öz ölkəmizdir, öz vətənimizdir. Bəli, bura Azərbaycandır. Bizim Azərbaycanımız! Amma gəl, adam özünü azad hiss edə bilmir. Elə o səbəbdən də ürəklərimizdəki məşəllər sönüb. Qəlblərimizdə elə bir şaxta var ki...

# Pənah Hüseyn 1 mayın qeyd edilməsini istəyir

## Fazil Mustafa: "Xüsusi bir gün olaraq qeyd olunmasında bir məna görmürəm"

**1 may artıq 121 ildir ki, dünyanın əksər ölkələrində zəhmətkeşlərin beynəlxalq həmrəylik günü kimi qeyd edilir. 1 may ötən illərin ən gurultulu bayramlarından biri idi. Tarixdə bu bayramın keçirilməsi 1889-cu ilin iyulunda, Parisdə toplanan II İnternasionalın 1-ci Konqresində dünya zəhmətkeşlərinin birlik, mübarizə günü olaraq qəbul edildi.**

1 may 1890-cı ildə ilk dəfə Avstriya-Macarıstanda, Belçikada, Almaniyada, Danimarkada, İspaniyada, İtaliyada, ABŞ-da, Norveçdə, Fransada və İsveçdə keçirilib. 1891-ci ildə isə Brüssel konqresinin qərarı ilə hər ölkədə bayramın keçirilmə qaydaları müəyyənləşdirilib. 1917-ci ildən Rusiyada 1 may bayramı müstəqil olaraq qeyd edilib. 1918-ci ildə bayram rəsmiləşdirilib. 1933-cü ilin 1 mayında ilk dəfə Moskvada Qırmızı meydanda parad keçirilib. Həmin vaxtdan başlayaraq İkinci Dünya müharibəsinə qədər hər il parad keçirilib.

Azərbaycanda isə 1 may 1920-ci ildən başlayaraq bayram günü kimi qeyd olunub. SSRİ tərkibində olanda 1 may bayramı rəsmi bayram sırasında ən yüksək səviyyədə qeyd olunar və bununla bağlı keçirilən tədbirlərdə, televiziya və mətbuatda insanlara əməyin, zəhmətin nə qədər vacib olduğu aşılanardı. SSRİ-nin dağılmasından sonra isə 1 may bayramının keçirilməsi bəzi ölkələrdə ləğv edildi. 1992-ci ildə keçmiş prezident Əbülfəz Elçibəyin göstərişi ilə 1 mayın rəsmi səviyyədə qeyd edilməsinə son qoyulub.

Maraqlıdır, 1 mayın ölkəmizdə yenə də rəsmi bayram kimi bərpa edilməsini istəyənlər varmı?



gün kimi qeyd olunmasını o qədər anlamlı hesab etmirəm. Əgər insanlar bunu qeyd etməyə təşəbbüs göstərərlərsə, buna normal yanaşıram. Amma siyasi məzmun etibarı ilə 1 mayın xüsusilə də Azərbaycan cəmiyyətində hansısa faydalı bir hadisə olduğunu düşünmürəm".

**AXP sədri Pənah Hüseyn isə əksinə, 1 mayın əmək və həmrəylik günü kimi rəsmiləşdirilməsinin tərəfdarı olduğunu dedi:** "Azərbaycanda işçilərin, əməkçilərin hüquqlarının, həmkarlar ittifaqının inkişaf etməməsi bu günün ölkəmizdə də rəsmiləşdirilməsini zəruri edir. Çünki belə bir günün rəsmiləşdirilməsi insanların əmək hüquqlarının qorunması, onların həmrəy şəkildə özlərinin müdafiəsini təşkil etmək üçün müsbət rol oynaya bilər. Buna görə də bunun dövlət bayramı kimi yox, əmək və həmrəylik günü kimi rəsmiləşdirilməsinin tərəfdarıyam. Azərbaycanda xüsusən həmkarlar ittifaqı hərəkatı üçün bunun əhəmiyyətinin mühüm olduğu qənaətindəyəm".



**Deputat Fazil Mustafa 1 mayın xüsusi bir gün olaraq qeyd olunmasının tərəfdarı olmadığını bildirdi:** "1 may çox sosialist arentasiyalı bir tədbirdir. Müasir dövrümüzdə zəhmətkeş sözünün mənası xeyli dəyişib. Ona görə də konkret olaraq bir proletar kimi zəhmətkeşi götürmək doğru deyil. Əslində hansısa menecer fəaliyyəti də zəhmətkeş fəaliyyəti sayılır. Ona görə də konkret olaraq işçi, fəhlə kateqoriyasına aid edilmir. Bu baxımdan da 1 mayın xüsusi bir gün olaraq qeyd olunmasının bir mənasını görmürəm. Bu funksiyanı yerinə yetirən və ayrı-ayrı sahələri təmsil edən həmkarlar ittifaqları var. Bu həmkarlar ittifaqları güclü olmalıdır ki, işçinin hüququnu qorusun. Bunun ayrıca

❑ Günel MANAFLI

# "Azərbaycan Kürdləri" İB-in sədri Ərbildəki görüşlərindən danışdı

## Tahir Süleyman Kürdüstan parlamentində Xocalı soyqırımının tanınmasını təklif edib

**"Azərbaycan Kürdləri" İctimai Birliyinin sədri, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman Şimali İraq Kürd Administrasiyasının mərkəzi şəhəri Ərbildə səfərdə olub. Artıq Bakı şəhərinə qayıdan Tahir Süleyman "Yeni Müsavat"a Ərbil səfəri ilə bağlı maraqlı informasiya verib. T.Süleyman bildirib ki, İŞİD-lə kürdlər arasında xeyli vaxtdır dəhşətli müharibənin getməsinə baxmayaraq, Ərbil şəhərinin hər yerində sürətli tikinti işlərinin getdiyinin şahidi olub.**



Ərbil səfərinin ilk gününü Kürdüstan parlamentinin ziyarəti ilə başladığını deyən T.Süleyman qeyd edib ki, onu və onunla birlikdə Ərbilə gedən iki iş adamını parlamentin sədr müavini Cəfər Heminki qəbul eləyib: "Biz ermənilər tərəfindən həyata keçirilən Xocalı soyqırımının Kürdüstan parlamentinin gündəminə salınmasını və tanınmasını istədik. Lakin Cəfər bəy Azərbaycanın İraqla, eləcə də Kürdüstan bölgəsi ilə heç bir siyasi əlaqəsi olmadığını və bu məsələnin fərdi şəkildə deyil, dövlət səviyyəsində qoyulmasının lazım olduğunu bildirdi. Eyni zamanda dedi ki, parlament rəhbərliyi sizə imkan yaradar ki, media mənsubları qarşısında, universitetlərdə konfranslar keçirəsiniz və istəyinizi bu vasitə ilə xalqa, ictimaiyyətə çatdırasınız, Xocalı qətliamı barədə ətraflı açıqlamalar verəsiniz. Biz onların yaratdığı imkandan istifadə edib Ərbildə bir sıra görüşlər və tədbirlərdə Xocalı soyqırımı, ermənilərin azərbaycanlılar və kürdlərin başın gətirdiyi faciələr haqda çıxış etdik. Aprelin 22-də beş ulduzlu "Şiraton" hotelində "Kürdüstan" qəzetinin 117-ci il dönümü münasibətilə konfrans keçirilirdi. Biz də dəvətli idik. Mənə də söz verildi, mən də "Kürdüstan" qəzetinin tarixindən, xidmətindən danışaraq media mənsublarına, siyasətçilərə Azərbaycanımız haqqında məlumat verdim. Ermənilərin aprelin 24-də keçirdiyi qondarma "soyqırım"a qarşı olan tarixi faktları qoyaraq bildirdim ki, erməni daşnaqları hələ 1897-ci ildə Türkiyənin Xanasor əyalətində bir gecədə 40 000 kürd və türk xalqını qətl etmişlər. Ermənistanın xalq yazıçısı, daşnak Zori Balayanın "Türklərdən daha artıq kürdlər ölümü, məhv olmağı haqq edirlər" fikrini iştirakçıların nəzərinə çatdırdım. Bəyan etdim ki, erməni daşnak özlərinin yazdıqları kimi 1897-ci ildən başlayaraq 1905-ci ildə, 1907-ci ildə, 1915-ci ildə, Türkiyənin və Azərbaycanın müxtəlif bölgələrində kütləvi qətliamlar törətmişlər, olmazın müsibətlərini Azərbaycan, kürd və türk xalqına yaşatmışlar. 1934-cü ildə, 1937-ci ildə, 1947-ci ildə, 1948-ci ildə Azərbaycan və kürd xalqını doğma yurdlarından sürgün etmişdilər. Və sonda 1989-cu ildə Qarabağ məsələsi ilə bağlı, Qərbi Azərbaycandan, yəni indiki Ermənistandan azərbaycanlıları və müsəlman kürdləri zorla evlərini, mülklərini əlindən alıb qovmuşdular. Hətta körpə uşaqları dəmir borulara dolduraraq boruların ağzını qaynaqlamışlar. Bildirdim ki, Xocalı qətliamı XX əsrdə törədilən ən dəhşətli faciədir. Xocalı faciəsi daha ağır, daha dözülməz olmuşdur. 26 fevral 1992-ci ilin qarlı qış günü erməni daşnaklarının və rus ordusu birləşmələrinin xalqımıza qarşı törətdikləri qətliam heç zaman xalqımızın yaddaşından silinməyəcək. Qeyd etdim ki, bu barədə yüzlərlə qəzet-jurnal yazsa da, təəssüflər olsun ki, Kürdüstan bölgəsindəki soydaşlarımız, dindaşlarımız Azərbaycan xalqının başına gələn faciələri o qədər dəqiq bilmir. Erməni təbliğatı bəzi soydaşlarımızda hətta yanlış təsəvvürlər formalaşdırıb. Həqiqəti bilmək, ermənilərin əsl mahiyyətini bilmək vacibdir".

**T.Süleyman Səlahəddin Universitetinin tarix və ədəbiyyat fakültəsində seminar və universitetin müəllim heyəti qarşısındakı çıxışında da bu mövzuya geniş yer ayırdığını bildirdi.**

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015

**Fransa prezidenti Fransua Ollandın İrəvanın ardınca Bakıya gəlməsindən və azərbaycanlı həmkarı ilə görüşündən sonra Parisin növbəti dəfə Qarabağ danışıqlarında təşəbbüsü ələ keçirəcəyi ehtimalları ortaya çıxıb. Belə bir situasiya isə sözsüz ki, Putini qane etmir və Moskvanın moderatorluğu ələ keçirəcəyi barədə xəbərlərin yayılması da məntiqli görünür.**

Postsovet məkanındakı bütün prosesləri özünün təsir dairəsində saxlamağı birmənalı olaraq dövlət siyasətinə çevirmiş Rusiyanın Qarabağ münaqişəsinin tənzimlənməsində əsas söz sahiblərindən biri olduğu Qərbdə də etiraf edilir. İşğalçı Ermənistanın hərbi müttəfiqi olan Moskvanın ABŞ və ya Fransaya epizodik hallar istisna olmaqla, uzunmüddətli təşəbbüskarlıq missiyasını həvalə etməsi gözlənilən deyil və bu, dəfələrlə təsbit olunub. ATƏT-in Minsk Qrupunun iki həmsədr dövləti, ABŞ və Fransadan sonra Azərbaycan və Ermənistan prezidentlərini bir araya gətirmək növbəsi Putinə çatıb. Bu mənada onun sülhməramlı qiyafəsində görünmək üçün hərəkətə keçəcəyi gözlənilir. Elə erməni mənbələri də bu barədə xəbərlər yaymağa başlayıb. Erməni saytlardan biri iragir.am qeyd edib ki, Rusiya prezidenti Vladimir Putinin aprelin 24-də İrəvana gəlməsi Ermənistana heç də ucuz başa gəlməyəcək. "Aprelin 24-dən sonra Ermənistanı suverenliyinin növbəti tapdanması aktları gözləyir. İstisna deyil ki, bu, Qarabağ probleminə də toxunacaq. Mayın 9-da Azərbaycan prezidenti Moskvada olacaq. Serj Sərkisyan da Moskvaya getsə (çətin ki, o bundan imtina edə bilsin), o zaman Putin üçtərəfli görüş təşkil edə və Ermənistana öz nizamlama planını qəbul etdirə bilər".

Güman olunur ki, Putin həm yaranmış imkandan - Əliyev və Sərkisyanın Moskvaya getməsindən istifadə edib Qarabağ məsələsini müzakirə etmək fürsətini dəyərləndirə bilər. Üstəlik o, İrəvandakı "soyqırım" şousuna qatılmaqla Türkiyə ilə soyuqlaşan əlaqələrin normallaşmasına xidmət edə biləcək bu şansı qaçırmayacaq.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, 9 mayda Putinin başı tədbirlərə qarışacaq. Odur ki, üçtərəfli görüş olsa belə, bu, simvolik xarakter daşıyacaq:** "Ukraynaya görə Qərblə gərgin münasibətləri olan Putinin Dağlıq Qarabağ münaqişəsinin həllinə girişəcəyini zənn etmirəm. Putin 24 apreldə İrəvana gedib "soyqırım olub" deməklə artıq tərəfsiz olmadığını nümayiş etdirdi. Belə bir addımdan sonra Putin Ermənistan hakimiyyətini hansısa güzəştə məcbur edə bilərmi? Çətin. Əksinə, Moskva Ermənistan-Azərbaycan, Ermənistan-Türkiyə münasibətlərinin nizamlanmasının əleyhinədir. Bu siyasətin davam etdirilməsi üçün isə Dağlıq Qarabağ problemi həll olunmamalıdır".

Düzdür, Moskvada görüşün baş tutacağı təqdirdə hansısa pozitiv nəticənin əldə olunacağına ümid çox azdır. Xüsusilə də Qarabağ separatçılarının "seçki" keçirmək istəyinə düşməsi danışıqların mənasını sual altına qoyur. Yeri gəlmişkən, Türkiyənin Xarici İşlər Nazirliyi mayın 3-də işğal olunmuş Dağlıq Qarabağ ərazisində qondarma rejimin keçirəcəyi "parlament seçkiləri" ilə bağlı bəyanatla çıxış edib. Bəyanatda qeyd olunub ki, bu seçki münaqişənin sülh yolu ilə uzunmüddətli həlli istiqamətində aparılan işlərə ziyan vuracaq bir təşəbbüsdür. "Beynəlxalq hüquq normalarının, BMT Təhlükəsizlik Şurası qərarlarının və ATƏT prinsiplərinin açıq şəkildə pozulması demək olan bu seçkilərin Dağlıq Qarabağ ixtilafının sülh yolu ilə uzunmüddətli həlli istiqamətində aparılan işlərə ziyan vuracaq bir təşəbbüs olduğu ortadadır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün yenidən pozulması mənasına gələn bu addımı pisləyir, qeyri-legitim hesab etdiyimiz bu seçkiləri tanımırıq. Minsk Qrupunun üzvü olaraq Türkiyə Dağlıq Qarabağ münaqişəsinə ədalətli və uzunmüddətli çözüm tapılması yönündə səyləri dəstəkləməyə davam edəcək" deyə, bəyanatda qeyd olunur. Qardaş Türkiyə bununla Azərbaycanın yanında olduğunu bir daha isbatlamaqla bərabər, konfliktin tənzimlənməsinə cavabdeh olan həmsədrləri hərəkətə gəlməyə də çağırmış olub. Ancaq onlardan biri, Rusiyanın hərəkətə keçəcəyi digər ekspertlər tərəfindən də şübhə ilə qarşılanır.

**Politoloq Arzu Nağıyev də Moskva görüşü ilə bağlı nikbin fikirdə deyil:** "Mövcud vəziyyət onu göstərir ki, ermənilər və onların havadarları heç cürə beynəlxalq hüquq normalarını, BMT-nin qətnamələrini, ATƏT-in təkliflərini saymır və münaqişənin sülh yolu ilə və ya ümumiyyətlə həll edilməsini istəmirlər. Ən son çağırış kimi "Madrid prinsipləri" kimi tanınan təkliflər var. 2007-ci ildə qəbul edilməsinə baxmayaraq, 8 il ərzində yerinə yetirilmir. Bu sənəd Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını göstərən və ATƏT-in Minsk Qrupu tərəfindən təklif edilən bir sənəddir. Və



# Prezidentlərin Moskva görüşü ərəfəsində düşmənə xəbərdarlıq

## **Arzu Nağıyev:** "Ermənistan zor gücünə sülhə məcbur edilməlidir, yoxsa o, heç bir şərtə əməl etməyəcək"
## **Elxan Şahinoğlu:** "Moskva Ermənistan-Azərbaycan, Ermənistan-Türkiyə münasibətlərinin nizamlanmasının əleyhinədir"
## **Üzeyir Cəfərov:** "Xeyli sayda itkilərə məruz qalan düşmən tərəfinin mənəvi-psixoloji vəziyyəti də ürəkaçan deyil"

əsas şərt kimi ilkin mərhələdə Dağlıq Qarabağ ətrafındakı rayonlar Azərbaycanın nəzarətinə qaytarılmalıdır. Bundan başqa, 2010-cu il dekabrın 1-də Astanada ATƏT-in sammitində Rusiya prezidenti, ABŞ-ın dövlət katibi, Fransanın baş naziri, Azərbaycan və Ermənistan prezidentlərinin də imzası ilə beynəlxalq hüquqi normalar, BMT nizamnaməsi və digər sənədlərə uyğun olaraq razılaşdırılmış bəyanat qəbul edilib". **A.Nağıyev bu sənədə də məhəl qoyulmadığını xatırlatdı:** "Ermənilər müxtəlif bəhanələrlə - guya ki, bu rayonlar bufer zonasıdır və s. - ağlasığmaz arqumentlər gətirərək heç cürə bu şərtləri yerinə yetirmirlər, atəşkəsi pozmaqla özlərinə bəraət qazanırlar. Son zamanlar təmas xəttində ermənilər çoxsaylı itkilər verirlər və bu göstərir ki, Azərbaycan ordusu bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət etməklə hərbi üstünlüyü ələ alıb. Belə bir şəraitdə geri çəkilməyin yeri də yoxdur. Düşünürəm ki, Ermənistan zor gücünə sülhə məcbur edilməlidir, yoxsa o, heç bir şərtə əməl etməyəcək və işğal olunmuş torpaqları qaytaran deyil".

**Yeri gəlmişkən, Azərbaycanın müdafiə naziri növbəti dəfə düşmənə ünvanlı hədələr səsləndirib. Nazir Zakir Həsənov ordumuzun işğal olunmuş torpaqların azad edilməsinə hazır olduğunu bəyan edib.** "Bu gün əminliklə bəyan edirik ki, ordumuz bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət etməklə tam hərbi üstünlüyə yiyələnib. Biz düşmənə gücümüzü göstərməklə onlara aydın mesaj verdik. Bu mərhələdə tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsində fəaliyyət göstərən Xüsusi Təyinatlı Qüvvələrin rolunu qeyd etmək vacibdir. İndi isə qarşımızda daha vacib - ikinci mərhələ dayanır: düşmənə qəti və sarsıdıcı zərbələr endirməklə onu işğal olunmuş Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməyə məcbur etmək. Biz bu vəzifənin öhdəsindən gəlməyə qadirik və qısa müddətdə buna nail olacağıq. Buna heç kim şübhə etməsin".

**A.Nağıyev qeyd etdi ki, məhz belə bir vəziyyətdə Azərbaycanın müdafiə naziri Zakir Həsənovun bəyanatı başadüşülən və təqdirə layiqdir:** "Deməli, ermənilər belə bir situasiyanı özləri yaratdılar və artıq bunun cavabını verməlidirlər. Prezidentlərin görüşü ilə bağlı onu demək olar ki, Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, bu şərtləri beynəlxalq hüquqi normalarına riayət etməklə qəbul edir və sülhün tərəfdarıdır, münaqişənin həlli üçün də sülh danışıqlarına hazırdır. Ermənilər isə bunun əleyhinədir . 9 mayda prezidentlərin gözlənilən görüşündən də müsbət bir nəticə əldə ediləcəyi inandırıcı deyil. Ola bilsin ki, Rusiya Ermənistana təzyiq göstərsin, ancaq bu da real görünmür".

**Hərbi ekspert Üzeyir Cəfərov isə "Yeni Müsavat" a bildirdi ki, son vaxtlar müdafiə naziri, general-polkovnik Zakir Həsənovun cəbhə bölgəsində və xarici diplomatik korpusun nümayəndələri ilə görüşlərində səsləndirdiyi bəyanatlar diqqəti cəlb edir və artıq bədnam qonşularımız da çox təşviş içindədirlər:** "Silahlı Qüvvələrimizin ən modern və hazırlıqlı hərbi birləşmələrindən biri olan Xüsusi Təyinatlı Qüvvələrin qarşısında çıxışında da müdafiə naziri bir daha vacib mesajlar səsləndirdi. Həm Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 16-cı ildönümünü qeyd edərək onların son zamanlar düşmənə qarşı keçirilən uğurlu, parlaq fəaliyyətlərini yüksək qiymətləndirən nazir bundan sonra da döyüşlərdə sınanmış xüsusi təyinatlılara önəm veriləcəyini bildirib. İndi çoxları bilməsə də, biz peşəkar zabitlər yaxşı başa düşürük ki, erməni qoşunlarına son zamanlar yaşadılan ən ağır fəsadların, itkilərin icraçıları bizim bir vaxtlar bu qoşun birləşməsində xidmət keçərkən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Mübariz İbrahimovun xidmət yoldaşları misilsiz fədakarlıqlar göstərirlər. Sözün birbaşa mənasında artıq ermənilərə davamlı olaraq sarsıdıcı zərbələr endirilir, onların tezliklə işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxmaları üçün lazım olan addımlar atılır. Öz havadarları vasitəsilə əvvəlki illərdə kəşfiyyat-təxribat cəhdləri həyata keçirən Ermənistan tərəfi artıq qorxu içində bu döyüş tapşırıqlarını yerinə yetirmək üçün normal hərbçilər tapmaqda çətinlik çəkirlər". **Ü.Cəfərovun sözlərinə görə, iş o yerə çatıb ki, artıq onlar bir vaxtlar Rusiya və digər respublikaların silahlı birləşmələri sırasında xidmət keçmiş xüsusi təyinatları öz sıralarına cəlb etmək üçün emissarlarını bir çox yerlərə göndəriblər:** "Xeyli sayda itkilərə məruz qalan düşmən tərəfinin mənəvi-psixoloji vəziyyəti də ürəkaçan deyil. Rusiyanın siyasi və hərbi rəhbərliyinin son vaxtlar Qarabağın işğaldan azad edilməsi istiqamətində ara-sıra səsləndirdikləri bəyanatlar da erməniləri bərk təşvişə salıb. İndi onlar Moskvanın onlara xəyanət etməsindən, onlara arxa çevirməsindən geniş danışırlar. Bunu biz əvvəlki illərdə o qədər görmürdük. İş o yerə çatıb ki, Ermənistan siyasətçiləri və politoloqları da artıq Rusiya tərəfinin Qarabağ məsələsində onlara lazım olan dəstəyi verməməsindən gileylərini həm mətbuatda, həm də qeyri-rəsmi tədbirlərdə dilə gətirilər". **Hərbi ekspert bildirdi ki, ermənilərin xofa düşməsi səbəbsiz deyil:** "Azərbaycan ordusunun son vaxtlar keçirdiyi davamlı və genişmiqyaslı təlimləri, düşmənin çoxsaylı itkilər verməsi artıq hamını Qarabağ məsələsində bir optimal variant seçilməsi üçün səfərbər edib. Hətta ATƏT-in bivec həmsədrləri də hərəkətə keçib, guya nə isə həll edəcəklər kimi özlərini gözə soxmağa cəhd edirlər. 20 ildən artıq bir müddətdə heç bir uğur əldə etməyən, işğalçını beynəlxalq hüquq və normalara əməl etməyə məcbur edə bilməyən qurum indi birdən-birə fəallıq nümayiş etdirməyə cəhdlər edir. ATƏT-in həmsədr dövlətlərindən biri olan Rusiyanın da hədələrinə qətiyyən əhəmiyyət vermək lazım deyil. Rusiya tərəfi artıq dünyaya özlərini Ukrayna məsələsində necə "sülhsevər siyasət" yeritdikləri ilə təsdiq ediblər. Ona görə də biz artıq bütün addımlarımızı daha da qətiyyətli atmalı, ordumuzun döyüş hazırlıqlarının daha da yüksəlməsi üçün lazım olan hər şeyi etməliyik".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015

**İsveçrə səfərini yekunlaşdırıb, yol alırıq Almaniyaya doğru. İlk dayanacağımız Frankfurtdur. Şəhərlə bağlı fotoların da müşayiəti ilə təəssüratlarımızla növbəti reportajlarda tanış olacaqsız. Hələliksə "Yeni Müsavat"ın əməkdaşını bir neçə gün öncədən həvəslə gözləyən mühacirlərimizin söhbətinə qulaq asmağa üstünlük verdik.**

# "Ay azərbaycanlılar, Almaniyaya gəlməyin!"

## Mehdi Xəlilbəyli: "500 milyonluq Avropanı kəndimizin girəcəyindəki Ələddin dərəsindəki fermaya dəyişmərəm"



Görüşün təşkilatçısı 20 ilə yaxındır ki, mühacir həyatı yaşayan, Frankfurtdakı həmvətənlimiz, Kəlbəcər özünümüdafiə batalyonunun keçmiş komandiri İlham Həsəndir. İlham Həsənin geniş müsahibəsini oxuculara təqdim etməzdən əvvəl bizimlə görüşə toplaşan həmvətənlərimizin Frankfurt hekayəsini birlikdə vərəqləyək.

Frankfurtun mərkəzindəki türk restoranlarından birində bir araya gəlirik. Yemək seçimi, söhbətlər göstərir ki, həmyerlilərimizin zövqündə dəyişiklik yoxdur. Biri 10 il bundan əvvəl gəlib, digəri 7-8 il. Amma ləhcəli danışıqları, yemək seçimləri... tam bir azərbaycanlılıq var. Təbii, almandilli ofisiantlara müraciətlərində dili mükəmməl bildikləri hiss olunur, amma... Söhbətə başlayaq, detalları ordan öyrənmək olar.

### "Orqanizmimiz çətinliklə şimal meridianına öyrəşdi"

"Yeni Müsavat" oxucularına Mehdi Xəlilbəyli adı yaxından tanışdır. Müsavat Partiyası Yasamal rayon təşkilatının üzvü, 1988-ci ildən hərəkatda olan bu şəxs 2003-cü il 15 oktyabr gecəsi Müsavat Partiyası qərargahının qarşısında baş verən olaylar zamanı "Lider" TV-nin əməkdaşı Sahil Kərimlinin döyülməsində elə həmin kanal tərəfindən ittiham olundu və uzun müddət görüntüsü bu kanalın ekranlarından düşmədi. Bu haqda bir qədər sonra...

**Hələliksə M.Xəlilbəyli bir azərbaycanlı mühacirin Almaniyada yaşadığı çətinliklərdən danışır:** "Problemlərimiz əsasən səhhətlə bağlıdır. 39-41 dərəcə meridianda yaşamağa öyrəşmiş bizlər indi 10 dərəcə şimala doğru qalxmışıq. Orqanizmimiz çətinliklə şimal meridianına uyğunlaşıb. İkinci bir problemimiz odur ki, potensialımız avropalıların potensialından fərqlidir. Bizdə hər şey müsəlmançılığa, İslama doğrudur. Burda isə hadisələrə tolerant baxırlar. Cəmiyyətə inteqrasiya olunmamız uzun çəkir. Təhsil sistemimiz tamamilə fərqlidir. İnsan dünyaya gələndən təhsil həyatı da başlanır. Öncə bağça, sonra ibtidai məktəb gəlir. Orda fərqli təhsil sistemidir. Növbəti mərhələdə tamam fərqli detallar var. Bağçadan uşaqlara polisləri sevdirməyə başlayırlar. Bağçada uşaqlara yanğınsöndürənlər, ambulans maşınlarını, həkimləri, zibiltəmizləyənləri gətirirlər. Onlara anladırlar ki, bunlar nə deməkdir. Birinci səhhətə fikir verilir. Səhhətini qorumağı, sonra təmiz yaşamağı öyrədirlər. Polislə yanğınsöndürənlər isə onlara təhlükələrdən qorunmağı öyrədir".

**M. Xəlilbəylinin sözlərinə görə, ümumiyyətlə, miqrantın burada formalaşma prosesi olduqca çətin keçir. Müsahibimiz hesab edir ki, bu problem yeni nəslə az təsir edir:** "Yaşı az olan, yeni doğulanlar bu cəmiyyətin qaydalarını qəbul edir. Baxırsan ki, bəzən valideynlərin fikirləri ilə razılaşmırlar. Söz deməsələr də, şərq öyüd-nəsihəti verəndə təəccüblə baxırlar. Mən 12 ildir burdayam və inteqrasiya olunduğumu deyə bilərəm. Məsələn, mən burda orta təbəqə sayılıram. Cəmiyyəti qavrama qabiliyyəti, inteqrasiya müəyyən mərhələdədir. Anlaşılmazlıq olmur. Burda doğulmuş, böyümüşlərlə anlaşa bilirik. Burda doğulanlar, inteqrasiya olunanlar azad insanlardır. O demək deyil ki, onlar tərbiyəsiz və yekəxanadılar. Əksinə, azad fikirlidilər, düşüncələri müstəqildir".

### "Ən böyük problemimiz problemsizlikdir"

**Müsavatçı müsahibimiz Almaniyada mühacirlərin ən böyük probleminin dil problemi olduğunu bildirdi. Onun sözlərinə görə, bu problem olduğuna görə cəmiyyətə inteqrasiya olunmaq asan deyil:** "Öz mövqeyini tutmuş Azərbaycan vətəndaşları çoxdur. Kölgəli insanlar da var, başqalarına kölgə sala bilirlər. Tək Almaniya yox, çalışdığım ölkələrdə -Hollandiya, Çexiya, Fransada gördüm ki, oradakı azərbaycanlılar inkişaf etmək istəyir. Sadəcə, bizim təhsil sistemimiz, təhsilimiz, Azərbaycan vətəndaşı olaraq zəif səviyyədə olduğu üçün potensialımız Almaniyada bəzi şeyləri qavramağa mane olur. Tam ürək açan şəkildə bir-birimizlə əlaqələrimiz zəif olur. Bəzi millətlərə nisbətən geri sıralarda deyilik. Amma Anadolu türkləri daha öndədir. Onların təşkilatları, çalışma sistemləri, qurduqları şirkətlər daha üstündür. Alman parlamentində onların nümayəndəsi, fraksiyaları var. Bizdə isə bir dostumuzu şəhər bələdiyyəsinə üzv seçiblər. Qısası, o qədər də böyük problem yoxdur".

**Əksər mühacirlərə verdiyimiz "ən böyük probleminiz nədir" sualına M.Xəlilbəylinin ilginc cavabı oldu:** "Ən böyük problem problemsizlikdir, Almaniya qoymur ki, insan problemin əlində girinc qalsın". **Amma firavan, qayğısız həyatına baxmayaraq müsahibimizin istəkləri tamam fərqlidir:** "Amma siz bu qayğısızlığın üstünə vətən həsrətini də gəlin. Fikir verin, bütün Avropa Birliyinin 27 bərabər hüquqlu dövləti var, 51-52 də Avropa ölkəsi var. Amma bizim Şərurdakı kəndimizin girəcəyində bir ferma var. O fermanın bir metrinə bütün Avropanı dəyişmərəm. 500 milyonluq nüfuzu Ala qapının girəcəyində, Ələddin dərəsindəki fermanın həyətinə dəyişmərəm".

Masa arxasında əyləşən mühacir dostları onun bu sözünə gülür, M.Xəlilbəyli bu sözləri bir neçə dəfə təkrarlayır. Deyir ki, heç bir sözü boğazdan yuxarı deyil, həqiqətən də Vətən həsrəti başqa şeydir, yaşamayan bilməz.

### "Sahil Kərimlinin döyülməsini mənim adımla hallandırırlar, halbuki...."



### "Bir də gördüm, Müsavat Partiyasının qapısında bir tozanaq qopdu...mən nə bilim, kimdi ordan çıxan?"

**Söhbət zamanı gəlirik Sahil Kərimlinin döyülməsi, bu hadisədə adının, görüntülərdə onun olması məsələsinə. Müsahibimiz hadisənin tamam başqa cür baş verdiyini deyir:** "Baxın, heç nə təqdim olunduğu kimi deyil. Həmin gecə Müsavatın qabağında hər cür qılıqda, qiyafədə adam vardı. Naxçıvanlıların dəstəsi qərargaha hücum etmişdi. Rejimin bütün cinahlarından hücum gəlmişdi. Ambulans işçiləri, jurnalist dəstələri də vardı. Davada yumruq sayı sayılır ki? Hərtərəfli hücum vardı. Orda da bilmirdin ki, kim terroristdir, kim qarapaltarlıdır, kim PKK-çıdır. Nə bilək ki, kimdir hücum edən? Hamısı bir cəbhədən hücum edirdi, biz də müdafiə olunurduq. Heç hücumçunu da sorta bölmək olar? Mən qərargahın qabağında idim. Bir də gördüm, qapıdan bir tozanaq qopdu. Kimisə döyə-döyə pilləkən aşağı yuvarladılar. Mən o yuvarlanan adamın üzünü görmədim, jurnalist olduğunu bilmədim ki. Dedim yəqin təxribatçıdır, içəridə nəsə etmək istəyir deyə vurublar bunu. Təxribatçını, hücumçunu o qarma-qarışıqlıqda mən də vurdum. Amma yenə təkrar edirəm, üzünü görmədən, kim olduğunu bilmədən və sırf müdafiə məqsədilə. Mən orda durub ona deyə bilməzdim ki, üzünü göstər görüm kimsən, nə işə baxırsan. Dava idi, müharibə kimi bir şey baş verirdi onda. O adamın Sahil Kərimli olduğunu isə bir neçə gün sonra, qohumlar mənə zəng edib deyiblər. "Səni televizorda göstəriblər", dedilər".

**Müsahibimiz həmin tarixləri də maraqlı təhlil edir. Deyir ki, həmin vaxt konkret prosedur vardı. Oktyabrın 15-dən 20-nə qədər dağda qoyun otarandan tutmuş, 3 min nəfəri 5 gün ərzində həbs etdilər:** "Onun rəsmi olaraq 1041 nəfərinə cinayət işi açıldı. 300-400 nəfər cərimələrlə canını qurtardı. 141 nəfərinə də həbs-qətimkan tədbiri seçildi. Mən qərargahın qabağındakı müdafiədə iştirak etmişdim. Amma yaylaqdakı, qışlaqdakı müsavatçının nə günahı vardı? Qeyri-müsavatçılar nə etmişdi? O sistem fərqli idi. Xeyirlə şərin mübarizəsi gedirdi. Neçə milyon ildir var bu mübarizə. Yəqin ki, yenə də davam edəcək. Əsas bizim istəyimiz nədir? Vətənimizdə ədalətli bir cəmiyyətin qurulması, azad məhkəmələr olsun. Məhkəmə hər bir vətəndaşın durumundan asılı olmayaraq işə eyni səviyyədə baxmalıdır. Qanun qarşısında hər kəs eyni cür cavabdeh olmalıdır".

### "İndi Rusiyadan, İraqdan, Kosovodan gələnlər ön plandadır. Çünki onlar daha ciddi təhlükədədir. Ona görə bizimkilərin müraciətinə bir qədər gec baxırlar"



### Almaniyanın "azül"ləri və bizimkilər....

**M.Xəlilbəylinin dediyinə görə, Almaniyada 200 dövlətdən mühacir var. Bu arada Almaniyada, eləcə də Hollandiyada mühacirə "azül" deyirlər və Almaniyadakı, Hollandiyadakı müsahiblərim də özlərini belə adlandırırlar. Müsahibimiz miqrantların ümumi təhlilini isə belə verdi:** "Almaniya mühacirlərə fərq qoymur ki, onlar hansı dövlətdən gəlib, necə gəlib. Çünki ölkədə vahid qanun var. Xaricdən gələn şəxsin status alması üçün bir neçə şərt lazımdır: ya vətənində siyasi fəaliyyət göstərdiyi üçün həyatına təhlükə olmalıdır, ya ona qarşı dini təzyiqlər olmalıdır, ya azlıq (milli, cinsi, dini) kimi problemi yaşamalıdır, ya da humanitar məqsədli gəlmiş olması lazımdır. Bu paraqraflara uyğun olmayanda insanları geri qaytarırlar. Bizim vaxtımızda "yol intervüsü" alırdılar. Bu intervüdə soruşurdular ki, hansı yolu keçmisən bura gəlmək üçün. Böyük intervüdə isə insanlardan bura gəliş səbəblərini soruşur, dərdi, problemi ilə maraqlanırlar. İndi Rusiyadan, İraqdan, Kosovodan gələnlər daha ön plandadır. Çünki onlar daha ciddi təhlükədədir. Ona görə bizimkilərin müraciətinə bir qədər gec baxırlar. Bizimkilər birinci intervüsünü verəndən aylar sonra ikinci intervüsünü də verir. İntervü bəzən aylar sonra baş tutur.

Almaniya real ölümlə üzbəüz olanların müraciətlərini ön plana çəkir. Suriyalılara belə şərt qoyulur ki, müharibə qurtaran kimi geri qayıdacaqsınız".

### "Zəng edən olanda deyirəm ki, gəlmə, qardaş, gəlmə... imkanım olsa geri qayıdaram"

**M. Xəlilbəylinin söhbətində səmimi nüanslar xeyli diqqət çəkir. Müsahibimiz bu ölkədə hər nə qədər firavanlıq olduğunu desə də, azərbaycanlılara bura gəlməyi məsləhət görmür:** "Almaniya Azərbaycandan 4000 kilometr aralıdadır. Bu, bizim səhhətimizə mənfi təsir göstərir. Məsləhət deyil. İlk 3-4 il çox xəstələndik. Azərbaycanda bizim orqanizmimiz tamam fərqli öyrəşmişdi. Yunanıstanda, İtaliyada, İspaniyada heç bir problem olmur. Amma buranın iqlimi fərqlidir. Mənə kimsə zəng edib deyəndə ki, Almaniyaya gəlmək istəyirəm, deyirəm, gəlmə. Almaniya iqtisadiyyatı Azərbaycan iqtisadiyyatından qat-qat fərqlidir. Bu inkişafı, gəlişmiş alman potensialını güclü beyinlər yaradıb. Bizimki ilə bunlarınkı ayrı-ayrı radiodalğalardır. Ona görə də alınmır. İmkanım olsa geri qayıdaram, Siyaqutda qalaram. Potensialımız zəif olduğu üçün dəmiryollarında yatdığım olub. Qatar saatlarını bilməmişəm, alman potensialını bilmədiyim üçün o əziyyəti görmüşəm. Əgər almanlardakı bu potensial bizdə olsaydı, bu gün Qarabağ işğalda olmazdı. Ona görə də elə sizin qəzet vasitəsilə müraciət edirəm ki, ay azərbaycanlılar, Almaniyaya gəlməyin, burda yel əsib, qoz tökülmür. Bura gələn burda fəhlə olacaq, general yox. Əziyyət çəkəcək, xəstəlik tapacaq. Amma gələn, gəlmək istəyən adama hər cür yardımı da edəcəyik. Almaniyada maşınsız olmaq kor olmaq kimidir. Sifarişli taksi tapmaq olar ki, onlar da çox bahalıdır".

❑ **Sevinc TELMANQIZI**
**Frankfurt, Almaniya**

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015



# Seçki ilinin dörd ayı: müxalifət üçün ibrət dərsi...

## Natiq Miri: "Sosial sifariş olmayan heç bir etiraz kütləvilik yarada bilmir"

**2015-ci ilin dörd ayı artıq geridə qaldı. Ekspertlər seçki ilinin ilk aylarını qiymətləndirərkən daha çox iqtidar-müxalifət dialoqu məsələsinin üzərində dayanırlar. Ekspert Natiq Miri bildirir ki, iqtidarla müxalif siyasi partiyalar arasındakı görüşlər keçirilməsi 2014-ün ən mütərəqqi hadisələrindən olub: "Çünki dialoq mühiti bu gün Azərbaycan üçün ən vazkeçilməz məsələlərdən biridir. Azərbaycanda gələcək siyasi perspektiv yalnız danışaraq mümkün olacaq.**

Ona görə də bu görüşlərin davamı və proseslərə hələ də az da olsa təsir imkanı olan Müsavat kimi partiyaların dialoqda iştirakı vacibdir. Artıq qarşıdurma dövrünün müxalifətin fiaskosu ilə nəticələndiyi ortadadır və bundan sonra Azərbaycanın mənafeyi sosial-siyasi təlatümləri deyil, dialoqu, anlaşmanı, tədricən dəyişiklikləri gərəkdirir".

**Ekspertin fikrincə, başqa bir hadisə Milli Bankın manatın fevral ayında kəskin devalvasiyaya getməsi olub:** "Milli Şura bununla bağlı cəmiyyətin nəbzini ölçmək üçün etiraz mitinqlərinə başlamağa qərar verdi. Bu mitinqlərdə iki şeyə aydınlıq gəldi. Bəlli oldu ki, manatın gücdən düşməsi və insanların cibinə zərbə vurması belə ciddi sosial etirazlara səbəb olmadı. Və sosial sifariş olmayan heç bir etiraz dalğa yarada bilmir. Hakimiyyət də mitinqə icazə verməklə cəmiyyətin nəbzini ölçdü və bundan sonrakı siyasətini müəyyənləşdirdi. Xalqın mənafeyi adına keçirilən mitinqə insanların gəlməməsi müxalifət üçün ciddi ibrət dərsi olmalı idi. Ancaq ikinci dəfə eyni məkanda eyni metodlarla, eyni təfəkkürlə mitinqə cəhd olunması və toplumun iştirakında əhəmiyyətli bir dəyişikliyin baş verməməsi göstərdi ki, siyasi müxalifət artıq tükənib. Müxalif siyasi güc mərkəzlərinin dəyişməsi və yenidən özü özünü təşkil etməsi zərurətə çevrilib".

**N.Miri dörd ayda baş verən mühüm siyasi hadisələri qeyd edərkən, əfv fərmanına da toxunub:** "Əfv hadisəsi Azərbaycanın siyasi məhbus problemini həll etmədi. Bununla bəlli oldu ki, siyasi məhbusların buraxılmasını tələb edən Qərb dünyası ilə Azərbaycan hakimiyyəti arasındakı münasibətlər hələ də rəvan deyil. Hakimiyyət hələ də Qərbi özünün iqtidarı üçün təhlükə mənbəyi saymaqda davam edir. Bu da Qərblə gələcək münasibətlərdə qeyri-müəyyənlik vəd edir. Bu cür qarşıdurma Azərbaycanı Rusiya ilə Qərb arasında çarpaz atəş altına sürükləyir. Belə bir şərait isə Azərbaycanı pressinq vəziyyətinə sala bilər ki, nəticədə hakimiyyət arzuolunmaz strateji səhvlərə yol verə bilər. Son günlər Azərbaycana olunan təzyiqlər də bunun təzahürü sayıla bilər".

**O, həmçinin neftin qiymətinin kəskin şəkildə aşağı düşməsindən də danışıb:** "Neftin dünya bazarında qiymətinin kəskin aşağı düşməsi hadisəsi də Azərbaycanın buna hazır olmadığını göstərdi. Ancaq bu hadisənin mənfi çalarları ilə bərabər, müsbət çalarları da yox deyil. Hakimiyyət büdcəni doldurmaq üçün artıq bundan sonra iqtisadiyyatın monopoliyasından imtina etmək və leqallaşdırılması zərurəti ilə üzləşdi. Bu isə yaxın gələcəkdə bəzi iqtisadi islahatlara rəvac verə bilər. İqtisadi dəyişikliklər isə siyasi dəyişikliklərə rəvac verəcək. Yəni belə bir perspektiv var və bu baş verərsə, Qərblə münasibətlərdəki gərginlik aradan qalxar və qərbyönümlü strateji inkişaf perspektivi açılar".

**2015-ci ildə Azərbaycan üçün əhəmiyyət kəsb edəcək və ölkəyə təsiri olacaq hadisələrdən biri qondarma erməni "soyqırımı"nın yüz illiyinin keçirilməsidir:** "Bununla bağlı vacib olan dünya ermənilərinin fundamental istəklərinə Azərbaycanla Türkiyənin birgə səyi nəticəsində nail ola bilməməsidir. Bu, bir daha göstərdi ki, türk dövlətləri bir olarsa, biləkləri heç zaman bükülməz. Eyni zamanda bu proses nəticəsində bəzi ölkələrlə münasibətlərə də müəyyən aydınlıq gəldi. Çünki son zamanlarda Türkiyədə süni şişirdilmiş bir Türkiyə- Rusiya strateji münasibətləri təbliğ olunurdu. Rusiya prezidenti Putinin son anda Ermənistanı seçməsi göstərdi ki, Rusiya o qədər də dayanıqlı bir tərəfdaş deyil və bu yöndə Türkiyə bəzi geosiyasi korrektələrə ehtiyac duyur. Ancaq bu hadisənin də müsbət tərəfləri ola bilər. Belə ki, indiki geosiyasi gərginlik vəziyyətində Türkiyə-Rusiya münasibətlərinin soyuması uzunmüddətli və davamlı olmayacaq. Bunu hər iki ölkənin geosiyasi maraqları şərtləndirir. İqtisadi sanksiyalar burulğanında boğulan və diplomatik izolə vəziyyətinə düşən Rusiyanın Avrasiyanın mərkəzi olan Türkiyəyə çox ehtiyacı var. Eynən Qərb tərəfindən sıxışdırılan Türkiyənin Rusiya kimi böyük bir gücə, bazara və geosiyasi əhəmiyyətinə ehtiyacı var. Ona görə də bu münasibətlərin hələlik istiləşməsindən danışmaq olar. Bunun üçün bu ölkələrin qarşılıqlı olaraq müəyyən güzəştlərə getməsi, bəzi siyasi jestlər etməsi gərəkir. Xüsusilə də Rusiya prezidentinin Ermənistan səfərinin kompensasiyası üçün Türkiyəyə yönəlik bəzi cəlbedici addımlar atması gözləniləndir. Artıq qondarma erməni soyqırımı tarixə qovuşdu və bu yöndə Rusiyanın hər hansı siyasi addımına Türkiyənin ehtiyacı yoxdur. Türkiyəni daha çox iqtisadi yöndə güzəştlər, Avrasiya bazarlarına güzəştli gömrük rüsumları şərti ilə buraxmaq, Qafqazda rolunun artırılması və Qarabağ problemində Ermənistanın işğal torpaqlarının azad olunmasına vadar edilməsi maraqlandıra bilər. Bunlar olarsa, gələcəkdə Türkiyə-Rusiya münasibətlərinin daha istiləşməsindən və strateji xarakter almasından danışmaq olar. Belə olduğu təqdirdə, Azərbaycanın da mövqeyi güclənmiş olacaq və çarpaz atəş altından qurtulmuş olacaq. Eyni zamanda Qarabağ probleminin həllini stimullaşdıra və ölü nöqtədən tərpənməsinə, status-kvonun dəyişməsinə rəvac verə bilər. Bu isə regiona sülh, əmin-amanlıq, əməkdaşlıq və inkişaf vəd edir. Ancaq Rusiyanın imperiya niyyəti, dayanıqlı tərəfdaş olmaması bu perspektivi şübhə altına alır. Ancaq hər bir halda bu münasibətlərin gələcək inkişafında Türkiyədə keçirilən parlament seçkiləri, Ukraynada gedən proseslər və Yaxın Şərqdə terrora qarşı mübarizə, o cümlədən Yəməndəki savaşın nəticələrindən də müəyyən mənada asılı olacaq".

**Ekspert qeyd edib ki, Azərbaycanda keçirilən 3-cü qlobal forum dünyada münasibətlər sisteminin iflic olduğu bir vaxtda qlobal nizamın yenidən tapılması yolunda çox əhəmiyyətli hadisə olub:** "Bu yöndə fikir mübadiləsinin Azərbaycanda keçirilməsi ölkəmiz adına müsbət və tarixi hadisədir. Bütün bu hadisələrin fonunda düşünmək olar ki, Azərbaycanda da bəzi pozitiv proseslər başlayacaq. Avropa Oyunlarına qədər ölkədə bütün siyasi məhbuslar azadlığa buraxıla, ölkədə barış və dialoq mühiti yaradıla, iqtisadi və siyasi islahatlar keçirilə bilər. Əgər belə olarsa, ölkənin gələcəyindən müsbət mənada danışmaq olar".

❑ **Röya RƏFİYEVA**

# Unudulan ADNA qurbanları...

## Terrorun ildönümü qeyd olunmadı; Rəhman Məmmədli: "Qarşıdurmaya getməmək üçün ziyarəti təxirə salmaq məcburiyyətində qaldıq"





**Aprelin 30-da ADNA terrorundan 6 il ötdü. Bəzi gənclər təşkilatları ADNA qurbanlarını ziyarət edəcəklərini bir gün öncədən bildirmişdilər. Amma planlaşdırılan tədbirlər baş tutmadı.**

Hadisə törədilən ADNA-nın ikinci korpusunun qarşısında müşahidələr apardığımız zaman əvvəlki illərdən fərqlənməyən səhnənin şahidi olduq. Binanın ətrafı polis mühasirəsində idi. Çoxlu sayda asayiş keşikçisi gözə dəyirdi. Mülkü geyimlilər də az deyildi. Bina qarşısında insanların dayanmasına imkan verilmirdi.

Saat 11:00 radələrində VHP-nin az sayda üzvü ADNA qurbanlarını ziyarət etməyə cəhd etdilər. Lakin polislər onlara əllərindəki gülləri binanın qarşısına qoymağa mane oldular. İçəridəki otağa qoymağı tələb etdilər. Bunu insanların, tələbələrin gediş-gəlişinə mane-çilik kimi qələmə verdilər. Güllər qoyulan otağı çəkmək istəsək də, buna da imkan verilmədi. Otağın pəncərəsinin örtüyü qapadıldı.

Orada olduğumuz 2 saat ərzində demək olar ki, ziyarət üçün universitet qarşısına gələn olmadı. Əvvəlcədən ziyarət təşkil edəcəklərini bildirən bəzi gənclər təşkilatları ya üzvlərinin gəlməməsi ilə bağlı tədbiri təxirə saldıqlarını, ya da ziyarətin vaxtını dəyişdiklərini bildirdilər.

Universitet tələbələrindən öyrəndik ki, ümumiyyətlə, təhsil müəssisəsində terrorla bağlı heç bir tədbir keçirilməyib. Yalnız dərs zamanı bu məsələyə müəllimlər tərəfindən qısa da olsa, toxunulub.

**NİDA Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvü Rəhman Məmmədli polislərlə qarşıdurmaya getməmək üçün ziyarəti təxirə saldıqlarını bildirdi:** "Əslinə qalsa, biz anım tədbirinə ciddi hazırlaşmışdıq. Lakin sonradan xəbər aldıq ki, çoxlu sayda polis universitetin qarşısına toplaşıb. Qarşıdurmaya getməmək üçün ziyarəti təxirə salmaq məcburiyyətində qaldıq. Ziyarət üçün gələnlərin gülləri universitetin qarşısına qoymasına da imkan vermirlər. Bütün bunlar xof yaratmaqdan başqa bir şey deyil".

**Milliyyətçi Gənclər Təşkilatının İdarə Heyətinin üzvü Müşfiq Atilla Vəliyev ziyarətlərinə imkan verilmədiyini bildirdi:** "Az olsaq da, ziyarətə getmişdik. Unutqanlıq demək düzgün çıxmaz. Sadəcə, məsuliyyətsizlik çoxdur. "28 May" metro stansiyasının yaxınlığında toplaşdıq. Polislər bizə yaxınlaşdılar. Ziyarətə imkan verilməyəcəyini söylədilər. Toplu şəkildə hərəkət etməyə mane olurdular. Bütün bunlar sayımızın az olmasına öz təsirini göstərdi. Yığışmağa bilərəkdən mane olurlar. Faciəni unutdurmağa çalışırlar. Bizə məlum olmayan səbəblərdən bu hadisəni ört-basdır etməyə çalışırlar. Bütün bunlar bir daha sübut edir ki, ADNA qurbanları siyasi oyunbazlığın qurbanı olublar. Lakin bu hal belə millətimizin ruhunu göstərdi. Buna tələbə yoldaşlarını xilas edib, öz həyatını qurban verən Savalanı misal göstərə bilərik".

Xatırladaq ki, ADNA-da terror hadisəsi 2009-cu ilin 30 aprelində baş verib. Nəticədə 12 nəfər həyatını itirib, 13 nəfər yaralanıb. Araşdırmalar nəticəsində hadisəni Gürcüstan vətəndaşı Fərda Qədirovun törətdiyi məlum olub. Qatil sonda öz həyatına qəsd edib. Hadisədə təqsirləndirilən digər şəxslər - Nadir Əliyev, Cavidan Amirov, Nəcəf Süleymanov ömürlük, Ariz Qabulov isə 11 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 93 (6121) 1 may 2015




# Kəbədə dünyaya gələn, paklıq rəmzi olan insan

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək rəcəb ayında yaşayırıq. Bu ayın ən böyük tarixlərindən biri İmam Əlinin (ə) dünyaya gəlişi ilə bağlıdır. Əziz İmamımız (ə) "Fil ili"ndən 30 il sonra, rəcəb ayının 13-də, Məkkədə, Kəbə evində dünyaya göz açıb. O, Kəbə evinin daxilində dünyaya gələn yeganə insandır.**

Həzrət Əlinin (ə) mübarək mövludu yaxınlaşmaqdadır. Və bu günlərdə Əli (ə) dühasını dərk etmək, Əli (ə) zirvəsini anlamağa çalışmaq xüsusilə mühüm əhəmiyyət kəsb edir. Həzrət Əlinin (ə) şəxsiyyətini səciyyələndirmək olduqca çətin məsələlərdəndir. Çoxları onu Peyğəmbərin (s) ən gözəl şagirdi, Rəsulullahın (s) insan yetişdirmək məktəbinin ən nəcib məzunu kimi səciyyələndirə bilər. Və onlarla, yüzlərlə bu cür çalarlar gərəkdir ki, Həzrət Əli (ə) fenomeninə bir qədər yaxınlaşmaq imkanı əldə edilsin. Fikrimizcə, Həzrət Əlini (ə) bir sözlə xarakterizə etmək istəsək, deyərik ki, o, həqiqi paklığın rəmzidir. Dost da, düşmən də inkar edə bilməz ki, paklıq, təmizlik, dürüstlük baxımından misilsiz bir insan idi Həzrət Əli (ə)!

İmamın (ə) paklığı onun bütün təzahürlərində öz əksini tapıb. O, Allah evində - bütün müsəlmanların qibləsi olan Kəbə evində dünyaya gəldi! Kəbə mövludlu bu pak insan, Peyğəmbər (s) bağının ən gözəl yetirməsi olaraq, misli-bərabəri olmayan bir zirvə idi - həm öz zamanı üçün, həm də bütün zamanlar üçün.

İstər dünyagörüşü baxımından, istərsə də insanlara və dünyaya baxışına görə - Həzrət Əli (ə) bir paklıq nümunəsidir. Ən başlıcası budur ki, İmam Əli (ə) şəxsiyyətində niyyətlə əməlin ən gözəl vəhdəti cəmlənib. Əxlaqda, əməldə, insanlarla rəftarda təzahür edilib bu paklıq. Müsibətlərdə, sıxıntılarda, ağlasığmaz çətinliklərdə təzahür edilib bu paklıq. Nəinki sadəcə yaşadılıb, hətta çətin durumlarda Əli (ə) paklığı Əli (ə) dönməzliyinin ən gözəl bir təzahürü olub.

Bu müqəddəs paklıq Həzrət Əlinin (ə) həyatının bütün mərhələlərində təşəkkül tapır. İstər Rəsulullahın (s) yanında böyüyüb boya-başa çatdığı dövrdə, istər İslamın ilk dövrlərində, istər İslam düşmənləri ilə mübarizə dövründə, istər Peyğəmbərimizin (s) həyatdan köçməsi zamanı, imamət dövründə, istər ona qarşı fitnə törədiləndə, istər fəthlər zamanı, zahiri xilafət dövründə - bütün dövranlarda Əli (ə) paklığı dillər əzbəri, möminlər üçün nümunə və örnək olub və üstündən 1400 il keçsə də, indi də bütün iman əhli üçün, tərəqqipərvər bəşər üçün örnək olmaqdadır.

Bəs nə üçün ağrılı günlərdə, çətin durumda Həzrət Əlinin (ə) paklığı daha çox təzahür edilirdi? Çünki İmamın (ə) paklığı İlahi məhəbbətdən qaynaqlanırdı. Və çətinliklərə sinə gərdikcə, imanını daha çox təzahür etdikcə, bunu bir İlahi tofiqatdan sanırdı.

Necə ki, qaranlıqda işıq mənbəyinin nuru daha çox gözə çarpar, o qədər də ətraf qaranlıqlaşdıqca, zülmətləşdikcə, öz eyİblərini ortalığa qoyduqca Həzrət Əlinin (ə) paklıq nuru bir o qədər də güclü parlayırdı. Bu müsibət və çətinliklər Əli (ə) şəxsiyyətinin gözəl mahiyyətinin daha da güclü təzahürünə səbəb olurdu.

## İnsanın nöqsanlarının Yaradana aidiyyəti yoxdur

İlahi məhəbbət və imandan qaynaqlanan Əli (ə) dühasında, ibadət edilən məbudu tanımağın əhəmiyyəti xüsusilə vurğulanırdı. Allah Təbarəkə və Təalanı insanlara tanıtdıraraq, Həzrət Əli (ə) buyurub: **"O, bir varlıqdır ki, bəndələrinə münasibətdə azacıq da olsa zülmə yol verməz".**

Həzrət Əli (ə) izah edir ki, insana xas nöqsanların, eyiblərin, çatışmazlıqların, insan həyatında baş verən müxtəlif çeşidli problemlərin Allah-Təalaya zərrə qədər də aidiyyəti yoxdur. Bunlar insanın öz əməllərinin məhsullarıdır.

Allah-Təala insana zərrə qədər zülm etməz - nə dünyada, nə də axirətdə. İnsandır özünü zülmə məruz qoyan. Uca Allah zülm etməkdən tamamən pakdır, münəzzəhdir. Zülm - nöqsandır, çatışmazlıqdır, naqislikdir; bu sifətlər isə ehtiyaclılıq yaradır, ehtiyaclılıq isə Mütləqiyyətə, Qüdrətə zidd olduğu üçün, Uca Allahın zatına ziddir.

Həzrət Əli (ə) etiqadı insana çatdırır ki, yaşayışının eyibləri, nöqsanları, həyatının çatışmazlıqları, çətinlik və ağrıları özünə rəvac bildiyin zülmün məhsuludur. Zülm nədir? Nəyinsə öz yerində olmaması, mövcudiyyət fəlsəfəsinin əksinə istismar edilməsi, lazımın ziddi, əksi. Bəs kim müəyyən edə bilər nə necə istifadə olunmalıdır? Əlbəttə ki, həmin bu nəyisə yaradan. Demək, insanın nəyi necə etməli məsələsini mövcudiyyətin Uca Yaradanı müəyyənləşdirə bilər. Beləliklə, insan Xaliqin tövsiyəsinin ziddinə getdikdə, özünə zülm etmiş olur. Və ona əmanət olaraq verilmiş vücuduna, ruhuna zülm etdiyi üçün özünü İlahi əzaba mübtəla edir.

Yəni Əli (ə) məntiqi ilə bəşəriyyətə çatdırılır ki, insan öz çətinliklərini, müşkül və acizliklərini Allahla bağlamalı deyil. İnsan çətinliklərinin mənbəyini Allahda axtara bilməz. Bunların mənbəyi insandır, insan toplumudur. Hər səviyyədə - fərdi, ailə, kənd-oba, şəhər, ölkə, dünya səviyyəsində olan zülmlərdir harmoniyanı zədələyən, insanı zillətə salan.

## Xeyir istəmək və şərdən uzaqlaşmaq duası

İmam Əlinin (ə) mübarək şəxsiyyətini xatırlayanda, ilk öncə o Həzrətin (ə) Allahla münacatları göz önünə gəlir. Yaşadığımız Rəcəb ayı oruc tutmağın xüsusilə bəyənildiyi bir ay olmaqla bərabər, münacat, istiğfar ayıdır. Bu ayda çoxlu zikrlər var ki, insanın bağışlanmasının, istiğfarının açarıdır. Rəcəb ayında bu tövbə zikrinin çox deyilməsi tövsiyə olunub: "Əstəğfirullahə və əs-əluhut-təvbəh".

Buyurulub ki, bu zikri rəcəb ayında insan nə qədər çox desə, o qədər yaxşıdır. Mənası odur ki, "İlahi, bağışlanmaq diləyirik Səndən və tövbə arzu edirik". Buradan aydın olur ki, insan bu ayda özünün Allah dərgahına qayıtmasına, tövbə etməsinə, Allahdan bağışlanmasını diləməsinə böyük önəm verməlidir.

Rəcəb ayında gündəlik oxunan bir dua var ki, çox bərəkətli və nəcib münacatlardandır. Allah-Təalanı tanımaq üçün bu duanın böyük əhəmiyyəti var. Allah Təala o qədər lətifdir ki, müxtəlif yollarla Özünü bəndəsinə tanıtdırır. Əgər insan istəyə Rəbbini tanısın, bircə elə bu duaya diqqət yetirməsi çox şeyi açar onun üçün. Allah Təala ən yüksək dərəcədə bəndəsinə Öz lütfünü göstərir. İnsan o cümlələrə diqqət etsə, özü kimdir və Rəbbi kimdir məsələsinə xeyli aydınlıq gətirə bilər.

Duada buyrulur: "Yə mən ərcuhu li kulli xayr" - "Ey o Kəs ki, bütün xeyirlərdə Ona ümidliyəm".

**Sonra: "Və əmənu səxatahu 'ində kulli şərr"** - və Onun qəzəbinə səbəb olan bütün şərlərdən Ondan aman diləyirəm.

Sonrakı cümlə məxsusən şirindir. Buyrulur: "Yə mən yu'til-kəsira bil-qalil" - "Ey o Allah ki, mənim az əməlimin müqabilində çox əta edir". Sonra: "Yə mən yu'ti mən sə-ələhu" - "Ey o Allah ki, Ondan istəyənə əta edir". Sonra bir qədər də şirinləşir: "Yə mən yu'ti mən ləm yəs'əlhu, və mən ləm yə'rifhu" - "Ey o Allah ki, Ondan istəməyənə də əta edir. Və (hətta) Onu tanımayana da əta edir".

Bəndə deyir: "Sən o Allahsan ki, Səndən istəməyənə və Səni tanımayana da əta edirsən. Bəs mən gəlmişəm, Səndən istəyirəm" və sonra deyir: "Təhənnunən minhu və rahməh" - "Öz geniş rəhmətinlə və lütfünlə edirsən". Yəni bəndə deyir: "İndi mən gəlmişəm, öz dilimlə istəyirəm. Sən Öz geniş rəhmətinlə mənə əta et".

Nəyin əta olunmasını istəyir bəndə? Sonrakı cümlədə bu, açıqlanır: "Ə'tini biməs'ələti iyyəkə, cəmi'ə xayrid-dunyə və cəmi'ə xayril-əxirah" - "İlahi, Pərvərdigara! Mənə bu dünyanın və axirətin bütün xeyirlərini nəsib et".

Sonra buyurulur: "Vəsrif ənni biməs'ələti iyyəkə, cəmi'ə şərrid-dunyə və şərril-əxirah" - "İlahi, məndən bütün bu dünyanın və axirətin şərlərini uzaq et!".

Bu dünyanın şərləri nədir? Bu dünyanın şərlərindən biri də odur ki, məni qorxaqlardan qərar vermə, məni yaltaqlardan qərar vermə, məni ikiüzlülərdən qərar vermə, məni insanlıqdan uzaq düşənlərdən, haqq basanlardan, zülm edənlərdən qərar vermə!

Məni axirət şərindən uzaq et. Axirət şəri nədir? Ən böyük axirət şəri odur ki, insan Qiyamət günü yezidlərlə, müaviyələrlə, hitlerlərlə, səddamlarla məhşur olsun, zalımlarla bir dirilsin. Zalımların qələm tutanlarından olsun, haqqı basıb, nahaqqı deyənlərlə birgə olsun. Axirət şəri odur ki, insan Qiyamət günü birdən ayılıb görsün ki, məhşur olub o kəslərlə ki, Kərbəlada İmam Hüseynin (ə) qarşısını kəsdilər, onun balalarının üzünə suyu bağladılar! Məhşur ola o kəslərlə ki, dünya malına aldanıb, öz həyatlarını puç etdilər, insanlara sitəm etdilər, Allah evlərini viran etdilər.

Rəcəb bizə bunu öyrədir. Xeyir və şər deyəndə ilk növbədə insanın şəxsiyyəti ilə bağlı məqamlar nəzərdə tutulur. Mübarək duanın sonunda Allah Təalaya müraciətlə çox məhrəm və şirin tərzdə əzabdan amanda qalmaq, nicat tapmaq istənilir. Cəhənnəm odunun dua edənin cisminə yaxın düşməməsi dilənilir.

## Mənəvi islahatlar ayı

Bəli, Uca Allah hər zaman eşidən, hər zaman dua qəbul edəndir. Amma necə ki, günlərin arasında xüsusi önəmli olanı var - məsələn, cümə günü kimi, eləcə Allah Təbarəkə və Təala xüsusi vaxtlar qoyub ki, insanlar o vaxtlara diqqət ayırıb, başqa vaxtlarda çata bilməyəcəklərinə bunlarda tam yiyələnə bilsinlər.

Rəcəb ayında Allahın lütfü, inayəti tam surətdə iman əhlinin, bu ayın orucunu tutanların üzərindədir. Rəcəb ayının əməllərinə sahib çıxanların üzərindədir Allahın xüsusi nəzəri. Əslində Rəcəb ayı Ramazan ayında İlahi nemət ziyafətinə hazırlıq mərhələsidir. İnsan Ramazan ayında İlahi nemət süfrəsindən tam formada bəhrələnmək istəyirsə, rəcəb-şəban ayları ona bu imkanları kamil surətdə təqdim edir. Bu ayın hətta 1 gün orucu Allahın razılığını əldə etmək üçün gözəl vasitədir. Bu ayın hətta 1 gününün orucu İlahi qəzəbi söndürər. Əməl var, cəhənnəmə qapı açır, əməl də var cəhənnəmin qapısını bağlayır. Rəcəb ayı o aylardandır ki, cəhənnəm qapılarını bağlamaq fürsətlərini Allah Təala bəndəyə təqdim edər.

Rəcəb ayı - mənəviyyat, islahat ayıdır. İnsanları bu gün dünyada hər şeydən çox düşündürən mövzu mənəviyyat, əxlaq mövzusudur. Dünyada başdan-başa əxlaqsızlığın, mənəviyyatsızlığın, zülmün aşıb-daşdığı bir vaxtda iman əhli üçün, mənəviyyat əldə etmək istəyən üçün ən gözəl fürsət var rəcəb ayında.

## İradəvi peşmançılığın göstəricisi

İnsanın bir varlıq olaraq zəif, ehtiyaclı, asılı varlıq olmasını sübut edən amillərdən biri də onun günah etməsidir. Günahların böyük və kiçik olmasından asılı olmayaraq, insan onu etməklə əslində nə qədər zəif bir varlıq olduğunu sübut edir. Bu günahlardan sonra Allaha sığınmaq, Allahdan onun bağışlanmasını diləmək isə, Allahın mərhəməti olmadan məhv ola biləcəyimiz anlamındadır.

Həzrət Əli (ə) buyurur: **"Günah etdiyin zaman tövbə ilə onun məhvinə tələs".** İnsanlar heç də hər zaman öz nəfsi ilə mübarizədə qalib gələ bilmir. İnsan hər dəfə günah, xəta edən zaman öz zəifliyini, öz acizliyini tanımış olur. Bu durumda Allaha sığınmaq, Allahdan məğfirət, bağışlanma diləmək əslində insana Rəbbi ilə münasibət qurmağa yardımçı olur. İnsan dərk edir ki, Allaha sığınmasa, Allahdan məğfirət diləməsə, məhv ola bilər.

Günahlar deyildikdə, nədənsə insanların düşüncəsinə ilk növbədə böyük günahlar gəlir. Halbuki Allahın razı olmadığı bütün işlər, Allaha itaətsizlikdən etdiyimiz bütün səhvləri bu qəbildən qəbul etməliyik. Həzrət Əli (ə) bizlərə xəbərdarlıq edir ki, günahlara görə dərhal tövbə edilməlidir. Anlaşılır ki, əgər həmin günahlara görə tövbə etmiriksə, bu, bizim ruhiyyəmizdə təsir qoya bilər. Tövbə günahları məhv edib aradan aparan yeganə vasitədir. Tövbə - insanın iradəvi peşmançılığının göstəricisidir.

Həzrət Əmirəlmöminin (ə) tövbə ilə bağlı digər bir yerdə buyurur: **"Tövbə işini sabaha saxlayan ölümün hücumu ilə çox böyük təhlükə qarşısındadır".**

İnsanlar bəzən tövbələrini də bir neçə böyük günahlarla məhdudlaşdırır. Təbii ki, böyük günahlara görə tövbə etmək vacibdir. Lakin insan digər günahları və xətalarını da xatırlamalı, onlar üçün gec olmadan tövbə etməlidir. İnsanı tövbəyə yönəldən əsas vasitələrdən biri və hətta birincisi ölümü xatırlamaqdır. Çünki insan hər an ölə biləcəyini düşünsə, günahlardan tövbəsini sonraya saxlamaz.

Həzrət Rəsulallah (s) buyurur: "Gözü ölümün yolunu çəkən, yaxşı əməllər görməyə çalışar". Mömin bir bəndə üçün qəfil ölüm - bir nemətdir. Çünki o, ömrünü hər zaman ölümü xatırlamaqla keçirir, buna hazırlaşır. Bir uzun yola səfərə çıxmağa hazırlaşan şəxs və bu səfərin onun daimi yeri olacağını bilən insan, gedəcəyi yer üçün ən yaxşı azuqələrdən toplamağa çalışar. Mömin anlayır ki, o biri dünya üçün ən yaxşı yük - gözəl əməldir. Bu səbəbdən, ölümə hazırlaşan yaxşı əməllər görməyə çalışar. Ölüm haqda təfəkkürümüz tövbəyə gətirib çıxarar.

Həzrət Əmirəlmöminin (ə) buyurub: **"Allah öz qəzəbini günahda gizlədib. Heç bir günahı az hesab etməyin. Ola bilər ki, Allahın qəzəbi həmin günahda gizlənmiş olsun".** Həzrət Əli (ə) bizləri böyük təhlükə barədə öncədən xəbərdar edir. Bizlər heç bir günahımızı gərək yüngül, kiçik bilməyək, günahlarımızla bağlı səhlənkar davranmayaq. Elə bir günah edə bilərik ki, biz əslində onu kiçik günah hesab edirik, amma Allahın bütün qəzəbi məhz o günahda gizlənib. Bəzən o qədər də əhəmiyyət vermədiyimiz məsələlərin içərisindədir Allahın qəzəbi.

Kiçik sandığımız bir günah bizi elə bir mənfi hala gətirər ki, artıq bütün aqibətimizi zay etmiş olarıq. Ona görə də insan gərək özü ilə, davranışları, etdiyi əməllərlə bağlı hər zaman ayıq-sayıq olsun, heç bir günahı səhlənkarlıqdan və ya kiçik bilməsi səbəbindən etməsin.

**Allahım, bizləri İmam Əlinin (ə) həqiqi ardıcıllarından qərar ver!**

**Allahım, bizləri Öz rəhmətinə qərq et!**

**Allahım, bizlərə Rəcəbin nemətlərindən bol-bol inayət et! Amin!**

# Bu yollara daxil olanlar 60 manat cərimələnəcək

## Vaqif Əsədov: ""Avropa Oyunları" zolağına girən sürücülər inzibati məsuliyyətə cəlb olunacaqlar..."







**Artıq paytaxt yollarında "Bakı-2015" ilk Avropa Oyunlarının əsas marşrut şəbəkəsi boyunca hərəkət zolaqlarının çəkilməsi prosesinə başlanıb. Bu barədə mətbuata Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.**

Şöbə rəisi, polis polkovniki Kamran Əliyev bildirib ki, zolaqda yalnız xüsusi buraxılış icazəsinə malik avtomobillər hərəkət edəcək: "Paytaxt küçələrində zolaqların çəkilməsi prosesi may ayının ortalarına kimi başa çatdırılacaq. Zolaqlar daxilində hər 250 metrdən bir "Bakı-2015" ilk Avropa Oyunlarının loqosu çəkilib. Sürücülər nəzərə almalıdılar ki, bu zolağa daxil olmaq üçün xüsusi buraxılış tələb edilir".

**Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi Vaqif Əsədov** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu zolağa hər hansı sürücünün daxil olması inzibati məsuliyyət yaradacaq: "Bu zolaqda ancaq təyin edilmiş nəqliyyat vasitələrinin hərəkəti nəzərdə tutulur. Buraya daxil olan digər sürücülər cərimə olunacaq. Yola müvafiq nişanlar qoyulacaq, kameralar quraşdırılacaq və nəzarət ediləcək. Əlavə nə məlumatlar olsa, biz mətbuat vasitəsilə cəmiyyəti məlumatlandıracağıq. Metronun "Koroğlu" stansiyasından Ziya Bünyadov prospekti ilə xətlər artıq çəkilib və işlər davam etdirilir. Bu yollara Avropa Oyunlarının emblemi də vurulacaq".

Qeyd edək ki, Avropa Oyunlarının hərəkət zolaqlarından istifadə və parkinq qadağandır. Həmin zolaqlar yarışların keçirildiyi müddətdə fasiləsiz rejimdə mayın 29-dan iyulun 1-dək fəaliyyət göstərəcək. Oyunların hərəkət zolaqları boyunca "Bakı-2015"in loqosu təsvir edilən və asanlıqla tanına bilən xüsusi yol nişanları qoyulacaq. Yalnız xüsusi buraxılışa malik nəqliyyat vasitələri bu hərəkət zolaqlarından istifadə edə biləcək.

Ümumi şəhər nəqliyyatı isə yalnız digər hərəkət zolaqlarından istifadə edə biləcək. Oyunların hərəkət zolaqlarından istifadə qaydalarını pozanlara qanunla nəzərdə tutulmuş şəkildə ciddi cərimələr tətbiq olunacaq. Bu hərəkət zolaqlarına Yol Polisi və Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən həm müşahidə kameraları, həm də yollardakı polis əməkdaşları vasitəsilə nəzarət ediləcək.

Xatırladaq ki, "Yol hərəkəti haqqında" Qanuna əsasən, girişi qadağan olunan yola daxil olduqda sürücülərə İnzibati Xətalar Məcəlləsi ilə 60 AZN məbləğində və 3 ballıq cərimə tətbiq edə bilər. Avropa Oyunları zolaqlarına daxil olan sürücülərə də məhz bu cərimənin tətbiq ediləcəyi ehtimal edilir. Lakin daha dəqiq qərarlar zolaqlar tam hazır olduqdan və qadağa nişanları qoyulduqdan sonra bəlli olacaq.

❑ Nərgiz LİFTİYEVA

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# "Nar" mobil operatoru "Asan İmza" xidmətinə pulsuz qoşulma ilə bağlı kampaniyaya start verir




**Azərbaycanın mobil elektron imza xidməti olan "Asan İmza"ya cari ilin 10-31 may tarixləri ərzində qoşulma ödənişsiz olacaq. Belə ki, hazırda "Asan İmza" xidmətinin aktivləşdirilməsi üçün təyin edilmiş məbləğ 18 AZN təşkil edir və qeyd edilən tarixlərdə "Nar" abunəçiləri mobil operatora müraciət edərək bu məbləği ödəmədən "Asan İmza" xidmətini aktivləşdirə biləcəklər. Sözügedən kampaniyanın keçirilməsi may ayında ölkə üçün əlamətdar olan mühüm tarixləri - Azərbaycan xalqının Ümummilli Lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünü və Respublika Gününü qeyd edəcək həmvətənlərimizin bayram ovqatına əlavə sevinc qatmaq məqsədini daşıyır.**

**Hazırda dövlət strukturlarının təqdim etdiyi elektron xidmətlərin cəmləşdiyi Elektron Hökumət portalında 400-dən artıq, ümumilikdə isə ölkə üzrə sayı 500-ü keçmiş elektron xidmətlərdən yararlanmaq üçün "Asan İmza"dan istifadə oluna bilər. "Asan İmza"nın köməyilə vətəndaşlar kütləvi istifadə üçün nəzərdə tutulmuş bir sıra elektron xidmətlərdən asanlıqla və operativ şəkildə faydalana bilərlər - belə ki, əvvəlki dövrlərdən fərqli olaraq heç bir quruma fiziki olaraq müraciət etmədən vətəndaşlar şəxsiyyət vəsiqəsi, yaşayış yeri, iş yeri və diplom haqqında arayışları elektron şəkildə formalaşdıra və lazımi instansiyaya təqdim edə, məktəblilər təhsil aldıqları təhsil müəssisəsi barədə elektron arayışı əldə edə, eləcə də adına stasionar telefon nömrəsi rəsmiləşdirilmiş şəxslər rabitə xidmətlərinə görə borcun olmamasına dair arayışı formalaşdıra bilərlər.**

**"Asan İmza" avtomobil sahibi olan şəxslər üçün də tam yeni və rahat xidmətlər vəd edir. Belə ki, "ASAN Xidmət" tərəfindən istifadəyə verilmiş "Asan Ödəniş" portalında sürücülər "Asan İmza"dan istifadə edərək əlavə qeydiyyatdan keçmədən öz elektron kabinetlərinə daxil olaraq real zaman rejimində yol-hərəkət qaydalarının pozuntusuna görə cərimələrinin olub-olmamasını yoxlaya, cərimənin foto və video materialları ilə tanış ola və cəriməni onlayn ödəyə bilərlər. Bundan əlavə, "Asan Ödəniş" portalında (www.asanpay.az) avtomobillərinin dövlət nömrə nişanlarını "Asan İmza" vasitəsilə qeydiyyatdan keçirən bütün sürücülər cərimələri barədə "Asan Ödəniş" sistemi tərəfindən ödənişsiz SMS ismarıclar alacaqlar.**

**Qarşıdakı dövrlərdə "Asan İmza" ilə mümkün olan bu cür rahat və ictimai həyat üçün mühüm əhəmiyyət kəsb edən vacib elektron xidmətlərin siyahısı davamlı olaraq genişlənəcək və mobil imza xidməti gündəlik həyatın daha çox sahəsinə nüfuz edərək vətəndaşların rahatlığına daha yaxından xidmət edəcəkdir.**





# Avropa Oyunları kirayə mənzilləri bahalaşdıracaq?

## Ev bazarında bunu real hesab etmirlər; ekspert: "Qiymət artımı gözlənilmir..."

**2012-ci ildə Azərbaycanda "Eurovision" mahnı müsabiqəsinin keçirildiyi ərəfədə ölkəyə minlərlə turistin gəlməsi Bakıda kirayə qiymətlərinin artmasına səbəb oldu. Artıq I Avropa Oyunlarının keçirilməsinə də sayılı günlər qalıb. Bu il də dünyanın gözü Azərbaycanda olacaq və ölkəyə turist axını qaçılmazdır. Bəs bu durum kirayə mənzil bazarına necə təsir edəcək?**

Suala cavab tapmaq üçün paytaxtın "Neftçilər" metrosu yaxınlığındakı "Makler bazarı"na baş çəkdik. Ev dəllalları bildirdi ki, uzun müddətdir bazarda durğunluqdur, heç bir qiymət artımından söhbət gedə bilməz.

**Makler Fəxrəddin Əliyevin** sözlərinə görə, hazırda kirayə qiymətlərinin bahalaşması üçün heç bir əsas yoxdur: "Belə söhbətlər gəzir ki, Avropa Oyunları ərəfəsində evlər bahalaşacaq. Ancaq bu həqiqətə uyğun deyil. Çünki dövlət tərəfindən xaricdən gələn turistlərin yerləşdirilməsi üçün mənzillər ayrılıb. Onlar gəlib burada kirayə axtarmayacaqlar. Əksinə, həmişə bu vaxtlar bazarda mənzil çoxaldığından kirayə qiymətləri ucuzlaşır. Bir müddət sonra yayın gəlişi ilə əlaqədar tələbələr, işçilər məzuniyyət götürüb rayona qayıdacaqlar. Bununla da kirayə evlər çoxalacaq, qiymətlər düşəcək. Hələ ki qiymətlər sabitdir".

Dəllalların sözlərinə, hazırda iki otaqlı orta təmirli bir evi 250-300 manata, 3 otaqlı evi isə 350 manatdan başlayaraq əldə etmək olar. Təbii ki, evin şəhərin mərkəzinə yaxınlığından, evdəki əşyalardan və təmirin keyfiyyətindən asılı olaraq qiymətlər arta və ya azala bilər.

**Maklerlər həmçinin hazırda mənzil bazarındakı durğunluqdan şikayətləndilər. Onların sözlərinə görə, iş yerlərində aparılan kütləvi ixtisarlar insanları müflis edib:** "Bölgələrdən paytaxta işləməyə gələn və burada kirayə qalan insanlar işdən çıxarıldığı üçün rayona qayıdırlar. Bu da bizim işimizə təsir edib. Səhərdən axşama kimi burdayıq, ancaq qazancımız yoxdur".

**Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı da "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, kirayə mənzil bazarında qiymət artımı gözlənilmir:** ""Olimpiya kəndi" deyilən ərazi var, orada xüsusi mənzillər nəzərdə tutulub və orada idmançılardan əlavə xaricdən qonaqları da yerləşdirmək mümkündür. Bu səbəbdən Avropa Oyunları ərəfəsində kirayə mənzillərə tələbatın artacağını düşünmürəm".

Qeyd edək ki, kirayə mənzillərdən fərqli olaraq satışdakı mənzillərin qiymətində ucuzlaşma müşahidə olunur. Maklerlər bildirir ki, satışa çıxarılan mənzillərin sayı həddindən artıq çoxdur, alıcı tapmaq isə mümkün deyil. Mənzillərinin tez satılmasını istəyənlər bazar qiymətindən daha ucuz şərtlər təklif edirlər. Artıq evlərin dollarla deyil, manatla təklifinə üstünlük verilir. 100 min manata təklif edilən mənzilləri hazırda 80-90 min manata almaq mümkündür. Evlərini satmaq istəyənlərin əksəriyyəti isə Rusiyada çalışanlardır. Bu baxımdan ev dəllalları hazırkı vəziyyəti ev almaq istəyənlər üçün əlverişli vaxt kimi qiymətləndirirlər.

❑ Nərgiz LİFTİYEVA

Fotolar müəllifindir

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

YENİ MÜSAVAT

Son səhifə

N 93 (6121) 1 may 2015



## Dünyanın ən qəribə cütlüyü

İngiltərədə yaşayan Rebeka Dinsdale adlı qadın dünyaya gəldiyi zaman həkimlər ailəsinə üzücü bir xəbər verib. Ailə ilə söhbət edən həkimlər onun qırılan sümük xəstəliyi ilə doğulduğunu, heç vaxt ayağa qalxa bilməyəcəyini və heç bir zaman köməksiz yeriyə bilməyəcəyini deyiblər. İki yaşına qədər yaşaması belə möcüzə edilən qızın ailəsi özlərini hər şeyə hazırlamışdılar. Lakin Rebeka rastlaşdığı çətinliklərlə mübarizə aparmağı bacarıb. Hazırda 31 yaşı olan gənc qadın həyat yoldaşına dünyanın ən böyük sürprizini belə edə bilib. Belə ki, həkimlərin əsla ayağa qalxa bilməyəcək dediyi qadın öz toyunda əsası olmadan yeriyə bilib. O, 2005-ci ildə internetdə tanış olduğu Norman adlı oğlanla evlənib. 35 yaşlı əri ilə xoşbəxt yaşadığını deyən Rebeka hələ də qırılan sümük xəstəliyi ilə yaşayır. Gənc qadının asqırması belə onun həyatı üçün olduqca risklidir. Hər gün yeni bir sümüyünün qırılmasından qorxa-qorxa yaşayan qadın həyata olan sevgisini itirməyib. Əri isə Rebekanı çox sevdiyini, boy fərqinin və xəstəliklərin onun üçün mənasız olduğunu deyib.

# Ürəyi ən sağlam...

Vaşinqtondakı Genetik və Səhiyyə Mərkəzində son 5 il ərzində aparılan araşdırmalar nəticəsində ortaya maraqlı faktlar çıxıb. Keyfiyyətli qidaların qəbul edildiyi 7 ölkə üzərində aparılan araşdırmalar göstərib ki, Yaponiya, İtaliya və Yunanıstanda yaşayan insanların infarkt keçirmə riski digər ölkələrdə yaşayanlara nisbətən daha azdır. Ürək xəstəliyindən ölənlərin sayının ən az olduğu yer isə Yunanıstanın Girit adasıdır. Araşdırmanı aparan Artemis Simopoulosun sözlərinə görə, Girit adasında yaşayanların sağlam olmasının səbəbi gündəlik həyatda "Ağdəniz pəhrizi"ndən istifadə etməlidir.



Omega-6, Omega-3 və antioksidant baxımından zəngin olan Ağdəniz pəhrizi ilə qidalananlar şəkərli diabet və ürək xəstəliklərindən qorunurlar.

# Galacəyin mətbaxi belə olacaq

IKEA şirkəti gələcəyin mətbəxini təsvir edib. Şirkətin dizaynerlərinin fikrincə, 10 ildən sonra mətbəxdə müxtəlif texniki avadanlıqlar olmayacaq. Mətbəxlərdə vahid ideoloji kompleks təşkil ediləcək. Gələcəyin mətbəxində əsas rolu özündə bir neçə funksiyanı birləşdirən universal masa oynayacaq. Quraşdırılmış kamera masadakı ərzaqları tanıyacaq. Masanın üzərində isə hər ərzağın proyeksiyası, bu inqreditlərdən hazırlanması mümkün olan yeməklərin reseptlərini göstərən ekran olacaq. Masaya quraşdırılmış qızdırıcı cihazın köməyi ilə yeməkləri elə həmin masada hazırlamaq mümkün olacaq. Bu cihazlar həmçinin fincandakı çay və ya kofenin temperaturunu saxlamağa imkan verəcək, eləcə də onların köməkliyi ilə smartfon və ya planşetləri akkumulyatorunu doldura biləcəklər. Ağıllı masanın bütün potensial imkanlarını nümayiş etdirən videoçarx YouTube-a yerləşdirilib.





## Amerikalı tərzi ilə qidalanma risklidir

İngiltərənin İmperial Collage Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, amerikalı tərzində qidalanmaq xərçəng xəstəliyi riskini daha da artırır. Araşdırma zamanı genetik özəllikləri yaxın olan 20 amerikalıya və 20 afrikalıya 2 həftə ərzində qidalanma tərzlərini dəyişdirmək tapşırılıb. 2 həftəlik təcrübə nəticəsində məlum olub ki, yüksək miqdarda "fast food" yeməkləri və ət yeyən afrikalıların düz bağırsaq xərçənginə tutulma ehtimalları artıb. 2 həftə ərsində lifli qidalar yeyən amerikalılarda isə düz bağırsaq xərçəngi riski azalıb. Düz bağırsaq xərçəngi dünya üzərində ən ölümcül hesab edilən dördüncü xəstəlikdir. Bu xəstəliyə görə hər il 600 min nəfər həyatını itirir.




**QOÇ** - Gün ərzində bütün işlərdə bacardığınız qədər məsuliyyətli olmalısınız. Əks təqdirdə, nəzərdə tutduğunuz planları reallaşdırmaqda problemləriniz olacaq. Səfərə hazırlaşmağa dəyər.

**BUĞA** - Bürcünüz üçün aktiv olan bu təqvimdə hansısa ciddi problemlə rastlaşma ehtimalınız yoxdur. Əksinə, uğurlu nəticələrdən xəbər verən çoxsaylı görüş və sövdələşmələrdə iştirakınız baş verəcək.

**ƏKİZLƏR** - Yaxın on gün ərzində üzərinizə düşən vəzifələri indidən planlaşdırın. İştirakçısı olduğunuz hər bir sövdələşmədə qarşı tərəfin rəyini nəzərə alın. İnadkarlıq sizə başucalığı gətirən deyil.

**XƏRÇƏNG** - Göstərdiyimiz zaman kəsiyində yeni işlərə başlamaq və sizə aid olmayan münasibət məsələlərinə müdaxilə etmək xoşagəlməz sonluqla nəticələnə bilər. Qazanmaq ehtimalınız böyükdür.

**ŞİR** - Qarşınızda olduqca məsuliyyətli bir dövr durur. Biznes sahəsində və münasibətlərdə proseslər ürəyinizcə olacaq. Amma xətakar və yalançı adamların şirin dilinə aldanmayın.

**QIZ** - Yaramaz adamlardan uzaq olun. Çünki sizə qarşı pislik etmək istəyənlər çoxdur. Hər hansı mübahisə və prinsipiallıq isə sizin üçün deyil. Boş məsrəflərə çox pul xərcləməyin.

**TƏRƏZİ** - Yeni ayın bu ilk günü əsasən fərdi yaradıcılığınız üçün uğurlu olacaq. Həmkarlarınızla aranızda mövcud olan gərginlik qismən səngiyəcək. Səhhətinizin də qayğısına qalın.

**ƏQRƏB** - Təxminən saat 12-yə qədər ümumi əhvalınızda gərginlik müşahidə ediləcək. Sonrakı saatlarda isə daxili sabitliyiniz bərpa olunacaq. Əsas vaxtınızı istirahətə həsr edin.

**OXATAN** - Təzə ayın bu ilk təqvimi sizin üçün kifayət qədər uğurlu olacaq. Xırda maliyyə problemlərini nəzərə almasaq, digər sahələrdə cərəyan edən situasiyalar zövqünüzlə uyğunlaşacaq.

**OĞLAQ** - Sağlamlığınızı qorusanız, başqa probleminiz olmayacaq. Sıxıntı çəkməkdənsə dəniz sahilində, kənd yerində dincəlin. Amma lazımsız yerlərə pul xərcləmək fikrinə düşməyin.

**SUTÖKƏN** - Günün birinci yarısını nəzərə almasaq, qalan saatlar bürcünüz üçün düşərli olacaq. Yeni simalarla rastlaşmağınız, işgüzar proseslərdə dəstək almağınız gərginliyinizi azaldacaq.

**BALIQLAR** - Fəaliyyət zəminində xırda irəliləyişlərdən başqa hansısa mütərəqqi uğurlara yiyələnməyəcəksiniz. Qohumluq-qonşuluq münasibətlərində humanistlik göstərin. Savab qazanmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İlan dilli qız



Qəribə bir seçim edərək dilini əməliyyatla iki hissəyə ayıran gənc qadın yeni halı ilə çəkdiyi videonu internetdə yayımladıqdan sonra bir anda məşhurlaşıb. Amerikanın Kaliforniya ştatında yaşayan qız davamlı olaraq öz bədəni ilə oynayır. Belə ki, o, bədəni ilə diqqət mərkəzində olmağı sevir. Tatu, pirsinq, fərqli saç modelləri ilə dəyişiklik edən Arçinin son addımı hər kəsi şoka salıb. Uzun müddətdir "ilan dilli qız" adı ilə çağırılan Arçinin sosial şəbəkədə 4 milyon təqibçisi var. Bir övladı olan qadın dilini özü kəsir. Lakin dili bir müddət sonra bitişdiyi üçün tez-tez bu əməliyyatı təkrarlamalı olur.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.